# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2019-cu ilin yekunları üzrə görülmüş işlər barədə HESABATI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi struktur və iqtisadi islahatlar çərçivəsində görülən tədbirlər nəticəsində digər sahələrdə olduğu kimi, əqli mülkiyyət sahəsində də 2019-cu ildə əhəmiyyətli dəyişikliklər baş vermiş, Azərbaycanın yeniləşməsinin, sosial-iqtisadi islahatların uğurla reallaşdırma qüdrətinə malik olmasının, iqtisadiyyatının şaxələnməsinin və innovativ inkişaf yolunun tərkib hissəsi olaraq əqli mülkiyyət sisteminin inkişafına yönəlmiş bir sıra normativ hüquqi sənədlər qəbul edilmiş, koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən idarəetmə modeli formalaşmışdır.

Dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə müəyyən edilən aidiyyəti vəzifələrin icrası ilə əlaqədar hesabat ilində Əqli Mülkiyyət Agentliyinin qarşısında duran əsas vəzifə kimi ilk növbədə dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasətinə əqli mülkiyyətin təsiri və innovativ inkişafa adekvat xidmət etməsi üçün müvafiq tədbirlər həyata keçirilmiş, innovasiyalı inkişaf və iqtisadi artımda ƏM-in roluna aid araşdırmalar aparılmış, nəticələr təhlil edilmiş və istifadə olunmuş, bu vəzifələr yerinə yetirilərkən beynəlxalq miqyasda əqli mülkiyyətlə bağlı yeni amillər nəzərə alınmışdır.

İlk dəfə olaraq patent analitikası və patent landşaftlarına əsaslanaraq Azərbaycan ixitraları vasitəsi ilə ölkənin texnoloji profili müəyyən edilib və patent üzə aparıcı ölkələrin dünyada ən qabaqcıl istiqamətləri təqdim edilib.

İlk dəfə olaraq Agentlik tərəfindən beynəlxalq indikatorlar üzrə ölkəmizin reytinqlərinin yaxşılaşdırılması üçün təkliflər hazırlanaraq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiyalar və innovasiyalar” İşçi Qrupuna təqdim edilmişdir.

Hesabat ilində Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin, məlumat toplularının və inteqral sxem topologiyalarına (bundan sonra – müəlliflik hüququ obyektləri) hüquqların qorunması və təmin edilməsi, rəqəmli hüquqların idarə edilməsi, kontrafaksiya və piratçılığa qarşı mübarizə, sənaye mülkiyyəti obyektlərinin idarə edilməsi və bu idarəçiliyin müasir zamanın tələblərinə uyğun təşkil edilməsi, yeni rəqəmsal xidmətlərin və informasiya sistemlərinin yaradılması istiqamətlərində zəruri işlər görülmüşdür. İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilərə (bundan sonra – sənaye mülkiyyəti obyektləri) dair müraciət edən şəxslər üçün dürüstlüyün, açıqlığın və şəffaflığın təmin edilməsi və vətəndaş məmnunluğunun təmin olunması, əhaliyə göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi, “vahid pəncərə” prinsipinin təmin edilməsi, ixtira və patent fəallığının artırılması, sənaye mülkiyyəti obyektlərinin sifarişçiləri və ekspertiza və digər xidmət aparanlarla kontaktsız münasibətin qurulması məqsədi ilə ASAN tipli “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” “PƏNAH” rəqəmli informasiya sisteminin yaradılması üzrə işlər tamamlanmış, həmçinin informasiya texnologiyalarının verdiyi imkanlar hesabına əqli mülkiyyət hüquqlarının qorunmasının yeni sistemlərinin yaradılması və tətbiq edilməsi üzrə işlər başa çatdırımış və sistem test rejimində işə salınmşıdır.

Təhsil və elmi-tədqiqat müəssisələrində əqli mülkiyyət siyasətinin müəyyən edilməsi, kiçik və orta biznes subyektlərində innovasiyaların stimullaşdırılması, patent sifarişçilərinin ilkin axtarış və ekspertizası işlərinin təkmilləşdirilməsi, startaplar və spinautlar üçün vergi preferensiyalarının müəyyən edilməsi, milli brendlərin təbliği və “one-stop-shops” prinsipi üzrə rəqəmsal müəllif hüququnun idarə edilməsi məsələləri də diqqət mərkəzində saxlanmış, bu sahələrdə görülən işlərin keyfiyyəti və xidmətlərin səviyyəsi daha da yüksəldilmişdir. Bu istiqamətlərdə fəaliyyət aşağıdakı vacib amillər nəzərə alınmaqla həyata keçirilmişdir:

- ali təhsil və elm sistemində baş verən radikal transformasiya nəticəsində 3.0 (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, texnologiyaların kommersiyalaşması və transferinin ön plana çıxarılması;
- elmi-tədqiqat nəticələrinin tətbiqini gözləyən nəzərəçarpan ehtiyatların mövcudluğu və onların həyata keçrilməsi üçün məqbul şəraitin yaradılması;
- Kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, burada əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması;
- əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi.

Hesabat ilində sənaye mülkiyyəti obyektlərinə aid qanunvericilikdə islahat xarakterli dəyişikliklər edilmiş, ixtiraçılara dəstək məqsədilə beynəlxalq patent qeydiyyatı PCT sisteminin təşviqi və dövlət tərəfindən xərclərin bir qisminin ödənilməsi, həmçinin ölkəmizin patent alınmasını sadələşdirən "Patent Hüququ Müqaviləsi"nə (PLT) qoşulması, universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində IP ofislərin yaradılması, mövcud ofislərin texnologiyaların kommersiyalaşdırılması və transferi ofislərinə (TKTM) çevrilməsi, Texnologiyaların Kommersiyalaşdırılması və Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzlərinin (TİDM), o cümlədən Əqli Mülkiyyət Agentliyinin nəzdində yaradılması və onların fəaliyyətinin təşkil edilməsi üzrə işlər davam etdirilmişdir.

Agentliyin tabeliyində olan Patent və Əmtə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətində səmərəliliyin artırılması məqsədilə ekspertiza meyarları təhlil edilərək təkmilləşdirilmiş, əhaliyə göstərilən xidmətlərin keyfiyyəti artırılmış, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində rəqəmli hüquqların idarə edilməsi, mədəni irsin milli elektron məlumat bazasının yaradılması və təlim xidmətlərinin göstərilməsi üzrə tədbirlər həyata keçirilmişdir.

Agentliyin qarşısında qoyulmuş əsas vəzifələrdən biri kimi Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin yeni müasir çağırışlar nəzərə alınmaqla buradakı mövcud vəziyyətin öyrənilməsi məqsədilə Kitabxananın balansında olan əmlak, kitab və sənədlər fondu, eləcə də əhaliyə göstərilən xidmətlərin monitorinqi aparılmış, nəticələri təhlil edilmiş, aşkara çıxarılan nöqsan və çatışmazlıqların aradan qaldırılması, burada göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi, eləcə də işçilərin sosial və iş şəraitinin yaxşılaşdırılması istiqamətlərində tədbirlər həyata keçirilmiş, Kitabxananın infrastrukturu və maddi-texniki bazasının təkmilləşdirilməsi və gücləndirilməsi üzrə işlər görülmüşdür. Bu çərçivədə Nazirlər Kabinetinin 28 dekabr 2019-cu il tarixli 506 nömrəli Sərəncamı ilə Respublika Elmi-Texniki Kitabxanasına "Respublika" statusu verilmişdir. Bununla yanaşı, hesabat ilində işçilərin sayının azalmasına baxmayaraq, onların fəaliyyətinin səmərəsinin artırılması və daha çevik idarəetmə modellərindən istifadə etməklə əhaliyə göstərilən xidmətlərin səviyyəsi yüksəldilmişdir.

Əqli Mülkiyyət Agentliyinin 2019-cu ildəki fəaliyyətinin yekunlarına aid bu hesabatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat və idarəçilik sahələrində islahatların aparılması ilə bağlı fərman və sərəncamlarından, müvafiq Dövlət Proqramlarından, icrası Agentlik tərəfindən həyata keçirilən 7 qanundan ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunlar) və digər müvafiq sənədlərdən irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə görülmüş işlər və əhaliyə göstərilən dövlət xidmətlərinin

səviyyəsinin yüksəldilməsi istiqamətlərində fəaliyyət barədə məlumatlar öz əksini tapmışdır.

**1. Əqli mülkiyyət və iqtisadi inkişafla bağlı dövlət başçısı İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarından irəli gələn vəzifələrin icrası.** Ölkəmizdə aparılan iqtisadi islahatlar çərçivəsində elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"ndan, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"ndan, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanından irəli gələn vəzifələr hesabat ilində aidiyyəti üzrə yerinə yetirilmişdir.

Hesabat dövründə göstərilən proqram xarakterli sənədlərin aidiyyəti bəndlərinin icrası çərçivəsində elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi, eyni zamanda universitetlərdə və elmi tədqiqat müəssisələrində aparılan elmi tədqiqat işlərinin nəticəsi olaraq yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmərəsinin artırılması üzrə ölkəmizdə aparılan işlərə dəstək verilməsi məqsədi ilə Agentlik tərəfindən il ərzində bir sıra tədbirlər həyata keçrilmiş, o cümlədən Agentliyin təşkilatçılığı və dəstəyi ilə kreativ iqtisadiyyat, əqli mülkiyyətin iqtisadi inkişafda rolu, elmi tədqiqat nəticələrinin praktiki tətbiqi və kommersiyalaşdırılması, məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu və s. mövzuları əhatə edən 7 (onlardan 3-ü beynəlxalq, 4-ü milli) konfrans, regional seminar keçirilmiş, həmin tədbirlərin mövzularına uyğun olaraq kitablar hazırlanaraq sərgiləri təşkil olunmuşdur. O cümlədən:

- **2019-cu il 11 fevral tarixində** Əqli Mülkiyyət Agentliyi və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanmış, "**İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu**" mövzusunda konfrans keçirilmişdir. Memorandum hər iki quruma səlahiyyətləri çərçivəsində iqtisadi islahatlara dəstək vermək, əqli mülkiyyət sahiblərinin və investorların əlaqələndirilməsini, iqtisadi əhəmiyyətli startapların kommersiyalaşdırılmasını birgə səylərlə həyata keçirmək, informasiya, proqram təminatı və insan resursları potensialından birgə hədəflər üçün istifadə etmək imkanları yaratmışdır. Konfransda Agentliyin İdarə Heyətinin sədrinin giriş sözü və eyni adlı təqdimatı əsasında Azərbaycan və ingilis dillərində kitab hazırlanaraq nəşr edilmiş və yayılmışdır.
- **2019-cu il 5-6 mart tarixilərində** dövlət başçısının 30 iyul 2018-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin icrası çərçivəsində Azərbaycan Respublikası Hökuməti və ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nin birgə təşkilatçılığı ilə **"Patent hüququ Müqaviləsi"nə dair beynəlxalq seminar** keçirilmişdir. Tədbirdə son illər ölkəmizin patent sistemində baş verən dəyişikliklər təhlil edilmiş, qeyd edilmişdir ki, texnologiyaların indiki sıçrayış

dövründə və innovasiyaların “rəqəmsal imperativ” zamanında innovativ inkişaf – tədqiqatlar nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və ƏM-in yaratdığı insan kapitalının ekosistemidir. «Gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diqtə ediləcəyi və onu idarə etməsi qaçılmazdır». Bununla da texnologiyaların ƏM-in mövcud landşaftına kardinal təsiri və öz növbəsində əqli mülkiyyətin buna qarşı çıxmaması, əksinə, ona uyğunlaşmasıdır. Patent təşkilatları zamanın çağırışlarına adekvat cavab axtarışında yeni paradiqma mövqeyindən yanaşaraq, fəaliyyətinin təhlilində özünəməxsus daxili göstəricilər qəfəsindən çıxmalı və patent sahəsinin fəaliyyətini innovativ proseslərə təsiri ilə ölçməlidir. Çünki innovativ iqtisadiyyatda innovasiyalar istehsalatın başıca faktoru kimi əsas iqtisadi resursa – intellektual kapitala söykənir və varlığın, zənginliyin yaranma mənbəyi texnoloji, intellektual və informasiya rentasından irəli gəlir. Seminarda Agentliyin İdarə Heyətinin sədri tərəfindən edilmiş prezentasiya əsasında **“Patent qanunvericiliyinin təkmilləşdirilməsi və qarşımızda duran vəzifələr”** adlı kitabça hazırlanaraq yayılmışdır.

Bu istiqamətlərdə aparılan işlər çərçivəsində **“İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri (Yaradılması və fəaliyyəti üzrə tövsiyələr)”** adlı kitab (Azərbaycan və rus dillərində) hazırlanmış və maraqlı şəxslər arasında yayılmışdır.

- **2019-cu il 14 iyun tarixində** Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının dəstəyi ilə ***“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanının aidiyyəti üzrə icrası ilə əlaqədar*** **“Məhkəmə islahatları: məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu”** mövzusunda konfrans-təlim keçirilmişdir. Tədbirdə əqli mülkiyyət üzrə məhkəmə təcrübəsinin misalları əsasında məhkəmə işlərinin uğurla, ədalətli həyata keçirilməsində bir neçə əqli mülkiyyət spesifikasından doğan konseptual vəzifələr vurğulanmış, göstərilmişdir ki, “**Qarşımızda duran vacib konseptual məsələlərdən biri – əqli mülkiyyət sahəsindəki münaqişələrdə hakimlərin xüsusi biliklərə malik olması, bu biliklərin hakimlərin müstəqilliyinin zəmanəti məsələsidir**. Lakin hazırda bu cür məhkəmələrin olmadığı bir şəraitdə məhkəmə iclaslarında mütəxəssislərin iştirakına, ekspertizaların təyin edilməsinə və sorğuların göndərilməsinə diqqət yetirilməlidir”. Bu sahədə dünya təcrübəsi əsasında əqli mülkiyyət hüquqlarının təminatının təşkilində üç əsas üsula diqqət yetirilib: Birincisi – ixtisaslaşmış məhkəmələrin yaradılması (Böyük Britaniya, Almaniya, Yaponiya, Rusiya və s.), ikincisi – məhkəmələrdə xüsusi hakim tərkiblərinin təsisatı (ABŞ, Avstriya, Belçika, Kanada, Fransa və s.) və üçüncüsü - əqli mülkiyyət üzrə kvazi məhkəmə orqanlarının (xüsusi tribunallar) formalaşdırılması (Avstraliya, Çin, Yeni Zelandiya və s. ölkələrin təcrübəsi). ƏM obyektlərinin xüsusiyyətləri münaqişənin keyfiyyətli həlli üçün hakimlərdən yalnız hüquqi deyil, bir çox hallarda texniki, hətta təbii-elmi biliklərin olmasını tələb edir. Bu heç də təsadüfi deyil, çünki hakimlərdə xüsusi biliklərin olması ƏM sahəsində hüquq və fakt məsələlərinin sıx əlaqədə olması təbiətindən irəli gəlir. **Odur ki, əqli mülkiyyət üzrə ixtisaslaşmış məhkəmələrin yaradılması mühüm və aktual məsələdir və bununla bağlı təkliflərimiz müvafiq instansiyaya təqdim edilib.** Lakin hazırda bu cür məhkəmələrin olmadığı bir şəraitdə məhkəmə iclaslarında mütəxəssislərin iştirakına, məhkəmə ekspertizalarının təyin edilməsinə və sorğuların göndərilməsinə diqqət yetirilməlidir.
- **2019-cu il 5-6 dekabr tarixlərində** Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nin birgə təşkilatçılığı ilə **“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanının aidiyyəti üzrə icrası ilə əlaqədar “Əqli mülkiyyət hüquqlarının**

**müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi"** mövzusunda ikinci seminar keçirilmşdir.

Tədbir dövlət başçısının məhkəmə-hüquq sistemindəki islahatları ilə bağlı təşkil edilmiş və dövlət başçısının məhkəmə-hüquq sistemində və eyni zamanda əqli mülkiyyət sahəsində apardığı islahatların dəstəklənməsi məqsədlərinə xidmət etmişdir. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin məhkəmə-hüquq sistemində islahatların dərinləşməsinə aid Fərmanının icrasına dair ilk qanunvericilik aktları paketinin bu ilin iyul ayında qəbul olunaraq, islahatların institusional komponentlərini əhatə etdiyi və bu dəyişikliklərin 2020-ci ilin yanvarın 1-dən qüvvəyə minəcəyi qeyd olunmuş və bu islahatlara əsasən, ixtisaslaşmış məhkəmələrin iki sisteminin – inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməlinin qoyulduğu vurğulanmışdır. Noyabr ayında hazırlanmış ikinci qanunvericilik paketində nəzərdə tutulan qanun layihələri "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunlardan başlayaraq, ümumiyyətlə 11 qanunu əhatə edir. Qanunlarda edilən dəyişikliklərin əsas məqsədi – vahid məhkəmə təcrübəsinin yaradılması və ədalət mühakiməsi həyata keçirilərkən, məhkəmələr tərəfindən hüquq normalarının eyni cür tətbiqinin təmin edilməsidir. Qeyd edilib ki, dövlət başçısının məhkəmə sistemində vahid hüquqi yanaşmanı təmin etmək barədə tələbi ilk növbədə ədalət mühakiməsinin keyfiyyətini qaldırmağa xidmət edir. Dövlət başçısının təşəbbüsü ilə məhkəmə-hüquq qanunvericiliyində həyata keçirilən dəyişikliklər əqli mülkiyyət sistemindəki məhkəmə mübahisələri üçün də həddindən artıq vacib nəticələrə gətirib çıxaracaq.

Qeyd olunan islahat xarakterli dəyişikliklər xüsusən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının "Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi" bölməsində təsbit edilmiş "**Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir" tədbirinin icrası ilə bağlıdır .** Bununla yanaşı, bu sahədə mövcud vəziyyətin təhlilinin nəticələri olaraq bir sıra problemlər göstərilmiş və onların həllinin vacibliyi vurğulanmışdır. Misal üçün, müvafiq Məcəllələrdə qeyd edilir ki, hüquqpozmalar müəyyən edildikdə Əqli Mülkiyyət Agentliyi tərəfindən protokollaşdırılır və cəza sanksiyalarının tətbiqi üçün məhkəmələrə yönəldilir. Lakin məhkəmələr tərəfindən adekvat cavab görülmür, inzibati hüquq işlərinə adətən xitam verilir. İkincisi**,** məlumdur ki, «ex parte» - müvəqqəti tədbirlər, yəni hüquqpozmanın mahiyyətcə baxılmasından öncə, sübutların qorunub saxlanması üçün xüsusən müəllif-hüquq sahəsində vacib əhəmiyyət kəsb edir və piratçılığa qarşı mübarizə alətlərindən biridir. Lakin bu mexanizm zəif tətbiq olunur və demək olar ki, sıfır səviyyəsindədir**.** Üçüncüsü**,** "antipirat qanununun" tələbi olan – məhkəmə qərarlarının dərc olunması zəif yerinə yetirilir, halbuki bunun əhəmiyyətli dərəcədə maarifçi-informasiya potensialı vardır.

"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin Əqli Mülkiyyət Agentliyi üzrə icrasının təmin edilməsi haqqında verilmiş müvafiq əmrlə təsdiq edilən Tədbirlər planı çərçivəsində "Milli brendlərimizi qoruyaq (Milli brendlərin hüquqi qorunması və onların müəllif-hüquq nöqteyi-nəzərindən qeydiyyatı)", "Qlobal innovasiya indeksi", "Kreativ iqtisadiyyat və kiçik və orta sahibkarlığın innovasiyalı inkişafı", "İnnovasiyalı inkişaf və əqli mülkiyyət", "İT-İP:Əqli mülkiyyətin gələcəyinə baxış" və s. kitabçalar hazırlanaraq və yenidən işlənərək təkrar çap edilmiş, il ərzində keçirilmiş tədbirlərdə iştirakçılara və maraqlı şəxslərə paylanmışdır. Agentliyin nümayəndəsi Yol Xəritəsinin "3.2.4. Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi" tədbirinin icrasının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış İşçi qrupun üzvü kimi keçirilən iclaslarda fəal iştirak edir, Agentlik tərəfindən bu bəndin icrası ilə bağlı görülən işlər barədə məlumat verir.

Ümumiyyətlə, hesabat ilində **“Made in Azerbaijan”** brendinin təşviqi, loqotiplərin müəlliflik hüququnun obyekti kimi qeydiyyatı, kütləvi istehsal olunan və fərdi toxunan xalçalarımız üzərində Azərbaycana aid loqonun ilmələrlə toxunmasına dəstək verilməsi və qeydiyyata alınması istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamından irəli gələn aidiyyəti vəzifələr çərçvəsində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiya və innovasiyalar” işçi qrupuna əqli mülkiyyətə aid indikatorlar üzrə ölkəmizin beynəlxalq reytinqlərinin yaxşılaşdırılması üçün təkliflər hazırlanaraq təqdim edilmişdir. Bu istiqamətdə görülən işlər nəticəsində ölkəmizin beynəlxalq reytinqlərdə mövqeləri daha da möhkəmlənmiş, digər sahələrdə olduğu kimi, əqli mülkiyyət sahəsində əldə olunan uğurlar da nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır.

Belə ki, Dünya İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Hesabatına görə, Azərbaycan 141 ölkə arasında “mülkiyyət hüquqlarının qorunması” üzrə 37-ci və “əqli mülkiyyətin qorunması” göstəricisinə görə 30-cu yeri tutmuşdur. Bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

**Qlobal Rəqabətlilik Hesabatın “Əqli mülkiyyətin qorunması” indikatoru**




Cədvəldən göründüyü kimi, "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi”nin son beş ilin göstəricilərinə görə, Azərbaycanın “Əqli mülkiyyətin qorunması” sub-indeksi üzrə göstəriciləri (2015-ci ildə - 92-ci yer, 2016-cı ildə - 71-ci yer, 2017-cı ildə - 37-ci yer, 2018-cı ildə isə 36-cı yer, 2019-cu ildə 30-cu yer) daim yüksələn xətlə dəyişib. Bu nəticələr cənab Prezidentin apardığı islahatların ikinci dalğasının nəticələridir.

Hesabatın “Patent ərizələri” sub-indeksi üzrə də Azərbaycanın reytinqi yüksəlib və bu, əqli mülkiyyətlə əlaqəli “İnnovasiya” indeksi üzrə ötən ilki göstərici ilə müqayisədə ölkəmiz 3 pillə irəliləyərək 68-ci yeri tutub.

129 ölkəni əhatə edən və Kornell Universitetinin (ABŞ), İNSEAD Biznes məktəbinin (Fransa), Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə nəşri olan **Qlobal İnnovasiya İndeksi** (Qİİ) - 2019-cu ilin reytinqi innovasiya fəaliyyətinin potensialı, məhsuldarlığı və çərçivə şərtlərini əhatə edən 80 indikator əsasında tərtib olunmuşdur. Qanuvericilik, elm və təhsildən patentlərə və digər əqli mülkiyyət obyektlərinə iddia sənədlərinin sayınadək- geniş məlumatlar spektrini ehtiva edən indikatorlar təhlil olunur. Qİİ-nin dərc olunmasında əsas məqsəd innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin qiymətləndirilməsi üçün imkanların yaradılmasıdır.

Reytinqdə postsovet məkanı ölkələri arasında ən yaxşı göstəricilər Estoniya (23-cü yer) və Litvadadır (34-cü yer). Rusiya - 46-cı, Azərbaycan isə 84-cü yeri tutur.

QİI – 2019-cu ilin reytinqi iki yekunlaşdırıcı subindeksə daxil olan innovasiya fəaliyyətinin 7 qrup göstəricilərdən ibarətdir. "İnnovasiya resursları" subindeksi innovasiya prosesləri baş verən milli iqtisadiyyatın elementlərini beş qrupa bölərək (1 - institutlar; 2 – insan kapitalı; 3 – infrastruktur; 4 – daxili bazarın inkişafı və 5 – biznesin inkişafı), onları qiymətləndirməyə imkan yaradır. "İnnovasiya nəticələri" subindeksi innovasiya fəaliyyətini iki qrup üzrə - 6 – texnologiyaların inkişafı və biliklər və 7 – kreativ fəaliyyətin nəticələri - bölməklə, bu fəaliyyətin faktiki nəticələrini əks etdirir. Bu subindeks üzrə Azərbaycan MDB çərçivəsində Ukraynanı, Ermənistanı, Qırğızıstanı, Moldovanı və Tacikistanı qabaqlayaraq, reytinqdə 77-ci yeri tutur.

Həmin "İnnovasiya resursları" subindeksinin "Universitetlər və sənaye əməkdaşlığı", "Klaster inkişafı" və "Universitetlərin məzunları" indikatorları üzrə ölkəmiz, müvafiq olaraq, yüksək 32-ci, 33-cü və 38-ci yerləri tutmuşdur.

"İnnovasiya resursları"nın "İnstitutlar" blokunun "Biznes-mühit" göstəricisi üzrə Azərbaycan yüksək 33-cü yerdə olmuşdur. Ümumilikdə, "İnnovasiya resursları" subindeksinin "İnstitutlar" bloku üzrə ölkəmiz ötən ilin reytinqi ilə müqayisədə mövqeyini yaxşılaşdırıb.

İnnovasiyalar üçün əlverişlilik səviyyəsini əks edən "İnnovasiya resursları" subindeksi kimi, innovasiyalar sahəsində nailiyyətləri göstərən "İnnovasiya nəticələri" subindeksi də az mahiyyətə malik deyil.

Bu subindeks ilə bağlı qeyd etmək lazımdır ki, onun "Kreativ fəaliyyətin nəticələri" bloku üzrə nəticələr yüksəlib. Bu subindeksdə əqli fəaliyyətin göstəriciləri kifayət qədər yüksək yerlərdə olub: rezidentlərin ixtiralara patent iddia sənədləri üzrə – 60-cı, rezidentlərin faydalı modellərə patent iddia sənədləri üzrə – 53-cü yer. Onu da qeyd etmək lazımdır ki, ölkə rəhbərliyinin əqli mülkiyyət sahəsinə diqqəti, sahənin idarəetmə strukturunun təkmilləşdirilməsi öz müsbət nəticələrini verməkdədir.

"Patent Əməkdaşlığı haqqında" Müqavilə (PCT) çərçivəsində rezidentlər tərəfindən verilən "Beynəlxalq patent iddia sənədlərinin sayı" göstəricisinə görə ölkəmiz ötən ilin reytinqi ilə müqayisədə beş pillə irəlliləyərək, 67-ci yeri tutmuşdur.

ÜƏMT-nın Baş Assambleyası çərçivəsində İqtisadiyyat və Statistika bölməsində keçirilmiş görüşdə Agentliyin nümayəndəsi tərəfindən "Qlobal İnnovasiya İndeksi – 2019" hesabatında Azərbaycanla bağlı məlumatların reallığı tam düzgün əks etdirmədiyi, bəzi indekslərdə kəskin fərqlər olduğu, bu informasiyaların alındığı mənbələrin şübhə doğurduğu və gələcəkdə ölkəmizin müvafiq aidiyyəti qurumları ilə daha sıx əlaqələrin qurulmasının vacibliyi ÜƏMT rəsmilərinin nəzərinə çatdırılmışdır. Görüşdə Azərbaycana dair məlumatların daha dürust və dəqiq verilməsi məqsədilə dəyirmi masanın təşkil olunması barədə ilkin razılığa gəlinib.

## 2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.

Ölkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində ölkə başçısının 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının icrası, eləcə də əqli mülkiyyət qanunvericiliyinin beynəlxalq qanunvericiliyə uyğunlaşdırılması ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edilmiş və ya müvafiq dəyişikliklər edilmişdir.

Dəyişikliklər uyğunlaşdırma, təkmilləşdirmə, dövlət rüsumlarının və xidmət haqlarının təsdiq edilməsi və mövcud hüquqi boşluqların aradan qaldırılması məqsədilə aparılmışdır.

**2.1. Uyğunlaşdırma məqsədilə:**

- qanunvericilik aktlarında səlahiyyətli orqanın Əqli Mülkiyyət Agentliyinin müəyyən edilməsi.

**2.2. Təkmilləşdirmə məqsədilə:**

- publik hüquqi şəxslər haqqında qanunvericiliyin, Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apelyasiya şurası haqqında Əsasnamənin təkmilləşdirilməsi ilə bağlı sənədlər təsdiq edilmişdir.

**2.3. Dövlət rüsumlarının və xidmət haqlarının təsdiq edilməsi məqsədilə:**

Agentlik dövlət adından bir sıra hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlər və hüquqi hərəkətlərə görə vaxtilə haqqa keçirilmiş, lakin tənzimlənməmiş qalmış ödənişlərin bir neçəsinin dövlət rüsumuna qaytarılması ilə bağlı çıxış etmiş və Agentliyin təklifləri əsasında “Patent haqqında” və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanunlarına əsasən, ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı dövlət adından bir sıra hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumları və xidmət haqları təsdiq edilmişdir.

**2.4. Mövcud hüquqi boşluqların aradan qaldırılması məqsədilə:**

“Patent haqqında” Qanun 1997-ci ildə qəbul olunsa da, patentin alınması barədə iddia sənədinə aid tələblər, iddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması qaydası və dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq qaydası, ixtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi qaydası indiyədək müəyyən edilməmişdir.

Qanund

a göstərilən normalar 2001-ci ildə ləğv edilmiş Azərbaycan Respublikasının Dövlət Elm və Texnika Komitəsi tərəfindən 1998-ci və 1999-cu illərdə təsdiq edilmiş qaydalar əsasında həyata keçirilirdi ki, bu isə patent sahəsində beynəlxalq qanunvericiliyin tələblərini tam əks etdirmirdi.

Bu sahədə yaranmış hüquqi boşluğu aradan qaldırmaq məqsədilə Əqli Mülkiyyət Agentliyi tərəfindən yuxarıda adları çəkilən tələb və qaydalar beynəlxalq qanunvericilik aktlarının müddəaları nəzərə alınmaqla, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun şəkildə təqdim edilmişdir.

“Patentin alınması barədə iddia sənədinə aid tələblər” və “İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası”, “İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası” və “Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası” Nazirlər Kabinetinin müvafiq Qərarları ilə təsdiq edilmişdir.

Yekun nəticə olaraq, normativ hüquqi aktların qəbul edilməsi və bu sahədə Agentlik tərəfindən aparılan işlər ölkəmizdə ixtira və patent fəallığının artmasına səbəb olacaq və bu sahədə aparılan işlər dünya standartlarına uyğun həyata keçirilməsi təmin ediləcəkdir.

Bu istiqamətdə aşağıda adları göstərilən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 6 Qanun, Azərbaycan Respublikası Prezidenti tərəfindən 9 Fərman və 2 Sərəncam imzalanmış, Nazirlər Kabinetinin 14 Qərarı və 1 Sərəncamı qəbul edilmiş, həmin normativ-hüquqi sənədlərin layihələrinin hazırlanması və işlənilməsində Əqli Mülkiyyət Agentliyi iştirak etmişdir:

**I. Qanunlar:**

1) “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1424-VQD nömrəli Qanunu;

2) “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1475-VQD nömrəli Qanunu;

3) “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508-VQD nömrəli Qanunu;

4) “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanunu;

5) “Patent haqqında” Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanunu;

6) “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1517-VQD nömrəli Qanunu.

**II. Azərbaycan Respublikası Prezidentinin Fərmanları:**

**1)** “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1424-VQD nömrəli Qanununun tətbiqi və “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 475 nömrəli Fərmanı;

2) “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1475-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 avqust tarixli 755 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 avqust tarixli 749 nömrəli və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 29 dekabr tarixli 167 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 mart tarixli 600 nömrəli Fərmanı;

3) “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 605 nömrəli Fərmanı;

4) “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 608 nömrəli Fərmanı;

5) “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 609 nömrəli Fərmanı;

6) “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1517-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 610 nömrəli Fərmanı;

7) “Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 mart tarixli 579 nömrəli Fərmanı;

8) “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 18 iyul tarixli 215 nömrəli, “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin

edilməsi haqqında” 2018-ci il 30 iyul tarixli 222 nömrəli, “Dənizkənarı Bulvar İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 31 iyul tarixli 223 nömrəli və “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” 2018-ci il 31 iyul tarixli 224 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 758 nömrəli Fərmanı;

9) “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 dekabr tarixli 876 nömrəli Fərmanı.

**III. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları**:

1) “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 1067 nömrəli Sərəncamı;

2) “1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokolu imzalamaq səlahiyyətinin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 sentyabr tarixli 1411 nömrəli Sərəncamı.

**IV. Nazirlər Kabinetinin qərarları:**

1) “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 oktyabr tarixli 443 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 14 mart tarixli 91 nömrəli Qərarı;

2) “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 oktyabr tarixli 444 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 14 mart tarixli 92 nömrəli Qərarı;

3) “Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları”nın və “Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 may tarixli 211 nömrəli Qərarı;

4) “İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı;

5) “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydasının və coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydasının təsdiq edilməsi haqqında” 1999-cu il 30 avqust tarixli 143 nömrəli və “Əmtəə nişanlarına dair müqavilələrin qeydiyyatı Qaydaları”nın təsdiq edilməsi haqqında” 2009-cu il 15 sentyabr tarixli 139 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 iyun tarixli 281 nömrəli Qərarı;

6) “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 iyul tarixli 303 nömrəli Qərarı;

7) “Patentin alınması barədə iddia sənədinə aid Tələblər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı;

8) “İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 453 nömrəli Qərarı;

9) “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 aprel tarixli 135 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” 2018-ci il 13 oktyabr tarixli 443 nömrəli və “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 13 oktyabr tarixli 444 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 454 nömrəli Qərarı;

10) “İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası”nın və “Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 478 nömrəli Qərarı;

11) “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Apellyasiya şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 dekabr tarixli 494 nömrəli Qərarı;

12) “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasına “Respublika” statusunun verilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 dekabr tarixli 506 nömrəli Qərarı;

13) “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 sentyabr tarixli 379 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 dekabr tarixli 507 nömrəli Qərarı;

14) “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında” 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli, “Patent müvəkkilləri haqqında Əsasnamənin təsdiq edilməsi haqqında” 2000-ci il 15 fevral tarixli 21 nömrəli, “Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında” 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli, “Girov müqaviləsinin qeydiyyatı Qaydaları”nın təsdiq edilməsi haqqında” 2009-cu il 18 sentyabr tarixli 146 nömrəli, “Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2010-cu il 23 fevral tarixli 39 nömrəli və “İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2010-cu il 12 aprel tarixli 63 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 dekabr tarixli 517 nömrəli Qərarı.

**V. Nazirlər Kabinetinin Sərəncamları:**

“Sənan Tapdıqovun Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 141s nömrəli Sərəncamı.

*****

**Agentlik üzrə qəbul edilmiş sənədlər:**

1) “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının Əsasnaməsinin və strukturunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2019-cu il 10 yanvar tarixli 05 nömrəli əmri.

2) “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Daxili intizam Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin 2019-cu il 15 mart tarixli 01 nömrəli Qərarı.

3) “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” 10 yanvar 2019-cu il tarixli 881 nömrəli Sərəncamının Əqli Mülkiyyət Agentliyi üzrə icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2019-cu il 25 yanvar tarixli 10 nömrəli əmri.

*****

Əqli Mülkiyyət Agentliyinin öz Nizamnaməsinə uyğun olaraq, əqli mülkiyyət hüquqları sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən dövlət qurumu kimi 80-dən çox vəzifə və hüquqları vardır.

Bu vəzifə və hüquqlar sırasında, müvafiq dövlət və məhkəmə orqanlarının sorğusu əsasında ekspert rəyləri hazırlamaq, məhkəmədə və digər səlahiyyətli orqanlar tərəfindən keçirilən tədbirlərdə ekspert və nümayəndə qismində iştirak etmək kimi vəzəifələri vardır.

Agentlik bir çox hallarda müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində əqli mülkiyyət hüquqları ilə bağlı aparılan məhkəmə işlərinə cəlb olunur.

Hesabat ili ərzində Agentliyin nümayəndələri əqli mülkiyyət obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 35 iş üzrə (onlardan 31-sənaye mülkiyyəti obyektləri, 4-ü isə müəllif hüquqları ilə bağlı) 90-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.

**3. İnnovativ inkişafda əqli mülkiyyət siyasətinin təhlili.** Qlobal texnoloji trendlərin milli rəqabətqabiliyyətliliyə təsiri elm və texnologiya sahəsi üçün yeni çağırışlar formalaşdırır. Bununla əlaədar, hesabat ilində sənaye mülkiyyəti sahəsində son 8 ildəki mövcud vəziyyət təhlil edilmiş (bununla əlaqədar araşdırmaların nəticələri barədə aşağıda məlumat verilir), bu sahədə aşkara çıxarılan çatışmazlıq və problemlərin aradan qaldırılması üçün zəruri addımlar atılmış, ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilər barədə daxil olmuş iddia sənədlərinin ekspertizasını apararaq patent və şəhadətnamə verilməsi üçün ekspert rəyini hazırlayan, ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilərin ekspertizası sahəsində digər məsələləri qanunvericiliyə uyğun olaraq həyata keçirən, müvafiq məlumatların dərci üçün tələb olunan sənədləri hazırlayan strukturun – Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin (PM) bu sahədə innovasiyalara yönələn siyasəti formalaşdırılmışdır. Bunun davamı olaraq, beynəlxalq təcrübədə qəbul edilmiş ən müasir indikator və göstəricilər vasitəsi ilə sahənin səmərəliliyi ölçülmüş, həmçinin PM-in fəaliyyətini qiymətləndirmək üçün qabaqcıl dünya təcrübəsinə əsaslanan indekslər (göstəricilər) sistemi (ixtira və patent fəallığı əmsalı, ixtira və patent özünü təminetmə əmsalı, ixtira və patent asılılığı əmsalı, ixtira və patent yayılması əmsalı, ixtira potensialının reallaşması əmsalı) yaradılmış, patent sistemi qarşısında müəyyən edilmiş əsas məqsəd və vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. **Bununla da innovativ inkişafda ƏM-in yeri müəyyən edilmiş və onun təsirinin gücləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilib.**

**Son iki ilin göstəricilərinin müqayisəsi göstərir ki,** qeyd olunan istiqamətlərdə fəaliyyət aktivləşmiş və bunun nəticəsində ixtiralara verilmiş patentlərin sayında 2018-ci illə müqayisədə artım baş vermişdir. Belə ki, 2019-cu ildə ixtira üzrə 167 iddia sənədi daxil olmuş, 102 ixtira patenti verilmişdir. Bu isə 2018-ci ildəkindən 32 patent çoxdur. 102 patentdən 90-ı rezidentlərə, 12-si isə qeyri-rezidentlərə aiddir. Qeyd etmək maraqlıdır ki, verilən ixtira patentlərinin 39-u "Kimya və Metallurgiya" bölməsinə aiddir.

2019-cu ildə faydalı modellərə dair 58 iddia sənədi daxil olmuş, 16 patent verilmişdir. Verilən patentlərdən 12-si rezidentlərə və 4-ü qeyri-rezidentlərə aiddir.

Sənaye nümunələrinə dair 78 iddia sənədi daxil olmuş, onlardan 32-nə patent verilmişdir. Bu isə 2018-ci illə müqayisədə müvafiq olaraq 37 iddia sənədi və 8 patent çoxdur. Verilən patentlərdən 21-i milli, 11-i isə xarici hüquqi şəxslərə məxsusdur.

2019-cu ildə coğrafi göstəricilər üzrə iddia sənədi daxil olmamışdır. Bununla belə ötən ildə daxil olmuş iddia sənədlərinə əsasən coğrafi göstəricilər üzrə 5 patent verilmişdir.

2019-cu ildə əmtəə nişanlarına dair iddia sənədlərinin və verilmiş qoruma sənədlərinin də artımı müşahidə olunur. Belə ki, 2018-ci ildə əmtəə nişanlarına dair 1958 iddia sənədi daxil olmuş 1070 qoruma sənədi verilmiş, 2019-cu ildə isə bu göstəricilər müvafiq olaraq 2317 və 1114 olmuşdur. 2019-cu ildə qoruma sənədləri alanların 642-si rezidentlər, 472-si isə qeyri-rezidentlərə aiddir.

Bununla yanaşı, hesabat ilində əqli mülkiyyət sahəsi, o cümlədən ixtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanlarına, coğrafi göstəricilər üzrə 2010-2018-ci illər üzrə məlumat bazasının təhlili aparılmış, arayışlar, bir sıra cədvəl və qrafiklər hazırlanmış, çatışmazlıqların olduğu sahələr və onların aradan qaldırılması üçün müvafiq tədbirlər müəyyən edilmişdir. Aşağıda təhlilin nəticələri verilir.

**3.1. İxtira fəallığı göstəricilərinin təhlili.** **D**övlət səviyyəsində elmi-texniki və innovasiya fəaliyyətini qiymətləndirmək üçün bir sıra əqli mülkiyyət göstəriciləri istifadə və təhlil edilir. Milli iqtisadiyyatın innovativ inkişafı üçün əqli mülkiyyət göstəricilərinin monitorinqinin nəticələri əsasında Azərbaycanda ixtiraçılıq fəaliyyətinin əsas parametrləri nəzərdən keçirilmiş və ən əhəmiyyətli mütləq göstəricilər müəyyən edilmişdir: yerli və xarici ərizəçilər də daxil olmaqla, patent alınması üçün təqdim edilən iddia sənədlərinin sayı; yerli və xarici ərizəçilər daxil olmaqla, verilən patentlərin sayı; ilin sonuna qüvvədə olan patentlərin sayı; lisenziya müqavilələrinin sayı.

**Cədvəl 1-də** 2010-2018-ci illər ərzində Azərbaycanda ixtira fəallığının mütləq göstəricilərinin dinamikası göstərilmişdir. Qeyd etdiyimiz kimi, ixtiralara patentlərin verilməsi üçün iddia sənədlərinin sayı 271-dən (2010-cu il) 171-ə (2018-ci il) qədər azalmışdır. 2012-ci ildə onların sayı bütün dövr üçün ən az həddə olmuşdur - 144. Qeyri-rezidentlər tərəfindən ixtiralara patentlərin verilməsi üçün təqdim olunan iddia sənədlərinin sayı çox azdır, illər üzrə 9-29 həddində dəyişir. Nəzərdən keçirilən dövr ərzində ixtiralara verilən patentin sayı 126-dan 64-ə düşmüşdür.

2010-2018-ci illərdə ixtira patenti üçün 1675 iddia sənədi qəbul edilmiş, onlardan cəmi 880 ixtiraya patent verilmişdir. Beləliklə, ərizələrin 52,5%-i təmin edilmiş, başqa sözlə, təxminən hər iki müraciətdən birinə dair müsbət qərar qəbul edilmiş, yəni patent verilmişdir..

SWOT-analizin nəticələrinə əsasən, yerli ixtiraçılar ixtiralarını əsasən Azərbaycanda patentləşdirməyi üstün tuturlar, çünki onların çoxunun ixtirası yalnız ölkə daxilində yeni sayılır və yerli bazara yönəldilmişdir. Nəticədə yerli iddiaçılar beynəlxalq patent aktivliyində aşağı yer tuturlar. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan bazarının yeni texnologiyalara və dünya səviyyəli texniki həllərə olan ehtiyacları xarici nümunələr hesabına ödənilir.

**Cədvəl 1**

Azərbaycan üzrə (2010-2018-ci illər) ixtiralarla bağlı göstəricilərin dinamikası

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *1. İddia sənədləri, ümumi (əd.)*<br>*o cümlədən* | 271 | 205 | 144 | 156 | 167 | 180 | 155 | 226 | 171 |
| *- yerli (rezident)* | 258 | 196 | 132 | 132 | 143 | 151 | 136 | 206 | 155 |
| *- xarici (qeyri – rezident)* | 13 | 9 | 12 | 24 | 24 | 29 | 19 | 20 | 16 |
| *2. Verilən patentlərin sayı, ümumi (əd.)*<br>*o cümlədən* | 126 | 118 | 111 | 78 | 97 | 88 | 131 | 67 | 64 |
| *- yerli (rezident)* | 124 | 109 | 105 | 73 | 92 | 86 | 116 | 63 | 53 |
| *- xarici (qeyri – rezident), o cümlədən PCT proseduruna əsasən* | 2 | 9 | 6 | 5 | 5 | 2 | 15 | 4 | 11<br>9 |
| *3. Qüvvədə olan patentlər, ümumi (əd.)*<br>*- o cümlədən PCT proseduruna əsasən* | 496 | 451 | 289 | 248 | 288 | 203 | 345 | 236 | 253<br>40 |
| *4. Lisenziya sazişləri (əd.)* | 1 | - | 4 | - | 1 | - | - | 2 | - |



İxtiralarla bağlı iddia ərizələri
İxtiralara verilən patentlər
300
250
200
150
100
50
0
271
205
144
156
167
180
155
226
171
126
118
111
78
97
88
131
67
64
2010
2011
2012
2013
2014
2015
2016
2017
2018

İxtira üçün qüvvədə olan  patentlərin sayı  2010-cu ildəki 496-dan  2018-ci ildə 253-ə düşmüşdür ki, bu da ixtiraçıların mühafizə sənədlərinin alınmasında maraqlarının olmamasını və mövcud patentlərə  tələbatın zəif olmasını sübut edir.  Qüvvədə olan  253 ixtira patentindən 199-u rezidentlərin və 54-ü qeyri-rezidentlərin payına düşür.

Rezidentlərin 74-ü fiziki, 125-i isə hüquqi şəxslərdir. Hüquqi şəxlər sırasında Elmlər Akademiyasının və Təhsil Nazirliyinin elmi-tədqiqat institutlarını qeyd etmək olar: müvafiq olaraq 93 və 16 ixtira patenti. Cədvəl 2-də hüquqi şəxs olan rezidentlərin və onların patentlərinin siyahısı verilmişdir.

***Cədvəl 2***

2018-ci ildə Azərbaycanın təşkilatlar üzrə qüvvədə olan ixtira patentlərinin siyahısı

| № | Təşkilatların adı | İxtiraların sayı |
|---|---|---|
| 1 | *AMEA* | 93 |
| | AMEA Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu | 33 |
| | AMEA akad. M.F.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu | 12 |
| | AMEA akad. Ə.M Quliyev adına Aşqarlar Kimyası İnstitutu | 18 |
| | AMEA Polimer Materialları İnstitutu | 6 |
| | AMEA Radiasiya Problemləri İnstitutu | 4 |
| | AMEA Fizika İnstitutu | 3 |
| | AMEA -nın Geologiya və Geofizika İnstitutu | 1 |
| | AMEA -nın Naxçıvan Bölməsi | 16 |
| 2 | *Təhsil Nazirliyi* | 16 |
| | Bakı Dövlət Universiteti | 4 |
| | Sumqayıt Dövlət Universiteti | 2 |
| | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | 9 |
| | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 1 |
| 3 | Azərbaycan Tibb Universiteti | 1 |
| 4 | Milli Aviasiya Akademiyası | 1 |
| 5 | Naxçıvan MR, Dövlət Baytarlıq Xidməti | 1 |
| 6 | Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi | 2 |
| 7 | Neftqazelmitədqiqatlayihə İnstitutu | 5 |

| | | |
|---|---|---|
| 8 | Maşınqayırma Texnologiyası İnstitutu | 1 |
| 9 | Azərbaycan Elmi-Tədqiqat və Lahiyə-Axtarış Energetika İnstitutu | 1 |
| 10 | "Biyan Products" Məhdud Məsuliyyətli Cəmiyyəti | 4 |

Qüvvədə olan patentlərin sahibi olan qeyri-rezident-hüquqi şəxlər əsasən Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsi üzrə müqavilələrdə iştirak edən neft şirkətləridir. Qeyri-rezidentlərin qüvvədə olan ixtiraları üzrə patentlərin sahiblərinin 15-i ABŞ-a, 7-si İtaliyaya, 6-sı isə Almaniyaya aiddir.

2018-ci ildə qeyri-rezidentlərin qüvvədə olan ixtiraları üzrə patentlərin ölkələr üzrə paylanması




54
199
Qeyri – rezident
Rezident

**Azərbaycan üzrə 2018-ci ildə qüvvədə olan ixtira patentlərinin paylanması**



ƏM potensialının mövcudluğuna dair ixtiraçılıq fəaliyyətinin, effektivliyinin və düzgünlüyünün səviyyəsini xarakterizə etmək üçün aşağıdakı nisbi göstəricilər istifadə olunur: ixtira aktivliyi əmsalı, özünütəminetmə əmsalı, texnoloji asılılıq əmsalı, bir iddia sənədində olan tədqiqatçıların sayı, bir iddia sənədində tədqiqatlarla məşğul olanların sayı, ixtira potensialının reallaşması əmsalı, ETTKİ xərclənən 1 mln.dollar olan iddia sənədlərinin sayı. 2010-2018-ci illəri əhatə edən yuxarıda sadalanan göstəricilər 3-4-cü cədvəllərdə öz əksini tapır.

***Cədvəl 3***

**Azərbaycan üzrə (2010-2018-ci illər) ixtira aktivliyi əmsalları**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *1. İxtira aktivliyi əmsalı* | *0,29* | *0,22* | *0,14* | *0,14* | *0,15* | *0,16* | *0,14* | *0,21* | *0,17* |
| *2. Özünütəminetmə əmsalı* | *0,95* | *0,96* | *0,92* | *0,85* | *0,86* | *0,84* | *0,88* | *0,91* | *0,91* |
| *3. Texnoloji asılılıq əmsalı* | *0,05* | *0,05* | *0,09* | *0,18* | *0,17* | *0,19* | *0,14* | *0,10* | *0,10* |
| *4. Bir iddia sənədində olan tədqiqatçıların sayı (nəf.)* | *42,6* | *56,1* | *90,2* | *115,9* | *110,5* | *107,9* | *118,4* | *75,2* | *94,8* |
| *5. Bir iddia sənədində tədqiqatlarla məşğul olanların sayı (nəf.)* | *67,4* | *91,3* | *141,7* | *163,6* | *156,6* | *154,3* | *169,9* | *109,2* | *132,9* |
| *7. İxtira potensialının reallaşması əmsalı* | *0,48* | *0,56* | *0,80* | *0,55* | *0,64* | *0,57* | *0,85* | *0,31* | *0,34* |
| *8. ETTKİ xərclənən 1 mln.$ olan iddia sənədlərinin sayı (əd.)* | *2,5* | *1,7* | *1,0* | *0,9* | *0,9* | *0,9* | *1,1* | *2,5* | *1,7* |

**Cədvəl 4**

**Azərbaycan üzrə (2010-2018-ci illər) patent aktivliyi əmsalları**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *1. Patent aktivliyi əmsalı* | *0,14* | *0,12* | *0,11* | *0,08* | *0,10* | *0,09* | *0,12* | *0,06* | *0,05* |
| *2. Özünütəminetmə əmsalı* | *0,98* | *0,92* | *0,94* | *0,93* | *0,95* | *0,98* | *0,88* | *0,94* | *0,83* |
| *3. Texnoloji asılılıq əmsalı* | *0,02* | *0,08* | *0,06* | *0,07* | *0,05* | *0,02* | *0,13* | *0,06* | *0,21* |
| *4. Bir patentdə olan tədqiqatçıların sayı (nəf. )* | *88,7* | *100,9* | *113,3* | *209,6* | *171,7* | *189,5* | *138,8* | *246,0* | *277,3* |
| *5. Bir patentdə tədqiqat larla məşğul olanların sayı (nəf.)* | *140,3* | *164,2* | *178,1* | *295,9* | *243,5* | *270,9* | *199,1* | *357,1* | *388,7* |
| *6. ETTKİ xərclənən 1 mln. $ olan patent-lərin sayı (əd. )* | *1,2* | *0,9* | *0,8* | *0,5* | *0,6* | *0,5* | *1,0* | *0,8* | *0,6* |




Azərbaycan üzrə (2010-2018-ci illər) ixtira və patent aktivliyi əmsalları

Azərbaycan üzrə (2010-2018-ci illər) ixtira və patent özünü təminetmə əmsallarının dinamikası






Azərbaycan üzrə (2010-2018-ci illər) ixtira və patent texnoloji asılılıq əmsallarının dinamikası

Nəzərdən keçirilən dövr ərzində müəyyən zaman aralıqlarında ixtiraçılıq aktivlik əmsalında azalma müşahidə olunur: 2010-cu ildə 0,29-dan 2011-ci ildə 0,22-yə, 2012-ci ildə isə 0,14-ə qədər. Daha sonra, illər ərzində təxminən eyni səviyyədə qalmış və ancaq 2017-ci ildə göstərici 2011-ci ilin səviyyəsinə qayıdıb. Ümumi azalma, təqdim edilən iddia sənədlərinin azalması ilə əlaqəlidir (ölkənin əhalisinin sayında ciddi dəyişiklik olmayıb).

Özünütəminetmə əmsalı nisbətən sabitdir və illər ərzində 0,84-0,96 aralığında dəyişir.

Baxılan dövrdə texnoloji asılılıq əmsalı 0,05 (2010-2011) ilə 0,19 (2015) arasında dəyişir. Məlum olduğu kimi, əmsalın nə qədər yuxarı olması ölkənin formal olaraq “texnoloji asılılığının” yüksək olmasını göstərir. Bu göstəricinin aşağı olması ölkənin müstəqil olmamasının göstəricisi deyil, xarici iddiaçılar patentlərinin köçürülmə riskinin az olması səbəbi ilə qorunmanı zəruru saymırlar və ya onların patentləri həmin bazarda təmsil olunmur.

Özünütəminetmə, texnoloji asılılıq əmsalları müəyyən mənada bir- birlərini təkrarlayırlar – onların hesablanmasında demək olar ki, eyni rəqəmlər istifadə edilir.

İxtiraçılıq potensialının reallaşdırılması əmsalı illər üzrə kəskin dəyişir. Belə ki, 2016-ci ildə 0,85-dən 2017-ci ildə 0,31-ə qədər düşüb.

Ölkədə bir patentdə olan tədqiqatçıların sayında kəskin dəyişmə tendensiyası izlənir: 2010-cu ildə 42,6-dan, 2016-cı ildə 118,4-ə çatmışdır. Bu, ölkədəki tədqiqatçıların sayının əhəmiyyətli dəyişməsi ilə əlaqəlidir (11,0-16,3 min nəfər) və təbii ki, rezidentlər tərəfindən ixtira üzrə iddia sənədlərinin sayından asılıdır.

Bir milyon ABŞ dolları məbləğində ETTKİ xərclərinə milli patent iddia sənədlərinin sayı və hər iddia sənədinə düşən tədqiqatçıların göstəricisi kəskin dəyişməyə məruz qalır: bir milyon ABŞ dolları məbləğində ETTKİ xərcləri üçün 0,9 milli patent ərizəsindən 2,5 vahidədək dəyişir. Bu dəyişikliklər ildən-ilə164,9 milyon dollardan (2014) 80,8 milyon dollara (2016) qədər dəyişən ETTKİ  xərclərinin dəyişməsi ilə bağlıdır. Patent iddia sənədlərinin sayı elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin xərcləri ilə birbaşa əlaqəlidir. ETTKİ-nə yüksək investisiyalı ölkələr çox sayda patent iddia sənədinə malikdir.

Ümumilikdə, tədqiqatçıların ixtiraçılıq aktivliyi bəzi parametrlər üzrə saxlanılır. Bu, bizim fikrimizcə, maliyyə təhlükəsizliyinin azaldılması və elm sahəsində tədqiqatçıların sayının azaldılması baxımından tədqiqat işlərinin intensivliyində artım deməkdir.

Yuxarıda qeyd olunan göstəricilərin təhlili ixtiraçıların potensialının reallaşmasına və tədqiqatçıların patent aktivliyində mövcud olan problemlərə işarədir. Belə ki, milli iqtisadiyyat üçün əqli mülkiyyət obyektlərinə aşağı tələbat səciyyəvidir. Bununla yanaşı, mövcud qanunvericilikdə, həmçinin vergi məcəlləsində əqli mülkiyyət nəticələrinin, hətta böyük şirkətlərdə belə qeyri-maddi aktiv kimi qeydiyyata alınması nəzərdə tutulmayıb, bu isə xarici təcrübəyə uyğun deyil. Bütün bunlar stimul çatışmazlığına gətirib çıxarır, tədqiqatçılarda sıx yaradıcılıq fəaliyyətini reallaşdırmaq üçün motivasiyalarının azalmasına səbəb olur. Xarici ölkələrdə patentin qeydiyyatı və qüvvədə olma haqqlarının yuxarı olması ilə vəziyyət daha da çətinləşir.

Həm elmi və texnoloji ictimaiyyətin potensialını və daxili ehtiyatlarını, həm də hakimiyyət, elmi, texnoloji və innovativ inkişafı idarəetmə orqanlarının müvafiq institutlarını, eləcə də sənaye, kommersiya və maliyyə strukturlarını səfərbər etmək şərti ilə tədqiqatçıların ixtiraçılıq və patent fəallığından tam istifadə mümkündür. "İnnovasiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının ƏM üzrə uzunmüddətli milli strategiyası" və s. layihələri hazırlanarkən iqtisadi və hüquqi şəraitin yaradılmasının intensivliyi nəzərə alınmalıdır.

Nəticədə qeyd etmək lazımdır ki, tədqiqat işinin spesifik xüsusiyyətinə və nəticələrinə görə, ƏM potensialı öyrənilmə, qiymətləndirmə, tənzimləmə və idarəetmənin mürəkkəb bir obyektidir, buna görə qiymətləndirmə göstəricilərinin fərqli növlərini istifadə etmək məsləhətdir.

**3.2. Azərbaycanın texnoloji profili.** İqtisadiyyatın qloballaşma dövründə və sürətlə dəyişən rəqabət mühitində ölkənin texnoloji inkişafının seçilməsi problemi böyük əhəmiyyət kəsb edir. Seçimin relevantlığı və nəticə etibarilə effektivliyi nəzərə çarpan dərəcədə qlobal və regional trendlərin nəzərə alınması ilə bağlıdır. Texnoloji trendlərin formalaşması isə öz növbəsində dünya bazarlarında gedən obyektiv inkişaf proseslərinə və texnoloji quruluşların inkişafına və əvəzlənməsinə istinad edir.

Bununla yanaşı, texnoloji trendlərə sosial, ekoloji, siyasi və digər amilləri nəzərə alan dövlət tərəfindən iqtisadiyyatı tənzimləmə siyasəti təsir göstərir.

Beləliklə, ölkənin elmi-texnoloji prioritetlərinin seçimi, texnoloji inkişafının drayverlərinin müəyyənləşdirilməsi, mövcud milli, elmi-texnoloji potensialı və ölkə rəqabətqabiliyyətliliyi patent statistikası və patent portfelinin strukturu və istiqamətləri vasitəsilə əsaslandırıla bilər. Bu növ araşdırmalar ilk növbədə ölkənin texnoloji profilinin müəyyən edilməsindən başlanır (araşdırma ixtiralara aid patentlər əsasında aparılır).

Strasburq Sazişinə əsasən, təsdiqlənən Beynəlxalq Patent Təsnifatı (BPT) 8 bölmədən (A hərfindən H hərfinə qədər) ibarətdir. Bunlar iyerarxiya qaydasında altbölmələrə, siniflərə, altsiniflərə, qruplara və altqruplara parçalanırlar.

Aşağıdakı cədvəldə BPT-a uyğun olaraq, Azərbaycanda qüvvədə olan (2018-ci il) patentlər bölmələr və siniflər üzrə göstərilir.

2018-ci il üzrə Azərbaycanda qüvvədə olan patentlərin BPT bölmələri üzrə paylanması aşağıdakı cədvəllərdə göstərilmişdir.

***Cədvəl 5***

**2018-ci ildə qüvvədə olan Azərbaycan patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri üzrə paylanması**

| Bölmənin göstəricisi | Bölmənin adı | İxtiraların sayı |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 39 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 18 |
| C | Kimya və metallurgiya | 125 |
| D | Toxuculuq və kağız | 2 |
| E | İnşaat, mədən işi | 35 |
| F | Maşınqayırma; işıqlandırma; istilik, mühərrik və nasoslar; silah və döyüş sursatı; partlama işləri | 8 |
| G | Fizika | 20 |
| H | Elektrik | 6 |
| Yekun | | 253 |

**Bölmə A - İnsanin həyati tələbatlarinin ödənilməsi**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Kənd təsərrüfatı | 7 |
| 2 | Qida məhsulları; tütün | 7 |

| | | |
|---|---|---|
| 3 | Şəxsi və ev əşyaları | 1 |
| 4 | Səhiyyə; xilasetmə xidməti; əyləncə | 24 |

**Bölmə B – müxtəlif texnoloji proseslər; nəqletmə**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Bölünmə; qarışma | 10 |
| 2 | Formalaşma | 1 |
| 3 | Poliqrafiya | - |
| 4 | Nəqletmə | 7 |
| 5 | Mikroquruluşlu texnologiyalar; nano texnologiyalar | - |

**Bölmə C – Kimya və metallurgiya**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Kimya | 111 |
| 2 | Metallurgiya | 14 |
| 3 | Kombinatorial texnologiya | - |

**Bölmə D – Toxuculuq və kağiz**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Tekstil və onlara oxşar elastik materiallar, digər bölmələrə aid edilməyənlər | 2 |
| 2 | Kağız | - |

**Bölmə E – İnşaat; mədən işi**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | İnşaat | 10 |
| 2 | Torpağın və ya süxurların qazılması; mədən işi | 25 |

**Bölmə F – Maşinqayirma; işiqlandirma; istilik, mühərrik və nasoslar; silah və döyüş sursati; partlama işləri**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Mühərriklər və nasoslar | 2 |
| 2 | Ümumi maşınqayırma | 1 |

| | | |
|---|---|---|
| 3 | İşıqlandırma; istilik | 5 |
| 4 | Silah və döyüş Sursati; partlama işləri | - |

**Bölmə G - Fizika**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Cihazlar | 20 |
| 2 | Nüvə fizikası və texnikası, və onlara aid olan elm sahələri | - |

**Bölmə H - Elektrik**

| N | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| 1 | Elektrik | 6 |

***Cədvəl 6***

2018-ci ildə qüvvədə olan Azərbaycan patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri üzrə paylanması (rezident)

| Bölmənin göstəricisi | Bölmənin adı | İxtiraların sayı |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 36 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 10 |
| C | Kimya və metallurgiya | 112 |
| D | Toxuculuq və kağız | 2 |
| E | İnşaat, mədən işi | 12 |
| F | Maşınqayırma; işıqlandırma; istilik; mühərrik və nasoslar; silah və döyüş sursatı; partlama işləri | 5 |
| G | Fizika | 18 |
| H | Elektrik | 4 |
| Yekun | | 199 |

***Cədvəl 7***

2018-ci ildə qüvvədə olan Azərbaycan patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri üzrə paylanması (qeyri-rezident)

| Bölmənin göstəricisi | Bölmənin adı | İxtiraların sayı |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 3 |
| B | Müxtəlif Texnoloji proseslər, nəqletmə | 7 |
| C | Kimya və metallurgiya | 13 |
| D | Toxuculuq və kağız | - |
| E | İnşaat,mədən işi | 24 |
| F | Maşınqayırma;işıqlandırma;istilik,mühərrik və nasoslar;silah və döyüş sursatı; partlama işləri | 3 |
| G | Fizika | 2 |
| H | Elektrik | 2 |
| Yekun | | 54 |

Beləliklə, Beynəlxalq patent təsnifatı elmin müxtəlif sahələrində ixtiraları nəzərə alaraq innovativ texnoloji inkişafın fərqli sahələrində ixtira aktivliyini təhlil etməyə şərait yaradır. Aparılan təhlilin nəticələri ölkədə kimya, səhiyyə, torpaq qazma sahələri üzrə ixtiraların yeni texnologiyaların inkişafında aparıcı rol oynadığını təsdiq edir. Azərbaycanda elmi-texnoloji inkişafı və yeni industiriyanın yaradılması üçün mümkün prioritetlər kimi texnikanın məhz bu sahələrinə diqqət yetirmək lazımdır.

Milli patentin etibarlılığı ərazi ilə məhdudlaşdığı üçün ixtiranın eyni zamanda bir neçə ölkədə qorunması üçün PCT patentindən (Patent Cooperation Treaty - Patent Əməkdaşlıq Sazişi) istifadə olunur.

Patent Əməkdaşlığı Sazişi - patent hüququ sahəsində beynəlxalq müqavilədir, 1970-ci ildə bağlanmışdır. Bu müqavilə bir neçə ölkədə qorunması tələb olunan ixtiralar üçündür və qorumanın daha asan və daha qənaətcil olmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Patent Əməkdaşlığı Sazişi sisteminə Azərbaycan da olmaqla (1995) 150-dən çox ölkə daxildir. Qeyd etmək lazımdır ki, beynəlxalq ərizənin verilməsi bütün ölkələrdə qorunan beynəlxalq patentin alınması deyildir və qoruma sənədi yalnız ərizəçinin seçdiyi ərazilər üçün verilir.Azərbaycanda 2018-ci ilin sonunda PCT sistemi üzrə 43 qüvvədə olan patent olmuşdur.

***Cədvəl 8***

2018-ci ildə qüvvədə olan PCT patentlərin "Beynəlxalq Patent Təsnifatı" bölmələri üzrə paylanması

| Bölmənin göstəricisi | Bölmənin adı | İxtiraların sayı |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 2 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 2 |
| C | Kimya və metallurgiya | 13 |
| D | Toxuculuq və kağız | - |
| E | İnşaat; mədən işi | 21 |
| F | Maşınqayırma; işıqlandırma; istilik; mühərrik və nasoslar; silah və döyüş sursatı; partlama işləri | 1 |
| G | Fizika | 3 |
| H | Elektrik | 1 |
| Yekun | | 43 |

Avrasiya patenti Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya Federasiyası, Tacikistan, Türkmənistan ərazisində qüvvədədir və qərargahı Moskvada yerləşən Avrasiya Patent Təşkilatı (APT) tərəfindən verilir. 2018-ci ilin sonunda azərbaycanlı ixtiraçılarının aktivində 39 qüvvədə olan Avrasiya patenti olmuşdur.

***Cədvəl 9***

2018-ci ildə Avrasiya patent təşkilatına (APT) görə qüvvədə olan Azərbaycan patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri üzrə paylanması

| Bölmənin göstəricisi | Bölmənin adı | İxtiraların sayı |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 12 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 3 |
| C | Kimya və metallurgiya | 8 |
| D | Toxuculuq və kağız | - |
| E | İnşaat; mədən işi | 11 |
| F | Maşınqayırma; işıqlandırma; istilik; mühərrik və nasoslar; silah və döyüş sursatı; partlama işləri | 2 |
| G | Fizika | 3 |
| H | Elektrik | - |
| Yekun | | 39 |

Aşağıdakı cədvəldə milli patent ofisində (253) və Avrasiya Patent Təşkilatında (39) qeydiyyatda olan ixtira patentləri verilmişdir.

**2018-ci il üzrə "Beynəlxalq Patent Təsnifatı"nda Azərbaycanda qüvvədə olan ixtiralara patentlərin qruplar üzrə paylanması**

| **Bölmənin indeksi** | **Bölmənin adı** | **İxtiraların sayı** |
|---|---|---|
| A | İnsanın həyati tələbatlarının ödənilməsi | 51 |
| B | Müxtəlif texnoloji proseslər, nəqliyyat | 21 |
| C | Kimya və metallurgiya | 133 |
| D | Toxuculuq və kağız | 2 |
| E | İnşaat; mədən işi | 46 |
| F | Maşınqayırma; işıqlandırma; istilik; mühərrik və nasoslar; silah və döyüş sürsatı; partlatma işləri | 10 |
| G | Fizika | 23 |
| H | Elektrik | 6 |
| **Cəmi** | | **292** |

Cədvəldəki məlumat həmçinin diaqram vasitəsilə də əks etdirilir:




Göründüyü kimi, maksimal sayda patentlər C – «Kimya və metallurgiya» bölməsinə aiddir, özü də bu bölmədəki patentlərin sayı 2 dəfədən artıq növbəti A – «İnsanın həyati tələbatlarının ödənilməsi» bölməsinin patent sayını üstələyir və 3 dəfə E – «İnşaat; mədən işi» bölməsinə aid patentlərdən çoxdur.

292 mövcud patentlərdən 238-i rezidentlərə, 54-ü qeyri-rezidentlərə, 40-ı PCT-ə, 39-u isə Avrasiya Patent Təşkilatına aiddir.

8 bölməyə aid olan patentlər 24 sinif vasitəsilə təqdim edilir və siniflər daxilində ən çox patent «kimya» üzrə (134), «sağlamlıq, xilasetmə xidməti və əyləncə» (41), «qazma və mədən işi» (40), «cihazlar» (30) və «ayırma, qarışdırma» (29) siniflərinin payına düşür.

| Bölmə | Siniflər | İxtiraların sayı |
|---|---|---|
| **A. İnsanın həyati tələbatlarının ödənilməsi** | Kənd təsərrüfatı | **10** |
| | Qida məhsulları; tütün | **7** |
| | Şəxsi və ev əşyaları | **1** |
| | Səhiyyə; xilasetmə xidməti; əyləncə | **41** |
| **B. Müxtəlif texnoloji proseslər, nəqliyyat** | Ayırma; qarışdırma | **29** |
| | Təşəkkül | **4** |
| | Poliqrafiya | **-** |
| | Nəqliyyat | **9** |
| | Mikrostruktur texnologiyaları; nanotexnologiyalar | **7** |
| **C. Kimya və metallurgiya** | Kimya | **134** |
| | Metallurgiya | **17** |
| | Kombinasiya edilmiş texnologiya | **-** |
| **D. Toxuculuq və kağız** | Digər siniflərə aid olmayan toxuculuq və ya oxşar elastik materiallar | **2** |
| | Kağız | **-** |
| **E. İnşaat; mədən işi** | İnşaat | **12** |
| | Torpaq və ya dağ süxurların qazıntısı; mədən işi | **40** |
| **F. Maşınqayırma; işıqlandırma; istilik; mühərrik və nasoslar; silah və döyüş sürsatı; partlatma işləri** | Mühərrik və ya nasoslar | **3** |
| | Ümumi maşınqayırma | **6** |
| | İşıqlandırma; istilik | **6** |
| | Silah və döyüş sursatı; partlama işləri | **-** |
| **G. Fizika** | Cihazlar | **30** |
| | Nüvə fizikası və texnika və əlaqəli elm sahələri | **1** |
| **H. Elektrik** | Elektrik | **6** |

Göstərilən rəqəmlərlə Azərbaycanın texnologiyalar sahəsində drayver rolunu **kimya, sağlamlıq və qazma** istiqamətlərində olan ixtiralar oynayır.

Ölkənin patent sahəsinə əsaslanaraq, texnoloji potensialını dəyərləndirmək məqsədilə dünya üzrə ən qabaqcıl texnoloji istiqamətlərlə və müvafiq ölkələrlə müqayisə aparaq.

ÜƏMT-nın məlumat bazasında 35 qabaqcıl texnoloji sahələr verilmişdir və bunlar 5 geniş qruplara aid edilib. Hər bir texnoloji sahəyə BPT-a uyğun olaraq, kodlar verilib.

Bununla yanaşı, Üçtərəfli Patent Təşkilatı tərəfindən (Avropa Patent Təşkilatı (EPO), ABŞ-ın Patent və Əmtəə Nişanları Təşkilatı (USPTO) və Yaponiya Patent Təşkilatı (YPO) yüksək texnologiyalara aid olan BPT kodları müəyyən edilib. Bunun əsasında 35 texnoloji sahələrdən yüksək texnologiyalara aid olanlar seçilərək, aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Texnoloji sahələrin qrupları | Texnoloji sahələr | Yüksək texnologiyalar sahəsi |
|---|---|---|
| 1. Elektrotexnika | Elektrik maşınlar, aparatlar, enerji<br>Audiovizual texnologiyalar<br>Telekommunikasiyalar<br>Rəqəmsal əlaqə<br>Əsas kommunikasiya prosesləri<br>Kompüter texnologiyaları<br>İdarəetmədə İT üsulları<br>Yarımkeçiricilərin istehsalı | Audiovizual texnologiyalar<br>Telekommunikasiyalar<br>Rəqəmsal əlaqə<br>Əsas kommunikasiya prosesləri<br>Kompüter texnologiyaları<br>İdarəetmədə İT metodları<br>Yarımkeçiricilərin istehsalı |
| 2. Cihazlar | Optika<br>Ölçmə<br>Biomaterialların analizi<br>Nəzarət<br>Tibbi avadanlıq | Optika<br>Ölçmə<br>Biomaterialların analizi<br>Nəzarət |
| 3. Kimya | Zərif üzvü kimya<br>Biotexnologiya<br>Əczaçılıq<br>Makromolekulyar kimya, polimerlər<br>Qida kimyası<br>Əsas materialların kimyası<br>Materiallar, metallurgiya<br>Səth və örtük texnologiyaları<br>Mikrostruktur və nanotexnologiyalar<br>Kimya texnologiyaları<br>Ətraf mühit texnologiyaları | Biotexnologiya<br>Əczaçılıq |
| 4. Maşınqayırma | Yükvurma avadanlığı<br>Dəzgahlar<br>Mühərriklər, nasoslar, turbinlər<br>Toxuculuq və kağız emalı üçün avadanlıq<br>Digər xüsusi avadanlıq<br>İstilik prosesləri və aparatları<br>Mexaniki elementlər<br>Nəqliyyat | |
| 5. Digər sahələr | Mebel, oyunlar<br>Digər istehlak malları<br>İnşaat | |

Mənbə: *ÜƏMT, Avrostat*

Azərbaycanda yerli ixtiraçıların yüksək texnoloji 13 sahəyə aid patentləri, cüzi miqdarda olsa da yüksək texnoloji istiqamətlərə yaxın sahələrdə, o cümlədən nanotexnologiyalar, elektrotexnika, cihazlar və s. istiqamətlərdə patentləri mövcuddur: Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Milli Nüvə Tədqiqatları Mərkəzi Qapalı Səhmdar Cəmiyyətinə aid «Yarımkeçirici fotoelektron gücləndiricisi», AMEA-nın Fizika institutuna aid «Mayorana fermionları vasitəsilə birölçülü kristallarda qubit Kvant informasiyası daşıyıcısının yaradılması üsulu», «Media Servis Az» MMC-nin «Kommunikasiya şəbəkəsi abonentlərinin istifadə üçün kredit işləmələri sistemi və üsulu» və s.

Nümunə üçün aşağıdakı cədvəllərdə 2010-2016-cı illərdə yüksək texnoloji sahələrdə maksimal patent aktivliyini (verilən patentlərin sayı üzrə) nümayiş etdirən ölkələr göstərilir:

| Reytinqdə yeri / İstiqamət | 1 | 2 | 3 |
|---|---|---|---|
| Audiovizual texnologiyalar* | Yaponiya | ABŞ | Cənubi Koreya |
| | **19508** | **7974** | **6651** |
| Telekommunikasiyalar* | Yaponiya | ABŞ | Cənubi Koreya |
| | **10233** | **9324** | **4712** |
| Rəqəmsal əlaqə* | ABŞ | Çin | Yaponiya |
| | **15338** | **11333** | **8214** |
| Kompüter texnologiyaları* | ABŞ | Yaponiya | Çin |
| | **33471** | **20810** | **9228** |
| İdarəetmədə İT üsulları* | ABŞ | Yaponiya | Cənubi Koreya |
| | **4308** | **2404** | **1928** |
| Yarımkeçiricilərin istehsalı* | Yaponiya | ABŞ | Cənubi Koreya |
| | **19863** | **9018** | **8250** |

Mənbə: *WIPO statistical database və T.A.Sutırina («Elm, innovasiyalar, təhsil» jurnalı, №2, 2018)*

| Reytinqdə yeri / İstiqamət | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Optika*** | Yaponiya | Cənubi Koreya | ABŞ | Çin | Almaniya | Niderland | Fransa | Böyük Britaniya | İsveçrə | Rusiya |
| | 22942 | 4835 | 4705 | 3048 | 1314 | 748 | 642 | 286 | 223 | 181 |
| **Ölçmə*** | Yaponiya | Çin | ABŞ | Almaniya | Cənubi Koreya | Fransa | Rusiya | İsveçrə | Böyük Britaniya | Niderland |
| | 13241 | 12271 | 9320 | 4296 | 3976 | 1847 | 1759 | 1366 | 1043 | 722 |
| **Biomaterialların analizi*** | ABŞ | Yaponiya | Çin | Rusiya | Almaniya | Cənubi Koreya | Fransa | Böyük Britaniya | İsveçrə | Niderland |
| | 1828 | 1013 | 987 | 481 | 467 | 436 | 286 | 238 | 205 | 99 |
| **Nəzarət*** | Yaponiya | ABŞ | Çin | Cənubi Koreya | Almaniya | Fransa | Rusiya | Böyük Britaniya | İsveçrə | Kanada |
| | 5458 | 4224 | 3335 | 1584 | 1254 | 523 | 343 | 298 | 217 | 176 |
| **Tibbi avadanlıqlar** | ABŞ | Yaponiya | Almaniya | Çin | Cənubi Koreya | İsveçrə | Rusiya | Fransa | Böyük Britaniya | İsveç |
| | 18634 | 8686 | 3803 | 3264 | 2781 | 1655 | 1563 | 1396 | 1217 | 838 |

| İstiqamət \ Reytinqdə yeri | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Biotexnologiyalar*** | ABŞ | Çin | Yaponiya | Cənubi Koreya | Almaniya | Fransa | İsveçrə | Böyük Britaniya | Niderland | Danimarka |
| | **6269** | **4335** | **2506** | **1511** | **1231** | **761** | **641** | **616** | **486** | **397** |
| **Əczaçılıq*** | ABŞ | Çin | Yaponiya | Almaniya | İsveçrə | Fransa | Cənubi Koreya | Böyük Britaniya | Rusiya | İtaliya |
| | **10082** | **7526** | **3329** | **2350** | **1788** | **1661** | **1654** | **1180** | **1095** | **759** |
| **Mikrostruktur və nanotexnologiyalar** | Çin | Cənubi Koreya | Yaponiya | ABŞ | Rusiya | Almaniya | Fransa | Niderland | Böyük Britaniya | İsveçrə |
| | **613** | **407** | **398** | **390** | **197** | **147** | **92** | **28** | **26** | **24** |
| **Kimya texnologiyaları** | Çin | Yaponiya | ABŞ | Cənubi Koreya | Almaniya | Fransa | Rusiya | Böyük Britaniya | Niderland | İsveçrə |
| | **5629** | **4732** | **4683** | **2449** | **2379** | **896** | **816** | **625** | **452** | **452** |
| **Ətraf mühit texnologiyaları** | Çin | Yaponiya | ABŞ | Cənubi Koreya | Almaniya | Fransa | Rusiya | Böyük Britaniya | Niderland | İsveçrə |
| | **4386** | **3965** | **2334** | **1962** | **1236** | **566** | **481** | **311** | **277** | **214** |

** - yüksək texnoloji istiqamətlər*

Mənbə: *WIPO statistical database və T.A.Sutırina («Elm, innovasiyalar, təhsil» jurnalı, №2, 2018)*

Qeyd etmək lazımdır ki, ÜƏMT-nın 2016-cı ilin Hesabatına (World Intellectual Property Indicators) əsasən, rezidentlərin ən yüksək ixtira aktivliyini nümayiş etdirən 10 ölkə analiz edilib və onun nəticələrinə əsasən, dünya texnoloji liderləri aşağıdakılardır:

- **Yaponiya** → **Optik texnologiyalar üzrə**
- **Almaniya** → **Nəqliyyat texnologiyaları üzrə**
- **ABŞ** → **Əczaçılıq üzrə**
- **Çin** → **Mexanika üzrə**
- **Rusiya** → **Qida kimyası üzrə**

**4. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların tətbiqinə və innovasiyalara dəstək.** Azərbaycan Respublikası innovativ inkişaf yoluna qədəm qoymuşdur. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə dərin iqtisadi islahatlar həyata keçirilir. İqtisadi həyatda müşayiət olunan tendensiyalar və nailiyyətlər, innovativ inkişafdakı uğurlar texnologiyaların

kommersiyalaşdırılması üzrə şəraitin yaradılması və əqli mülkiyyətin qorunması və idarə edilməsi vəziyyəti ilə sıx bağlıdır. Bununla əlaqədar innovativ inkişafa və texnoloji nəticələrin tətbiq olunması üzrə imkanların yaradılmasına məsul olan strukturlar bütövlükdə və o cümlədən, əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətdən irəli gələn tendensiya və tələblərə uyğun olmalı, həyata keçirilən islahatlara dəstəyi təmin etməlidir.

Azərbaycan Respublikası Prezidentinin innovativ inkişaf sahəsində koordinasiyasının təmin olunması barədə imzaladığı Sərəncam və Əqli Mülkyyət Agentliyinin yaradılması üzrə həyata keçirilən institusional islahatlar müasir iqtisadi inkişafda innovasiyaların və əqli mülkiyyətin əhəmiyyətini əyani şəkildə göstərir. Deməli, ölkənin innovativ iqtisadi siyasəti və ondan irəli gələn iqtisadi imperativlər texnoloji yeniliklərin artan templə bazara çıxarılmasının əsas bazisidir və innovativ nəticələri müşayiət edən əqli mülkiyyətin böyük əhəmiyyətini göstərir.

Hesabat ilində innovativ inkişafa və əqli fəaliyyət nəticələri olan yeni texnologiyaların tətbiq olunması üzrə imkanların yaradılması, texnologiyaların kommersiyalaşdırılması və transferi istiqamətlərində ölkəmizdə aparılan işlərə dəstək verilməsi məqsədi ilə ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində 3.0 universitetlərin yaradılması, burada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çəkilməsi; KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması; əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi; ölkədəki infrastruktur hesabına formalaşmış və elmi tədqiqatların nəticələrinin potensialından maksimum faydalanmaq istiqamətlərində tədbirlər həyata keçirilmişdir. O cümlədən:

**2019-cu il 31 may tarixində** Əqli Mülkiyyət Agentliyi, Təhsil Nazirliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə layihəsi olan "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti" üzrə Milli layihənin icrası çərçivəsində ölkəmizin 12 universitetin və elmi-tədqiqat institutlarının innovasiyalar və patent üzrə mütəxəssisləri və AMEA Rəyasət Heyətinin əməkdaşları ilə seminar-görüş keçirilmiş, Agentliyin nümayəndəsi tərəfindən **"Azərbaycanda Texnologiya və İnnovasiyaya Dəstək Mərkəzlərinin Yaradılması"** mövzusunda geniş məruzə edilmiş, 3.0 universitetlərin yaranması və elmi-tədqiqat nəticələrinin tətbiqi və yaradılacaq TİDM-lər ilə bağlı məsələlər müzakirə olunmuş, bu sahədə son vaxtlar görülən işlərin nəticələri ilə bağlı ətraflı məlumat verilmiş, iştirakçıların sualları cavablandırılmışdır.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 9 dekabr 2019-cu il tarixində keçirilən "Kreativ Azərbaycan" portalının təqdimatı və **"Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar"** mövzusunda nazirlər panelində Agentliyin nümayəndəsinin **"Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım" mövzusunda prezentasiya etmiş və həmin tədbirdə edilmiş** giriş sözü və prezentasiyası əsasında eyni adlı kitab hazırlanaraq nəşr edilmişdir.

2019-cu il 20 dekabr tarixində Agentliyin nümayəndəsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında keçirilən müşavirədə **"İnnovasiyalı inkişaf və əqli mülkiyyət"** mövzusunda çıxış etmişdir.

Bunlarla yanaşı, qlobal texnoloji trendlərin milli rəqabətqabiliyyətliliyə təsirinin elm və texnologiya sahəsi üçün yeni çağırışlar formalaşdırdığını nəzərə alaraq, 2019-cu hesabat ilində əqli mülkiyyətin kommersiyalaşdırılması və texnologiyaların transferi, bu sahədə müvafiq mərkəzlərin yaradılması üzrə 4 istiqamət üzrə iş aparılmışdır.

**1) Azərbaycanda texnoloji bazarın araşdırılması, kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin təhlili və qiymətləndirilməsi.** Bununla əlaqədar, kiçik və orta

biznes subyektlərinin milli iqtisadiyyatın dayanıqlı inkişafında rolunu, innovativ sahibkarlığın təşviqinin əhəmiyyətini və əqli mülkiyyət obyektlərinin qorunmasının vacibliyini nəzərə alaraq və kiçik və orta biznes subyektlərinə məxsus əqli mülkiyyət hüquqlarının qorunmasını təmin etmək, ölkədə əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması və bununla əlaqədar yaranan məsələlərdə birgə fəaliyyəti təşkil etmək, həmçinin bu sahədə müştərək layihələrin icra edilməsinə nail olmaq məqsədilə Əqli Mülkiyyət Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Əməkdaşlıq haqqında Memorandum və Fəaliyyət planın layihəsi hazırlanmışdır və hazırda KOB İnkişafı Agentliyi ilə razılaşdırma mərhələsindədir.

Memorandum aşağıdakı sahələrdə əməkdaşlıq istiqamətlərinin reallaşdırılmasını nəzərdə tutur:

- Ölkə üzrə fəaliyyət göstərən kiçik və orta biznes (bundan sonra KOB) subyektlərinin kadrlar, konsaltinq, elmi-tədqiqatların tədbiqi, innovativ, elm tutumlu ixrac fəaliyyət istiqamətləri üzrə məlumatların toplanması və emalı, KOB subyektlərinə məxsus əqli mülkiyyət hüquqlarının mühafizəsinin ümumi vəziyyətinin müəyyən edilməsi;
- Əqli mülkiyyət hüquqlarının mühafizəsini daha səmərəli təşkil etmək, bölgələrdə fəaliyyət göstərən KOB subyektlərinə əqli mülkiyyət mədəniyyətinin aşılanmasını təmin etmək məqsədilə yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının, ictimai birliklərin və yerli ictimai cəmiyyətlərin, o cümlədən kollektiv idarəetmə təşkilatlarının, patent müvəkkillərinin fəaliyyətlərinin əlaqələndirilməsi;
- KOB subyektlərinə sənaye mülkiyyəti obyektlərinin qeydiyyatdan keçirilməsinin təşviq edilməsi;
- Mikro, kiçik və orta sahibkarlıq subyektlərində əqli mülkiyyət portfelinin yaradılması və idarə edilməsi, ənənəvi sahibkarlıq sahələrində tətbiq edilən metod və vasitələrdən keyfiyyətli və səmərəli istifadə edilməsi;
- KOB subyektlərinə, o cümlədən, ənənəvi sahibkarlıqla məşğul olan subyektlərə məxsus əqli mülkiyyət obyektlərinin idarəedilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməsi ilə bağlı maarifləndirmə tədbirləri;
- Biznes subyektlərinin əqli mülkiyyət hüquqları sahəsində maarifləndirilməsini təmin etmək məqsədilə seminarların, konfransların təşkil edilməsi, sosial çarxlar, bukletlər və məlumat kitabçalarının hazırlanması;
- Biznes subyektləri və ixtiraçılar tərəfindən startap layihələrinin yaradılmasının stimullaşdırılması məqsədilə ixtiraların patentləşdirilməsi və innovasiyaların təşviq edilməsi;
- KOB subyektlərinin hüquq sahibi olduğu əqli mülkiyyət obyektlərini regional və beynəlxalq arenada potensial alıcılara çatdıra bilməsi və biznesin inkişaf etdirilməsi məqsədilə beynəlxalq şəbəkələrə qoşulma istiqamətində hazırlıq işlərinin həyata keçirilməsi;
- Memorandum çərçivəsində KOB İnkişafı Agentliyinə müraciət edən şəxslərə səmərəli xidmət göstərmələri məqsədilə KOB Könüllülərinə əqli mülkiyyət hüququ sahəsində təlimlərin keçilməsi.

**Memorandumun icrası ilə əlaqədar hazırlanmış Fəaliyyət planında bir neçə istiqamətlərdə müştərək layihələrin icra edilməsi nəzərdə tutulur:**

- KOB subyektlərinə məxsus əqli mülkiyyət obyektlərinin sorğu əsasında müəyyən edilməsi;
- KOB subyektləri tərəfindən yaradılan startaplara dair əqli mülkiyyət obyektlərinin kommersiyalaşdırılması ilə bağlı peşəkar məsləhətləşmələr;
- KOB subyeklərində ƏM mədəniyyətinin və fəallığının formalaşdırılması və İP ofislərə dəstək;
- “İdeyalar, innovasiyalar və iqtisadi inkişaf” metodoloji-praktiki konfransın təşkil edilməsi.

**2) Texnologiyaların kommersiyalaşması və transferi mərkəzlərinin yaradılması ilə bağlı işlər.** Bununla əlaqədar

“Texnologiyaların Kommersiyalaşması və Transferi Mərkəzi”nin yaradılması üçün üç əsas hüquqi-təsisat (MMC, Fond və Publik Hüquqi Şəxs) forması təklif edilmiş, onların Nizamnamə sənədləri hazırlanmışdır. Təklif edilən hər üç hüquqi-təsisat formasının zəif və güclü tərəflərinin dəyərləndirilməsi üçün SWOT analiz aparılmış və nəticələr Nizamnamə formalarına əlavə edilmişdir. Yaradılacaq Mərkəzin fəaliyyətinin ümumi istiqamətlərini əks etdirən sənəd də qeyd olunan sənədlər toplusuna əlavə edilərək Nazirlər Kabinetinə təqdim edilmişdir və hazırda sənədlər toplusu baxılma mərhələsindədir.

Bu istiaqamətdə görülən işlərin davamı olaraq, TKTM-lərin təşkilati inkişaf modeli beynəlxalq (Amerika, Avropa və Rusiya) təcrübə əsasında hazırlanmış, bütövlükdə TKTM modelinin yaradılması strategiyası, onun missiyası və yaradılmasının başlıca məqsədləri ölkəmizin milli spesifikası nəzərə alınmaqla, qısa tezislər formasında təqdim olunmuş və göstərilən sahənin rəhbər işçiləri və mütəxəssisləri üçün “İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu” mövzusunda konfrans keçirilmiş və Azərbaycan və rus dillərində “İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri (Yaradılması və fəaliyyəti üzrə tövsiyələr)” adlı kitab hazırlanaraq nəşr edilmiş və yayılmışdır.

**3) Texnologiyalara və İnnovasiyalara Dəstək Mərkəzlərinin və əlaqəli şəbəkənin yaradılması.** Bu layihə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təşəbbüsü və Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə həyata keçirilir. Birinci mərhələdə “Ali təhsil müəssisələrin innovasiya pasportu” layihəsi hazırlanmışdır və həyata keçirilir. Pasport toplam 32 göstərici əsasında hazırlanmış və innovasiya fəaliyyətinin bütün aspektlərini tam xarakterizə edən 4 modul üzrə qruplaşdırılmışdır. İkinci mərhələdə Təhsil Nazirliyinə müvafiq məktub göndərilmiş, Təhsil Nazirliyi isə öz növbəsində bu innovasiya sorğusunu bütün dövlət universitetlərinə yönəltmişdir. Hazırda alınmış sorğu cavablarına əsasən universitetlərin hər bir modul üzrə və bütövlükdə integral innovasiya göstəricisi hesablanır. 2019-cu ildə 20 dövlət universitetindən 9-u sorğuları Agentliyə təqdim edib və bu proses hazırda davam edir. Təqdim olunan göstəricilərin təhlili əsasında Əqli Mülkiyyət Agentliyi və Təhsil Nazirliyi universitetlərin rəhbərliyi tərəfindən universitetlərin innovativ inkişafını dəstəkləyən və 3.0 universitet modelinə keçidini sürətləndirən təkliflər müzakirə ediləcək.

Layihənin icrası ilə bağlı 31 may 2019-cu il tarixində təşviqi tədbir-seminar keçirilmişdir. Seminarda 12 universitet və elmi-tədqiqat institutunun innovasiyalar və patent üzrə mütəxəssisləri ilə görüş keçirilmiş və yaradılacaq TİDM-lərin əsas vəzifələri və yaradılması prinsipləri ilə bağlı ətraflı məlumat verilmişdir. İkinci mərhələdə **TİDM-in** yaradılması haqqında RAZILAŞMA nümunəsi və onun Əsasnaməsi hazırlanmışdır. Əqli Mülkiyyət Agentliyi və istənilən İnstitut arasında bağlanması nəzərdə tutulan “Razılaşma” institutların bazasında TİDM yaradılması məsələlərini tənzimləyəcəkdir və onun əsas məqsədləri kimi aşağıdaklar müəyyən edilmişdir:

- Əqli fəaliyyət nəticələrinin yaradılması və effektiv istifadəsi üzrə ixtiraçıların və elmi işçilərin stimullarının artırılması üçün Əqli Mülkiyyət Agentliyinin və ÜƏMT-nin patent və qeyri-patent və əqli mülkiyyət sahəsində digər informasiya resurslarına pulsuz daxil olma imkanın təmin edilməsi;
- Əqli fəaliyyət nəticələrinin hüquqi qorunması və patent tədqiqatlarının aparılması sahələrində ixtisaslaşdırılmış təlim və distant təhsil proqramlarının vasitəsilə biliklərin yayılması səmərəliliyinin artırılması;

- Konfrans və seminarların təşkili yolu ilə cəmiyyətdə innovasiya fəaliyyətinin təbliği və yayılması.

Növbəti mərhələdə “Azərbaycanda Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzlərinin Yaradılması” üzrə beynəlxalq layihədə iştirak etmək üçün 29 noyabr 2019-cu il tarixində Respublika müsabiqəsi elan edilmişdir. Müsabiqədə iştirak etmək üçün 8 universitetdən, AMEA-nın 1 institutundan və 1 sahə institutundan müraciətlər qəbul olunmuşdur və bu proses davam edir.

Bununla yanaşı, innovasiya və texnologiyaların tətbiqi və kommersiyalaşdırılması ilə bağlı bir sıra elmi məqalələr hazırlanmış və çap edilmişdir. O cümlədən: 22-24 may 2019-cu ildə Bakı şəhərində keçirilən "RİSK - 2019" İlk Avrasiya konfransında Agentliyin nümayəndələri Hüseynov A.F. və Həbibov F.H. “The main economic and administrative barriers affecting a high level of risks in the commercialization of innovations” mövzusunda məruzə ilə cıxış etmişlər, həmin məruzə əsasında hazırlanmış məqələ çapa qəbul edilib.

Məsələ ilə ilə bağlı hesabat ilində daha 2 məqalə hazırlanmışdır:

1. Hüseynov A.F., Özdemir Yahya. “Modeling and evaluation of innovative activities in the banking services sector” (8 səhifə) AJIT-e: Online Academic Journal of Information Technology 2018 - Informatics and Communication Technologies Special Issue/Vol: 9 / Num: 35 çap edilmişdir.
2. Həbibov F.H. və Hüseynov A.F. “Проект рискового финансирования коммерциализации инновационных проектов для Азербайджанской Республики” (9 səhifə) “Əqli Mülkiyyət” jurnalına təgdim edilmişdir.

**5. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.** 2019-cu ildə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi (bundan sonra –Ekspertiza Mərkəzi) patent sisteminin inkişaf etdirilməsi, sahə qanunvericiliyinin təkmilləşdirilməsi, ixtiraçıların və sahibkarların məlumatlılığının artırılması istiqamətində məqsədyönlü iş aparmış, o cümlədən ekspertizanın keyfiyyətinin artırılmasına və iddia sənədlərinə baxılmasında qanunvericiliklə müəyyən edilmiş prosedurların vaxtında yerinə yetirilməsinə nəzarət gücləndirilmişdir.

Nəticədə sənaye mülkiyyəti obyektlərinin qeydiyyata alınmasında, qeydiyyat müddətlərinin uzadılmasında, qanunvericiliyin tətbiqində və ekspertiza prosedurlarının həyata keçirilməsində şəffaflıq və tələbkarlıq artırılmışdır. Eyni zamanda müasir çağırışlar əsasında yeni yanaşma metodlarının tətbiqinə başlanılmış, iddiaçılara qarşı süründürməçilik hallarına tamamilə son qoyulması təmin olunmuş, iddia sənədlərinin qəbulunun, ekspertizasının və qeydiyyatının “Vahid pəncərə” prinsipi əsasında həyata keçirilməsi məqsədilə geniş tədbirlərə başlanılmışdır. Xüsusilə Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə sənaye mülkiyyəti sahəsində davamlı olaraq həyata keçirilən tədbirlərdə Ekspertiza Mərkəzi yaxından iştirak etmişdir. Beynəlxalq patentlərin qeydiyyatı üzrə PCT sisteminin geniş tətbiqinə diqqət daha da artırılmış, ixtiraların və faydalı modellərin qeydiyyata alınması üzrə prosedurlar icra olunarkən keçən ilin ikinci yarısından başlanılmış “İddiaçı-ekspert” arasında elektron qaydada ünsiyyət” prinsipinin tətbiqinə başlanılmışdır.

**5.1. Sənaye mülkiyyəti obyektlərinə dair iddia ərizələrinə baxılması nəticələri, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.**

**İxtira və faydalı modellər üzrə.** Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı 225 iddia sənədi daxil olmuşdur. Beynəlxalq PCT prosedurası üzrə milli iddia sənədlərinin sayı 11, Avrasiya iddia sənədlərinin sayı 38 olmuşdur.

Hüquqların növləri üzrə daxil olan iddia sənədləri, iddia sənədləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada iddiaçılara və digər maraqlı şəxslərə

göndərilən (verilən) bildirişlərə, sorğulara və arayışlara dair statistik məlumatlar aşağıda Cədvəl 1-də verilmişdir:

**Cədvəl 1**

**İxtira və faydalı modelin qeydiyyatı ilə bağlı iddia sənədləri barədə məlumat**

| № | Hüquqi hərəkətin adı | Milli iddia sənədləri | | Beynəlxalq (PCT) iddia sənədləri | Avrasiya iddia sənədləri |
|---|---|---|---|---|---|
| | | İxtira | Faydlı model | | |
| **İLKİN EKSPERTİZA ÜZRƏ** | | | | | |
| **1.** | Daxil olan iddia sənədlərinin sayı | **167** | **58** | **11** | **38** |
| **2.** | İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildiriş verilmiş iddia sənədlərinin sayı | **234** | **57** | | |
| **3.** | İlkin ekspertizanın sorğusu verilmiş iddia sənədlərinin sayı | **89** | **21** | **6** | **23** |
| **4.** | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **29** | **8** | | |
| **5.** | Müxtəlif növ bildirişlər verilmiş iddia sənədlərinin sayı | **70** | **12** | | |
| **6.** | Aparılan axtarışların sayı | **85** | **13** | | |
| **7.** | Hazırlanmış və BB-ya və ya AAPİ-yə göndərilmiş iddia sənədləri | | | **9** | **28** |
| **MAHİYYƏTCƏ EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 8. | Mahiyyətcə ekspertiza sorğusu verilmiş iddia sənədlərinin sayı | **225** | **38** | | |
| 9. | İddia sənədi barədə məlumatın dərci haqqında qərarların sayı | **191** | **53** | | |
| 10. | Patent verilməsindən imtina haqqında qərarların sayı | **11** | **0** | | |
| 11. | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **28** | **14** | | |
| 12. | Müxtəlif növ bildirişlər verilmiş iddia sənədlərinin sayı | **47** | **21** | | |
| 13. | İddia sənədinin dəyişilməsi haqqında bildiriş | **19** | **0** | | |

İddia sənədlərinin ekspertizası nəticələrinə uyğun olaraq Ekspertiza Mərkəzinin Müşahidə Şurası tərəfindən **191** ixtiraya dair məlumatların dərc edilməsi barədə **11** ixtiranın qeydiyyata alınmasından imtina edilməsi barədə qərar qəbul edilmişdir.

Faydalı modellər üzrə məlumatların dərc edilməsi barədə qərarların sayı **53** olmuşdur. İmtina barədə qərar olmamışdır.

Hesabat dövründə PCT proseduru üzrə 11 xarici iddia sənədi daxil olmuşdur.

İxtira səviyyəsinə dair tələblər ödənilmədiyinə görə qeydiyyat üçün təqdim edilmiş **17** iddia sənədinin ekspertizasının nəticələri əsasında onların faydalı modelə çevrilməsi barədə iddiaçıya bildiriş göndərilmişdir. Beləliklə ilkinlik tarixi saxlanılmaqla **17** ixtira faydalı modelə çevrilmişdir.

***Cədvəl 2***

**İddia sənədləri üzrə iddiaçıların ümumi sayı və tərkibi aşağıdakı kimidir:**

| | |
|---|---|
| Hüquqi şəxs olan iddiaçıların sayı: | **100** |
| Fiziki şəxslər tərəfindən verilən iddia sənədlərinin sayı:<br>Fiziki şəxslər tərəfindən verilən iddia sənədləri üzrə iddaçıların sayı<br>o cümlədən: | **66**<br>**107** |
| qadın iddiaçıların sayı: | **25** |
| kişi iddiaçıların sayı: | **82** |
| İxtira və faydalı modellərin qeydiyyatına dair geri çağırılmış iddia sənədlərinin sayı: | **31** |
| İxtiraya dair iddia sənədlərinin tərkibi aşağıdakı kimidir: | |
| Kimya və metallurgiya sahəsində: | **118** |
| İnsan həyatı tələbatının ödənilməsi sahəsində: | **47** |
| Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və sursat, partlayıcı işlər sahəsində: | **14** |
| Fizika sahəsində | **12** |
| Elektrik sahəsində | **12** |
| **Faydalı modelə dair iddia sənədlərinin tərkibi aşağıdakı kimidir**: | |
| Kimya və metallurgiya sahəsində : | **0** |
| Müxtəlif texnoloji proseslər və nəqliyyat sahəsində: | **6** |

| | |
|---|---|
| İnşaat və dağ-mədən sahəsində: | **22** |
| İnsan həyatı tələbatının ödənilməsi sahəsində | **16** |
| Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və sursat, partlayıcı işlər sahəsində: | **7** |
| Fizika sahəsində: | **3** |
| Elektrik sahəsində | **3** |
| | |
| **Beynəlxalq xarici iddia sənədləri (PCT) üzrə iddiaçıların tərkibi:** | |
| Hüquqi şəxslərin sayı: | **16** |
| Fiziki şəxslərin sayı | **0** |
| | |
| **Beynəlxalq xarici iddia sənədlərinin (PCT) tərkibi aşağıdakı kimidir:** | |
| Kimya və metallurgiya sahəsində | **0** |
| İnsan həyatı tələbatının ödənilməsi sahəsində | **12** |
| Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və sursat, partlayıcı işlər sahəsində | **2** |
| Fizika sahəsində | **3** |
| Elektrik sahəsində | **1** |

**Əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilər.** Hesabat dövründə əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilərin (Naxçıvan Muxtar Respublikası daxil olmaqla) qeydiyyatı ilə bağlı ümumilikdə **5856** (daxil olan milli əmtəə nişanları, beynəlxalq əmtəə nişanları, milli sənaye nümunələri, beynəlxalq sənaye nümunələri ) iddia sənədi daxil olmuşdur.

***Cədvəl 3***

**Əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilərə dair daxil olan iddia sənədlərinin sayı, iddia sənədləri üzrə iddiaçılara və ya onların nümyəndələrinə (patent müvəkkillərinə) göndərilən bildirişlər, sorğular və arayışlara dair məlumatlar**

| ***Əmtəə nişanlarının qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədlərinin sayı*** | ***Sənaye nümunəsi qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədlərinin sayı*** | ***Coğrafi göstərici qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədlərinin sayı*** |
|---|---|---|
| **2317**, o cümlədən iddiaçının vəsatəti əsasında ekspertizası sürətli | | |

| | | |
|---|---|---|
| (bir ay müddətində) aparılmalı olan sənədlərin sayı-**700** | **78** | **Daxil olmamışdır** |
| ***Əmtəə nişanlarına dair iddia sənədləri üzrə bildirişlərin sayı*** | ***Sənaye nümunəsinə dair iddia sənədləri üzrə bildirişlərin sayı*** | ***Coğrafi göstəriciyə dair iddia sənədləri üzrə bildirişlərin sayı*** |
| **3270** (2018-ci il üzrə icrası davam etdirilən iddia sənədlər ilə bağlı bildirişlər daxil olmaqla) | **79** | **8 *(2018-ci il üzrə iddia sənədləri ilə bağlı)*** |
| ***Arayış (ilkin ekspertiza üzrə)*** | ***Sorğu (ekspertizanın nəticəsi üzrə)*** | ***İddia sənədinin geri çağırılması haqqında bildiriş*** |
| **2155** (2018-ci il üzrə icrası davam etdirilən iddia sənədlər ilə bağlı bildirişlər daxil olmaqla) | **132** | **4** |
| Sorğu - **391** | Kargüzarlığın dayandırıl-masına dair bildiriş - **12** | Qeydiyyata alnma barədə qərar - **7 ədəd** |
| İddia sənədinin geri çağırılması haqqında bildiriş - **64** | Mahiyyətcə ekspertizaya dair sorğu - **5** | |
| Qərar - **1557** (2018-ci il üzrə icrası davam etdirilən iddia sənədlər ilə bağlı bildirişlər daxil olmaqla) | Mahiyyətcə ekspertizaya dair bildiriş **-3** | |
| İmtina haqında bildiriş - **278** | Məlumatın dərci haqqında qərar - **64** | |
| İmtina haqqında qərar - **61** | Patentin verilməsindən imtina haqqlnda qərar - **2** | |

***<u>Cədvəl 4</u>***

| **Naxçıvan Muxtar Respublikasından Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin Milli əmtəə nişanları, coğrafi göstəricilər və sənaye nümunələrinin ekspertizası sektoruna daxil olan iddia sənədləri** | |
|---|---|
| Milli əmtəə nişanları üzrə daxil olan iddia sənədləri | Sənaye nümunələri üzrə daxil olan iddia sənədləri |
| 56 | 11 |

**Beynəlxalq əmtəə nişanları.** Əmtəə nişanlarının Azərbaycanda qeydiyyata alınması üçün ÜƏMT-nin Beynəlxalq Bürosu tərəfindən daxil olan sənədlər **2018-ci il**

**üzrə 70, 2019-cu il üzrə 50_** ölkəni əhatə edir **(müsbət və mənfi qərarların sayı Cədvəl 3-də verilmişdir)**.

**ÜƏMT-nin Beynəlxalq Bürosu tərəfindən daxil olan əmtəə nişanlarının və sənaye nümunələrinin Azərbaycanda qeydiyyata alınması sahəsində görülmüş işlər haqqında məlumat**

*Cədvəl 5*

| *Əmtəə nişanlarının beynəlxalq qüydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə daxil olan bildirişlərin sayı* | *Sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair Haaqa sazişi üzrə bildirişlərin sayı* |
|---|---|
| **3307** | **154** |
| *İmtina haqqında qərarların sayı* | *Ekspertizanın müsbət nəticəsi haqqında qərarların sayı* |
| **149** | **134** |
| *Yerli iddiaçılar tərəfindən əmtəə nişanının beynəlxalq qeydiyyatına dair müraciət* | *İmtina haqqında Qərar* |
| **8** | **1** |
| *Əmtəə nişanı barəsində tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə qeydiyyata alınması haqqında qərarların sayı* | *Kargüzarlıq işlərinin davam etdirildiyi sənədlərin sayı* |
| **41** | **20** |

Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı ekspertizaya daxil olmuş **2265** iddia sənədinin (Əmtəə nişanlarının Azərbaycanda qeydiyyata alınması üçün ÜƏMT-nin Beynəlxalq Bürosu tərəfindən daxil olan sənədlər istisna olmaqla) və ekspertizası nəticələrinə uyğun olaraq **1557** əmtəə nişanı barədə müsbət nəticəsi haqqında qərar və **61** əmtəə nişanının qeydiyyata alınmasından imtina olunmuşdur.

**İmtinanın səbəbləri aşağıdakılardır:**

Qeydiyyatından imtina olunmasına əsas səbəblər:

- nişanlar arasında oxşarlıq (bəzən eynilik);
- nişanın fərqlənmə qabiliyyətinə malik olmaması, əmtəə və ya xidmətin təyinatını bildirməsi,
- nişanın coğrafi mənşəyi ilə əlaqədar istehlakçıları yanıltması.

Ekspertizası aparılmış _**78** sənaye nümunəsindən _**64**_ sənaye nümunəsi barədə müsbət və _**2**_sənaye nümunəsi barədə imtina qərarı verilmişdir.

**Ekspertiza Mərkəzinin Müşahidə Şurası tərəfindən baxılmış rəy (qərarlar) barədə məlumat.**

1) 2019-ci il ərzində **Ekspertiza Mərkəzinin** Müşahidə Şurasına müzakirəyə çıxarılan **1721** milli əmtəə nişanının qeydiyyata alınması barədə ekspert rəyi (qərarı) məqsədəuyğun hesab edilmişdir. **78** əmtəə nişanı barədə ekspert rəyi (qərarı) isə məqsədəuyğun sayılmamışdır.

2) Hesabat ilində beynəlxalq əmtəə nişanları ilə bağlı **Ekspertiza Mərkəzinin** Müşahidə Şurasında 184 qərar müzakirə edilmiş (145 imtina, 39 müəyyən elememntlərə hüquqi mühafizə verilməməsi ilə bağlı) onlardan 2 imtina və 1 nişanın tərkibində olan müəyyən sözlərin mühafizədən çıxarılması şərtilə qeydiyyata alınması barədə ekspert rəyi (qərarı) məqsədəuyğun sayılmamış, 181 rəy (qərar) isə təsdiq olunmuşdur.

3) Ekspertiza Mərkəzinin Müşahidə Şurasına çıxarılan Milli sənaye nümunələrinə aid **64** iddia sənədi müzakirəyə çıxarılmışdır. Onlardan **2** sənaye nümunəsi barədə patent verilməsindən imtina haqqında qərar, **62** milli sənaye nümunəsi barəsində məlumatın dərci haqqında müsbət qərar qəbul olunmuşdur. **1** Beynəlxalq sənaye nümunəsi barəsində isə imtina haqqında qərar qəbul olunmuşdur.

**Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2019-cu il ərzində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində normativ-hüquqi və informasiya bazasının təkmilləşdirilməsi, qüvvədə olan mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq, sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin verilməsi, dublikatların verilməsi, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmişdir.

Sənaye mülkiyyəti sahəsində müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrdən və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, beynəlxalq təşkilatların əqli mülkiyyət üzrə sorğularının cavablandırması, onlarla təcrübə mübadiləsinin aparılması, beynəlxalq təşkilatlarla birgə tədbirlərin keçirilməsi və s. işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası ilə beynəlxalq təşkilatlardan Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avropa Patent İdarəsi, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent struktrurları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

Carı ildə Əqli Mülkiyyət Agentliyinə ixtira, faydalı model və sənaye nümunələrinə dair **4248 ədəd** məktub daxil olmuşdur.

2019-ci il ərzində müvafiq Dövlət reyestrində ixtiralara dair **102 ədəd patent** qeydiyyata alınıb, onlardan **90 ədədi milli**, **12 ədədi isə xarici hüquqi şəxslərə** məxsus olmuşdur.




Cədvəllərdə və diaqramlarda 2019-cu ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

## İXTİRALAR

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2019 | |
| | | milli | xarici |
| A | İnsanın həyarı tələbatların təmin edilməsi | 12 | 1 |
| B | Müxtəlif texnoloji proseslər | 12 | - |
| C | Kimya və metallurgiya | 37 | 2 |
| D | Toxuma mallar və kağız | 4 | - |
| E | Tikinti, mədən işləri | 8 | 6 |
| F | Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və döyuş sürsatı, partlama işləri | 4 | 1 |
| G | Fizika | 11 | 1 |
| H | Elektrik | 2 | 1 |
| **Cəmi** | | **90** | **12** |

| Ölkələr | Ölkən kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2019 |
| Azərbaycan Respublikası | AZ | 90 |
| Türkiyə | TR | 2 |
| Almaniya | DE | 1 |
| ABŞ | US | 7 |
| Fransa | FR | 1 |
| İsveçrə | CH | 1 |
| Cəmi | | 102 |

**Faydalı modellərə dair** 16 ədəd patent qeydiyyata alınıb, onlardan 12 ədədi milli, 4 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəl və diaqramda 2019-cu ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.

## FAYDALI MODELLƏR




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2019 | |
| | milli | xarici |
| A | 3 | 1 |
| B | 3 | - |
| E | 3 | 1 |
| F | 3 | - |
| G | - | 1 |
| H | - | 1 |
| **Cəmi** | **12** | **4** |

**Sənaye nümunələrinə dair** 32 ədəd patent qeydiyyata alınıb, onlardan 21 ədədi milli, 11 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəllərdə və diaqramda 2019-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

## SƏNAYE NÜMUNƏLƏRİ




| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|
| | 2019 |
| 01 | 1 |
| 06 | 4 |
| 07 | 1 |
| 09 | 3 |
| 11 | 1 |

| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2019 |
| Azərbaycan Respublikası | AZ | 21 |
| Türkiyə | TR | 1 |
| Rusiya Federasiyası | RU | 2 |
| Çin | CN | 6 |
| Böyük Britaniya | GB | 1 |
| ABŞ | US | 1 |
| Cəmi | | 32 |

| | |
|---|---|
| 12 | **6** |
| 14 | **1** |
| 17 | **3** |
| 21 | **1** |
| 24 | **1** |
| 25 | **9** |
| 32 | **1** |
| **Cəmi** | **32** |

**ƏMTƏƏ NİŞANLARI .** Hesabat dövründə müvafiq Dövlət reyestrində **1114 ədəd əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan 642 ədədi milli, 472 ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur. 2019-cu ildə əmtəə nişanlarına dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.




| Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|
| | | 2019 |
| Birləşmiş Ərəb Əmirlikləri | AE | 21 |
| Avstriya | AT | 6 |
| Azərbaycan Respublikası | AZ | 642 |

| | | |
|---|---|---|
| Bosniya və Herseqovina | BA | 2 |
| Braziliya | BE | 1 |
| Bolqarıstan | BG | 2 |
| Baqam Adaları | BS | 1 |
| Kanada | CA | 8 |
| İsveçrə | CH | 33 |
| Çin | CN | 18 |
| Kipr | CY | 3 |
| Çexiya Respublikası | CZ | 1 |
| Almaniya | DE | 18 |
| Danimarka | DK | 1 |
| İspaniya | ES | 5 |
| Fransa | FR | 5 |
| Böyük Britaniya | GB | 56 |
| Gürcüstan | GE | 10 |
| Yunanıstan | GR | 4 |
| Xorvatiya | HK | 4 |
| İrlandiya | IE | 7 |
| İsrail | IL | 1 |
| Hindistan | IN | 19 |
| İtaliya | IT | 5 |
| Jersey | JE | 2 |
| İordaniya | JO | 1 |
| Yaponiya | JP | 15 |
| Koreya Respublikası | KR | 14 |
| Küveyt | KW | 1 |
| Kayman Adaları | KY | 4 |
| Livan | LB | 1 |
| Lixtenşteyn | LI | 1 |
| Şri-Lanka | LK | 1 |
| Litva | LT | 1 |
| Lüksemburq | LU | 1 |
| Makedoniya | MK | 2 |
| Makau | MO | 1 |
| Mavriki | MU | 3 |

| | | |
|---|---|---|
| Meksika | MX | 3 |
| Niderland | NL | 7 |
| Oman | OM | 2 |
| Polşa | PL | 3 |
| Qatar | QA | 4 |
| Rusiya Federasiyası | RU | 34 |
| Saudiyyə Ərəbistanı | SA | 1 |
| İsveç | SE | 1 |
| Sinqapur | SG | 1 |
| Tailand | TH | 2 |
| Türkiyə | TR | 19 |
| Tayvan | TW | 2 |
| Ukrayna | UA | 1 |
| Birləşmiş Krallıq | UK | 3 |
| ABŞ | US | 110 |
| Cəmi | | 1114 |




**Coğrafı göstəricilər** üzrə istifadə hüquqlarına dair 5 ədəd şəhadətnamə milli hüquqi şəxsin adına qeydiyyata alınıb.

**Patentlərin** qüvvədə olma müddətinin uzadılması barədə 399 ədəd, şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə 948 ədəd, əmtəə nişanlarına dair – 486 ədəd və patentlərə dair - 7 ədəd dəyişiklər edilməsi haqqında

bildiriş qeydiyyata alınmışdır, 22 ədəd dublikat, 76 ədəd çıxarış verilmişdir və 744 ədəd bildiriş və məktublar göndərilmişdir.

**Sənaye mülkiyyəti** obyektləri üzrə 86 ədəd müqavilə qeydiyyata alınmışdır. Onlardan 81 ədədi əmtəə nişanları üzrə hüquqların verilməsinə, 1 ədədi ixtira üzrə hüquqların verilməsinə; 1 ədədi iddia sənədi üzrə sənaye nümunəsinə dair hüquqların verilməsinə; 3 ədədi əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə aiddir.

Hesabat dövründə sənaye mülkiyyəti obyektlərinin hüquqi statusu və onlar haqqında sonrakı dəyişikliklər, müəlliflər, iddiaçılar və sahibləri haqqında, sənaye mülkiyyəti obyektlərinə dair hüquqların, onlardan istifadəyə dair lisenziya müqavilələrinin verilməsi və bu sahəyə dair digər reyestrə daxil edilmiş məlumatlar "Sənaye Mülkiyyəti" rəsmi bülletenində dərc edilməsi üçün göndərilməsi təmin olunmuşdur.

**5.2. Müəllif hüquqları obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi. 2019-cu il** il ərzində **387** müəllifin **834** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **834** Şəhadətnamə verilmişdir, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə müəlliflərin **32** müraciəti əsasında **32** əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **32** şəhadətnamə verilmişdir. Bununla yanaşı, hesabat ilində **3** müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2020-ci il 1 yanvar tarixinədək Agentlikdə bütövlükdə **12956** əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə 109 müəllifin 225 əsəri qeydiyyatdan keçirilmişdir.

1996-2019-cu illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)
(on-line qeydiyyat daxil olmaqla)




**6. Kreativ iqtisadiyyat.** Son illər ölkəmizdə kreativ sənaye sürətlə inkişaf etməkdədir. Hesabat dövründə müəllif hüququna əsaslanan kreativ sənayenin 2018-ci il üzrə milli iqtisadiyyat sahələrinə dair faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəllif hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən ediləndən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır. Əqli Mülkiyyət Agentliyində aparılan

təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Son 8 ildə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2018-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələr 8 il ərzində 2,0%-dən 2,9%-ə çatmışdır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir. 2018-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4096,3 mln. manat təşkil etmişdir.

| | | |
|---|---|---|
| Əsas müəllif hüququ industriyasının sahələri, istehsalları və digər bölmələri | – | 2359,8 mln. manat (2,9 %) |
| Qarşılıqlı asılılıq münasibətlərində olan sahələr | – | 611,2 mln. manat (0,8 %) |
| Müəllif hüququna qismən əsaslanan sahələr | – | 350,1 mln. manat (0,4 %) |
| İndustriyanın köməkçi sahələri | – | 775,2 mln. manat (1,0 %) |
| Cəmı: | | 4096,3 mln. manat (5,1 %) |

**Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı**




Hesabat ilində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2019-cu il 9 dekabr tarixində keçirilən “Kreativ Azərbaycan” portalının təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda nazirlər panelində Agentliyin nümayəndəsi “Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım” mövzusunda, çıxış etmiş, eyni adlı kitab nəşr olunub yayılmışdır.

## 7. Əqli mülkiyyət hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.

**7.1. Hüquqların təminatı.** Hesabat ilində əqli mülkiyyət hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması məsələləri diqqət mərkəzində saxlanılmış, ölkəmizdə piratçılığın səviyyəsinin azaldılması və plagiata qarşı mübarizənin gücləndirilməsi istiqamətlərində müvafiq dövlət qurumları ilə əlaqəli tədbirlər həyata keçirilmişdir.

Hüquqların təminatı və piratçılığa qarşı mübarizə tədbirləri çərçəvsində nəzarət markalarının tətbiqi prosesi davam etdirilmiş, nəzarət markalarının tətbiqi ilə bağlı bir sıra təşkilatların səlahiyyətli nümayəndələri, o cümlədən naşirlərlə görüşlər keçirilmiş, müvafiq izahatlar verilmiş, onların elektron poçt ünvanlarına qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sənədlər göndərilmişdir. Bununla yanaşı, hazırda CD və DVD sahəsində nəzarət markalarının tətbiqinə başlanılması istiqamətində iş davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin aidiyyəti üzrə icrası çərçivəsində əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı 14 iyun 2019-cu il tarixində Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının dəstəyi ilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanının icrasına dair **"Məhkəmə islahatları: məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu"** mövzusunda konfrans-təlim keçirilmişdir.

Tədbirdə əqli mülkiyyət sahəsində respublikada baş vermiş son institusional dəyişikliklər barədə məlumat verilmiş, ölkə başçısının bu sahəyə verdiyi diqqət və qayğı bir daha vurğulanmış, əqli mülkiyyət mübahisələri üzrə məhkəmə təcrübəsinin öyrənilməsinin əhəmiyyəti qeyd edilmiş, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanuna uyğun olaraq, əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar iddianı təmin etmək üçün məhkəmələr tərəfindən tətbiq olunmalı tədbirlərin (exparte), qəbul olunmuş məhkəmə aktlarının dərc olunmasının vacibliyi, eyni zamanda mübahisələrə vaxtında baxılmamasının vətəndaşların və sahibkarların dövlətin hüquqi müdafiə mexanizminə olan etimadına xələl gətirə biləcəyi hakimlərin diqqətinə çatdırılmışdır.

Bununla yanaşı, **2019-cu il 5-6 dekabr tarixlərində** Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nın birgə təşkilatçılığı ilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanının icrasına dair **"Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi"** mövzusunda beynəlxalq seminar keçirilmiş, tədbirdə dövlət başçısının ölkəmizdə apardığı islahatlar çərçivəsində məhkəmə sistemində aparılan islahatlar barədə danışılmış, eyni zamanda tədbirdə bu sahədə beynəlxalq aləmdə mövcud olan hüquqi mexanizmlərin təsirliliyi və tətbiqi, o cümlədən rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə sahəsində qabacıl Avropa ölkələrinin təcrübəsi barədə məlumat verilmişdir.

**Hüquqların təminatı ilə bağlı tədbirlər çərçivəsində** 21 iyun 2019-cu ildə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi arasında Dövlət Gömrük Komitəsində görüş keçirilmiş, tərkibində əqli mülkiyyət hüququ olan malların idxalı zamanı əqli mülkiyyət hüquqlarının qorunması sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdir.

25 may 2019-cu il tarixində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin və Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) rəhbərlikləri arasında görüş keçirilib. Görüş zamanı Agentliyin rəhbəri tərəfindən ölkəmizdə əqli mülkiyyət məsələlərinin prioritet istiqamətlər kmi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına daxil edilməsi və dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə əqli mülkiyyət sahəsində aparılan geniş instisuional islahatlar barədə məlumat verilmiş, ABŞ şirkətlərini təmsil edən qurumun biznes sektorunda da əqli mülkiyyət mədəniyyəti səviyyəsinin artırılması sahəsində Agentliklə əməkdaşlıq etmək səyləri yüksək qiymətləndirilmişdir.

Görüşdə həmçinin gələcək əməkdaşlıq perspektivləri, o cümlədən Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində AmCham-ın

nümayəndələri üçün Agentliyin maddi-texniki və məlumat bazalarından istifadə etməklə təlimlərin təşkil olunması, birgə tədbirlərin keçirilməsi və sair məsələlər müzakirə predmeti olmuşdur.

Əqli mülkiyyət hüquqlarının təminatı məsələsi Azərbaycan-ABŞ Hökümətlərarası Komissiyasının Bakıda keçirilmiş sonuncu 4-cü iclasının gündəliyində yer almış, bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə 04 iyun 2019-cu il tarixində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin iqtisadi şöbəsinin müdiri, iqtisadi məsələlər üzrə müşaviri cənab Castin Berqin iştirakı ilə görüş keçirilib. Görüşdə paralel idxal, kontrafakt malların idxalı, Azərbaycan və ABŞ arasında əqli mülkiyyət hüquqlarının qorunması sahəsində əməkdaşlıq, o cümlədən gələcək əməkdaşlıq perspektivləri ətrafında da fikir mübadiləsi aparılmışdır. ABŞ səfirliyinin nümayəndələri Əqli Mülkiyyət Agentliyi ilə gələcəkdə daha yaxından əməkdaşlıq edəcəklərini bildirmişlər.

**Pozulmuş müəlliflik hüquqlarının bərpa edilməsi üçün edilən müraciətlər əsasında** 2019-cu il ərzində hüquqi və fiziki şəxslər tərəfindən 10 müraciət daxil olmuşdur. Həmin müraciətlər müəllif-hüquq qanunvericiliyinin tələbləri baxımından təhlil edilmişdir. Bir neçə müraciətlə bağlı digər müvafiq dövlət və digər qurumlara sorğular göndərilmişdir. Yerdə qalan digər müraciətlər isə Agentliyin mütəxəssislərinin köməyi ilə öz müsbət həllini tapmışdır.

**Plagiata qarşı mübarizə tədbirləri də diqqət mərkəzində saxlanmış,** bu çərçivədə Agentlik tərəfindən Azərbaycanda anti-plagiat informasiya sistemlərinin geniş istifadəsi və inkişafı istiqamətində müvafiq işlər görülmüş, bununla əlaqədar keçirilmiş tədbirlərdə müəllif-hüquq qanunvericiliyi nöqteyi-nəzərindən milli anti-plagiat elektron informasiya sisteminin ümumi prinsipləri və tələbləri izah edilmişdir.

**Kompüter piratçılığına qarşı mübarizə** tədbirləri çərçivəsində proqram təminatı sahəsində "Microsoft" şirkəti ilə əməkdaşlıq davam etdirilmiş, Şirkətin rəhbərliyi və nümayəndələri, həmçinin proqram təminatı sahəsində piratçılığa qarşı mübarizə üzrə əməkdaşlığın koordinasiya edilməsi üçün yaradılmış Agentliyin və "Microsoft Azərbaycan" şirkətinin nümayəndələrindən ibarət İşçi qrup üzvlərinin bir neçə işçi görüşü keçirilmiş, əməkdaşlıq məsələləri müzakirə edilmiş, son illər Azərbaycan hökumətinin kompüter piratçılığına qarşı mübarizə çərçivəsində, o cümlədən lisenziyalı proqram təminatına tam keçidlə bağlı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə kompüter piratçılığın səviyyəsinin xeyli aşağı düşdüyü vurğulanmış, Agentliklə "Microsoft" şirkəti arasında uzun illər mövcud olan faydalı əməkdaşlığın kompüter piratçılığı sahəsində bir sıra problemli məsələlərin həllində uğurlu nəticələr verdiyi qeyd olunmuş, tərəflər bu sahədə  əməkdaşlığın daha da dərinləşməsində və proqram təminatı ilə bağlı məsələlərin həllində qarşılıqlı kömək göstərilməsində maraqlı olduqlarını bildirmişlər.

Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi "Oracle" şirkətnin regional rəhbəri ilə telefon əlaqəsi yaratmış və eləcədə yerli nümayəndələri arasında görüş keçirilmişdir. Görüşdə "Oracle" şirkətinə məxsus proqram təminatlarından qeyri-qanuni istifadə edilməsi müzakirə edilmiş və bu halların aradan qaldırılması, yəni lisenziyalı proqram təminatından istifadənin geniş təşviq edilməsi istiqamətində əməkdaşlığın daha da artırılması yolları müzakirə edilmişdir. Bununla yanaşı, "Trimble Tekla" şirkətinin rəhbərliyi ilə görüş keçirilmiş, əməkdaşlıq məsələləri müzakirə olunmuş, eyni zamanda şirkətin proqram təminatı üzrə məhsullarından bir sıra hallarda ölkəmizdə lisenziyasız istifadə olunması ilə bağlı qaldırdığı məsələ ilə əlaqədar, Agentliyin rəhbərliyi tərəfindən qanunvericiliyin tələbləri çərçivəsində müvafiq addımların atılacağı bildirilib.

Bununla yanaşı, Əqli Mülkiyyət Agenltiyi tərəfindən 2019-cu il ərzində “Retro Holding” MMC-yə məxsus “Retro” əmtəə nişanı, “Araz Supermarket” MMC-yə məxsus “MÖHTƏŞƏM 100 gün” əmtəə nişanı, ölkənin baş kulinarı Tahir Əmiraslanova məxsus “Xanədan” əmtəə nişanı, “Ferrari S.p.a.” şirkətinə məxsus “Ferrari” əmtəə nişanı, Puma şirkətinə məxsus “Puma” əmtəə nişanı, o cümlədən fərdi sahibkarlar tərəfindən daxil olan ərizələrə əsasən “Damla” və “Oligarch” əmtəə nişanlarından qanunsuz istifadə ilə bağlı öz səlahiyyətləri çərçivəsində tədbirlər görülmüş, hüquqpozuntusu törədən tərəflərə xəbərdarlıq məktubları göndərilmiş, tərəflərlə görüşlər keçirilmiş, onlara hüquq və vəzifələləri izah edilmiş və hüquq pozuntusu halları aradan qaldırılmışdır. Göstərilən sahibkarlıq subyektləri həyata keçirilən tədbirlərə görə yazılı və ya şifahi formada Agenliyə öz minnətdarlığını bildirmişlər.

Hesabat ili ərzində, Agentliyin 960 nömrəli “Qaynar xətt”i və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ərzində müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəlliflərin və digər hüquq sahiblərinin müəllif-hüquq məsələləri üzrə 1530-dən artıq müraciət və sorğusuna baxılmış və qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərilmiş, Agentliyin nümayəndələri əqli mülkiyyət obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 35 iş üzrə (onlardan 31-sənaye mülkiyyəti obyektləri, 4-ü isə müəllif hüquqları ilə bağlı) 90-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.




2019-cu ildə hüquqların təminatı və piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində və “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanuna uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində buraxılan kitablara, not yazılarına, dövri nəşrlərə, audiovizual əsərlərə və audio-videoyazılara müvafiq olaraq İSBN, İSMN, İSSN, İSAN, İSRC beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi ilə bağlı yaradılacaq Milli mərkəzlərin fəaliyyətini koordinasiya və təmin etmək məqsədi ilə işlər görülmüş, nəzarət markalarının tətbiqi davam etdirilmiş, müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırmaq 1734 ədəd nəzarət markası verilmiş, nəzarət markalarının verilməsi üçün 1 ali təhsil müəssisəsinin müraciəti isə baxılma mərhələsindədir. Ümumilikdə isə 24294 ədəd nəzarət markası verilmişdir.

Nəzarət markalarının tətbiqi ilə bağlı bir sıra təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşlər keçirilmiş, bununla bağlı müvafiq izahatlar verilmiş, onların elektron poçt ünvanlarına qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sənədlər göndərilmişdir. Bununla yanaşı, hazırda CD və DVD sahəsində də nəzarət markalarının tətbiqinə başlanılması istiqamətində iş aparılır.

Nəzarət markalarının tətbiqi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 iyun 2014-cü il tarixli 191 nömrəli Qərarı ilə təsdiq olunmuş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir.

Nəzarət markalarının tətbiqi, həmçinin piratçılığa qarşı mübarizə sahəsində müvafiq dövlət qurumları ilə birgə həyata keçirilən tədbirlər əqli mülkiyyət məhsulları bazarında piratçılığın səviyyəsinin aşağı salınmasına imkan vermişdir.

Görülən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **23%-ə**, audio-video məhsul bazarında 90%-dən 58**%-ə**, proqram təminatında 96%-dən **72%-ə** düşmüşdür.




2019-cu ilin yekunları üzrə Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası tərəfindən 135 işə (onlardan 110-u 2019-cu ildə daxil olmuş, 25-i isə əvvəlki dövrdən qalmış iş) baxılmışdır. İşlərə baxılması vəziyyəti barədə statistik məlumat aşağıdakı cədvəldə əksini tapmışdır.

<table>
<tr><td>2019-cu il ərzində daxil olmuş müraciətlərin sayı</td><td colspan="3">Hesabat ilində baxılmış işlərin sayı (ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla)</td></tr>
<tr><td rowspan="6">110</td><td rowspan="6">135</td><td>ərizənin təmin edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>52</td></tr>
<tr><td>ərizənin qismən təmin edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>26</td></tr>
<tr><td rowspan="3">Ərizənin rədd edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>43 (əmtəə nişanına dair)</td></tr>
<tr><td>1 (ixtiraya dair)</td></tr>
<tr><td>1 (sənaye nümunəsinə dair)</td></tr>
<tr><td>ərizənin baxılmamış saxlanması haqqında qərar qəbul edilmişdir (ərizə geri götürülmüşdür)</td><td>12</td></tr>
</table>

**7.2. Maarifləndirmə tədbirləri.** Hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə keçirilmiş 15-ə yaxın tədbir təşkil edilmiş, KİV-lərdə 350-dən artıq informasiya, maarfləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında 35-dən çox veriliş və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, xarici ölkələri və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən əqli mülkiyyət məsələlərinə dair **90**-a yaxın prezentasiya və çıxışlar edilmiş, həmçinin Agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə 15-ə yaxın təqdimatla çıxış etmişlər.

Maarifləndirmə tədbirləri çərçivəsində 26 aprel 2019-cu il tarixində 26 aprel - "Beynəlxalq Əqli Mülkiyyət Günü"nə həsr olunan "**Əqli mülkiyyət və idman**" mövzusunda seminar keçirilmiş, maarifləndirici materialların nəşri və əhali arasında paylanması istiqmətində fəaliyyət davam etdirilmiş, ümumilikdə **2019-cu il ərzində 1630 nüsxədən çox kitab, kitabça və broşuralar buraxılmış,** çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə beynəlxalq konvensiya, müqavilə və sazişlər, həmçinin milli qanunvericilik aktları, digər normativ aktlar üç dildə (Azərbaycan, rus və ingilis dillərində) təkrar nəşr edilərək, maraqlı tərəflər arasında yayılması, həmçinin tədbirlər zamanı Agentliyin nəşrlərindən ibarət xüsusi sərgilər təşkil edilmişdir.




Maarifləndirmə tədbirləri çərçivəsində 2019-cu il yanvarın 31-də Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Akademiyasının "Modul 1-4" təlim proqramları üzrə təhsil almış elm, təhsil, gömrük, bank və özəl sektoru təmsil edən təlimçi-məzunlarla görüş keçirilmişdir. Görüşün keçirilməsində məqsəd təlimçi-məzunların potensialından istifadə etmək, qeyd edilən proqram çərçivəsində təlimlərin davam etdirilməsinin məqsədəuyğunluğu barədə fikir mübadiləsi aparmaq olmuşdur.

Görüşdə tərkibində əqli mülkiyyət obyektləri saxlayan malların gömrük sərhədindən keçirilməsi zamanı tətbiq olunan prosedurlar, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatına dair iddia sənədlərinin verilməsində beynəlxalq təcrübənin öyrənilməsi, ali təhsil müəssisələrində əqli mülkiyyət fənninin tədrisi, qeydiyyatdan keçirilən ixtiraların və faydalı modellərin tətbiqinə, habelə ölkəmizdə françayzinqin genişləndirilməsinə dəstək göstərilməsinə dair maraqlı müzakirələr aparılmışdır.

Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rəhbərləri arasında görüş keçirilmiş, əməkdaşlıq məsələləri müzakirə olunmuş, görüşdə sahibkarların maarifləndirilməsi üçün Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində ikigünlük seminar keçirilməsi, Agentliyin mütəxəssislərinin sahibkarlar qarşısında çıxış etmələri və onları maraqlandıran məsələlər ətrafında müzakirələrin keçirilməsi barədə razılıq əldə olunmuşdur. Görüşün nəticəsi olaraq 10-11 iyun tarixlərində sahibkarlar üçün "Sənaye mülkiyyəti obyektlərindən istifadənin hüquqi tənzimlənməsi" mövzusunda ödənişsiz təlim kursları təşkil edilmişdir. Təlim kurslarında özəl sektoru təmsil edən 50 nəfərədək dinləyici iştirak etmişdir. İki gün davam edən təlimdə mütəxəssislər aşağıdakı mövzularda məruzələrlə çıxış etmiş və iştirakçıların çoxsaylı suallarını cavablandırmışlar:

- "Əqli Mülkiyyət hüquqlarının təminatında məhkəmə praktikası";
- "Sənaye mülkiyyəti obyektlərinin mühafizəsinin hüquqi təminatı";
- "Milli qanunvericiliyə uyğun olaraq əmtəə nişanlarının qeydiyyatı üçün iddia sənədlərinin ekspertizası, qeydiyyat haqqında qərarın qəbulu, iddia sənədi barədə məlumatların dərci və qeydiyyatın qüvvədə olma müddəti";
- "Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı. Madrid sazişi";
- "Sənaye nümunələrinin hüquqi mühafizəsi və sənaye nümunələrinin beynəlxalq təsnifatı. Lokarno sazişi";
- "Coğrafi göstəricilərin hüquqi mühafizəsi: milli və beynəlxalq qanunvericiliyin tətbiqi".

Tədbirin yekununda təlim iştirakçılarına Əqli Mülkiyyət Agentliyinin sertifikatları verilmişdir.

2019-cu ildə "Patent könüllüləri" layihəsi həyata keçirilirmiş, layihənin məqsədi könüllülərin patent sahəsində təcrübə qazanması, ixtira, faydalı model, əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstəricilərin ekspertizası və qeydiyyatı barədə məlumat əldə etməsi, bu sahədə beynəlxalq təcrübəni öyrənilməsi, həmçinin onların kollektivdə işləmək bacarığına yiyələnmələrinə şəraitin yaradılmasından ibarət olmuşdur.

Layihədə 41 nəfər könüllü qeydiyyatdan keçmiş, onların sırasında hüquqşünaslıq, dizayn, xarici dillər, fizika, mexanika, texniki elmlər, kimya, biologiya, tibbin müxtəlif istiqamətləri və aqrar sahələr üzrə təhsil alan tələbələr, habelə həmin ixtisaslar üzrə elmi-tədqiqat işi aparan yaşı 35-dək olan aspirantlar, dissertantlar olmuşdur. Hazırda layihə iştrakçılarının bir qismi könüllü kimi Mərkəzdə uğurla fəaliyyət göstərir.

Ənənəvi olaraq "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və "Beynəlxalq Əqli Mülkiyyət Günü" 2019-cu ildə də ölkəmizdə təntənəli şəkildə qeyd olunmuşdur. Bununla əlaqədar,Tədbirlər planı təsdiq edilmiş, ÜƏMT-nin baş direktoru Frensis Qarrinin və YUNESKO-nun Baş direktoru Odri Azulenin bu əlamətdar günlər münasibəti ilə ənənəvi müraciətləri Azərbaycan dilinə tərcümə olunaraq yayılmış, bu çərçivədə silsilə tədbirlər təşkil edilmişdir. Builki tədbirlər coğrafiyası daha da genişlənmiş, respublikamızın bir sıra şəhər və rayonlarını əhatə etmiş, tədbirlərə qoşulan təşkilatların sayı artmışdır. **"Beynəlxalq Əqli Mülkiyyət Günü"**nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Əqli Mülkiyyət Agentliyinin təçkilatçılığı ilə 26 aprel 2019-cu il tarixində **"Əqli mülkiyyət və idman" mövzusunda seminar** keçirilmişdir. Hər il aprelin 26-da keçirilən belə tədbirlər fərqli mövzulara həsr olunur və ÜƏMT-nın "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibəti ilə açıqlamasına əsasən, 2019-cu ildə keçirilən tədbirlərin əsas mövzusu "Əqli mülkiyyət və idman"a həsr olunmuşdur və məqsədi əqli mülkiyyətin idmanın inkişafına təsirinin göstərilməsinə, eyni zamanda əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafında oynadığı rol barədə danışmaq imkanı yaratmağa xidmət etməkdir.

Qeyd olunan seminar “Beynəlxalq Əqli Mülkiyyət Günü”nün **“Qızıl uğrunda”** devizi altında keçirilmiş və bu deviz altında keçirilən bütün tədbirlər ÜƏMT-nın müraciətində qeyd olunduğu kimi, **“minilliklər boyu idman insanlarda doğurduğu heyranlıqla yanaşı, öz qüvvəsini sınamaq səylərinə, yarışların cəlbediciliyinin artmasına və insanları daha yüksək nəticələr əldə etməyə ruhlandırmağa xidmət edir”**.

Tədbirdə Azərbaycanda keçirilən bir sıra dünya əhəmiyyətli idman yarışları barədə məlumat verilmiş və həmin yarışların əqli mülkiyyətlə sıx bağlı olduğu, Agentliyə rəsmi müraciətlər əsasında yarışlar zamanı istifadə olunan əsərlər və tərkibində əqli mülkiyyət olan məhsulların hüquq sahibləri ilə təşkilatçılar arasında münasibətlərin tənzimlənməsində, bununla bağlı lisenziya sazişlərinin bağlanmasında ortaya çıxan məsələlərin həllində köməklik göstərildiyi bildirilmişdir.

Qeyd olunmuşdur ki, ÜƏMT builki müraciətində hamını idmanın ruhlandırıcı və canlandırıcı imkanlarını birgə qeyd etməyə, yeni innovasiya fəaliyyətləri yaratmağa və insanları yeni yüksəkliklər əldə etmək üçün birləşməyə, dünya idmanında bizi daha çox heyrətləndirən innovasiyalar haqqında danışmağa və idmanın gələcəyi ilə bağlı baxışlarımızı birgə bölüşməyə çağırmışdır və tədbir iştirakçıları da bu çağırışa qoşulmağa dəvət olunmuşdur.

Əqli Mülkiyyət Agentliyi hesabat ilində öz fəaliyyətində qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirmişdir. Xüsusən müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərin, o cümlədən “Azərbaycan Kinorejissorlar Gildiyası” İctimai Birliyinin və “Azərbaycan Müəllifləri” İctimai Birliyinin nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirilir, fəaliyyətlərində şəffaflıq prinsiplərinə əməl etmələri tələb olunur, onların verdiyi təkliflər nəzərdən keçirilir, qarşılaşdıqları problemlərin aradan qaldırılması və qaldırdıqları məsələlərin həlli istiqamətində Agentliyin səlahiyyətləri çərçivəsində tədbirlər görülür. Agentliyin nümayəndələri qeyri-hökumət təşkilatlarının keçirdikləri müxtəlif formatlı tədbirlərdə iştirak etmiş, onların qaldırdıqları məsələlərinin həllində səlahiyyətləri çərçivəsində köməklik göstərmişlər.

## 8. Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə.

Hesabat dövründə Azərbycan xalqının zəngin adət və ənənələrinin təbliği, xalqımızın folklor nümunələrinin və ənənəvi biliklərinin hüquqi qorunması, xüsusən erməniçilik tərəfindən mədəni irsimizin mənimsənilməsi və saxtalaşdırılması cəhdlərinin qarşısının alınması və belə əməllərin ifşa edilməsi istiqamətlərində geniş iş aparılmışdır.

Bu çərçivədə ənənəvi olaraq hər il erməni plagiatının ifşa edilməsinə həsr olunan tədbirlərin davamı olaraq 2019-cu il 19 aprel tarixində “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü”nə həsr olunan “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlığını və uydurmalarını ifşa edir” mövzusunda konfrans keçirilmiş, ermənilərin mədəni irsimizə və maddi və qeyri-maddi irs nümunələrimizə iddiaları növbəti dəfə təkzibedilməz elmi və tarixi faktlarla ifşa edilmişdir. Tədbir KİV-lər vasitəsi ilə işıqlandırılmış, geniş rezonans doğurmuşdur.

Bununla yanaşı, Rusiyalı müğənni Avraam Russonun ifa etdiyi “Kamança” mahnının Üzeyir Hacıbəyovun 1918-ci ildə Əhməd Cavadın sözlərinə bəstəldiyi “Çırpınırdı, Qara Dəniz” mahnısından plagiat edildiyi, həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyasının bir hissəsinin erməni bəstəkarı A. Babacanyan tərəfindən oğurlanaraq “Vaqarşabat rəqsi” kimi təqdim edilməsi faktları araşdırılmış, bununla bağlı elmi arayış hazırlanaraq yayılmışdır.

Ümumiyyətlə, Azərbaycanın mədəni irsinin, o cümlədən xalq mahnılarımızın, rəqslərimizin, bəstəkarlarımızın əsərlərinin ermənilər tərəfindən oğurlanması faktları, o

cümlədən yuxarıda göstərilən faktlar barədə Əqli Mülkiyyət Agentliyi tərəfindən ÜƏMT-yə bir sıra etiraz müraciətləri göndərilmişdir.

Hesabat ilində erməni saxtakarlıqlarını ifşa edən kitabların hazırlanmasına və nəşr edilərək yayılmasına xüsusi diqqət yetirilmiş, erməni saxtakarlıqlarını ifşa edən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri" və "Кавказская Албания и генетический анализ в историко-географическом аспекте" adlı kitablar hazırlanmış və nəşr edilmiş, bununla yanaşı, "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Об азербайджанской модели мультикультурализма (на основе данных об идентичности)", "Заметки о мультикультурализме", "Армянский геноцид" или армянский террор?", "Моральный террор: против нематериального и материального культурного наследия", "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ", "Fövqəladə hallar və əqli mülkiyyət hüquqları ilə qorunan mədəni dəyərlər" (Azərbaycan və ingilis dillərində) və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək il ərzində Agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

Hesabat ilində erməni saxtakarlıqlarının ifşa edilməsi istiqamətində fəaliyyət daim diqqət mərkəzində saxlanmış, erməni saxtakarlıqlarını ifşa edən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri" və "Кавказская Албания и генетический анализ в историко-географическом аспекте" (rus dilində) adlı kitablar hazırlanmış və nəşr edilmiş, bununla yanaşı, "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Об азербайджанской модели мультикультурализма (на основе данных об идентичности)", "Заметки о мультикультурализме", "Армянский геноцид" или армянский террор?", **"**Моральный террор: против нематериального и материального культурного наследия**",** "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ", "Fövqəladə hallar və əqli mülkiyyət hüquqları ilə qorunan mədəni dəyərlər" (Azərbaycan və ingilis dillərində) və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək il ərzində Agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

Ümumiyyətlə, hesabat ilində erməni plagiatına qarşı mübarizə məsələsi diqqətdə saxlanmış, hər bir fakt üzrə əsaslandırılmış cavab tədbirləri görülmüşdür.

**9. Elektron xidmətlərin təşkili.** Hesabat ilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və "Elektron hökumət" portalına yeni xidmətlərin inteqrasiya edilməsi istiqamətində fəaliyyət davam etdirilmiş və hesabat ilində aşağıda qeyd olunan xidmətlər vasitəsi ilə əhaliyə elektron xidmətlər göstərilmişdir:

- Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin qəbulu;

- Lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu;

- Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- Apellyasiya şurasına etirazın (ərizənin) verilməsi;

- Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə nəzarət markasının verilməsi.

Bununla yanaşı, hazırda Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanasının göstərdiyi xidmətlərin bir hissəsinin Elektron Hökumət portalında fəaliyyət göstərməsi üzrə işlər aparılır və yaxın vaxtlarda bununla bağlı təkliflərin müvafiq qaydada təqdim edilməsi planlaşdırılır.

Hesabat ilində Agentliyin "Elektron xidmət" bölməsindən müəlliflik hüququ və əlaqəli hüquqlarla bağlı ümumi istifadənin sayı **11304** olmuş, bu sistem vasitəsi ilə **12** müəllifin **33** müraciəti əsasında **32** əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında şəhadətnamə verilmişdir.

"Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirləri çərçivəsində Agentliyin göstərdiyi elektron xidmətlərdən yararlanan şəxslərin "Elektron hökumət" portalının imkanlarından istifadə etməsi üçün hesabat dövründə təbliğat və təşviqat işlərinə və maarifləndirmə tədbirlərinə geniş yer verilmiş, Agentliyin təşkilatçılığı və ya iştirakı ilə keçirilmiş konfrans, seminar və digər informativ tədbirlərdə bu barədə məlumat verilmiş, KİV-lərdə çoxsaylı informasiya və maarifləndirici material dərc olunmuşdur.

**10. Beynəlxalq əməkdaşlıq.** Hesabat ilində Agentlik özünün beynəlxalq əlaqələr sistemini genişləndirmiş və şaxələndirmişdir, o cümlədən yeni tərəf müqabilləri ilə əməkdaşlıq münasibətləri yaratmış, mövcud olan tərəfdaşları ilə əlaqələri daha da dərinləşdirmiş, sahə üzrə idarəetmə fəaliyyətini həyata keçirən beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Avrasiya Patent Təşkilatı (APT) ilə əlaqələrin möhkəmlənməsinə xüsusi diqqət yetirmişdir.

Agentlik beynəlxalq tərəfdaşları ilə birgə əqli mülkiyyət sahəsinin iki qolu olan müəlliflik hüququ və sənaye mülkiyyəti hüquqları sahələri və bu sahələrlə əlaqəli sahələr üzrə layihələrin həyata keçirilməsində iştirak etmiş, beynəlxalq və regional statuslu birgə tədbirər reallaşdırmış, müvafiq normativ-hüquqi bazanın genişləndirilməsi istiqamətində çoxtərəfli və ikitərəfli beynəlxalq sənədlərin qəbul olunmasını təşviq etmiş, həmçinin sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması məqsədilə onların beynəlxalq təcrübədən yararlanmasına, eləcədə özünün təcrübəsi ilə bölüşmək üçün ölkə hüdudlarından kənarda müxtəlif tədbirlərdə və təlim kurslarında iştirak etmək üçün imkan yaratmışdır.

Xüsusi diqqət ÜƏMT-nın Baş Assambleyası, Hökumətlərarası və Daimi Komitələri çərçivəsində keçirilən tədbirlərdə iştirakla Azərbaycanın mənafe və maraqlarının bu təşkilat çərçivəsində qəbul edilən beynəlxalq razılaşmalarda nəzərə alınmasına, həmçinin bu məqsədə xidmət edən ÜƏMT-nın strukturlarında layiqincə təmsil olunmaya verilmişdir.

Hesabat ili Azərbaycanın əqli mülkiyyət sistemi üçün bir sıra əlamətdar hadisələrlə zəngin olmuşdur. Belə ki, ÜƏMT-nin 2019-cu ildə keçirilən 59-cu sessiyası çərçivəsində keçirilən seçkilər zamanı ilk dəfə olaraq Agentliyin İdarə Heyətinin sədri

Kamran İmanov ÜƏMT-nın ən nüfuzlu Bern İttifaqı Assambleyasının sədri seçilmişdir. K.İmanovun namizədliyi bu vəzifəyə irəli sürülərkən bildirilmişdir ki, o, əqli mülkiyyət, xüsusən də müəlliflik hüququ sahəsinin tanınmış beynəlxalq ekspertidir və bu qismdə ÜƏMT-nın sənəd layihələrinin hazırlanması prosesinə zəruri dəstək verir. Vurğulanmışdır ki, K.İmanov milli səviyyədə təcrübəli rəhbər kimi tanınmış, əqli mülkiyyət sahəsi ilə bağlı Azərbaycanda keçirilən bir çox beynəlxalq tədbirlərin təşəbbüsçüsü olmuş və bu tədbirlərin yüksək səviyyədə keçirilməsini təmin etmişdir, eləcə də ÜƏMT-nın Müəlliflik hüququna dair Müqaviləsinin Assambleyasının sədri müavini vəzifəsində çalışarkən bu Assambleyanın sessiyalarının aparılmasında özünü məharətli, kompromis və konsesusa meylli spiker və moderator kimi təsdiq etmişdir. O da qeyd edilmişdir ki, K.İmanov əqli mülkiyyət sahəsinə dair bir çox elmi və metodik əsərlərin müəllifidir.

Qeyd etmək lazımdır ki, müəlliflik hüququ sahəsində ən nüfuzlu beynəlxalq müqavilə olan və idarəçiliyi ÜƏMT tərəfindən həyata keçirilən Bern Konvensiyası 1886-cı ildə qəbul edilib və onun rəhbər orqanı olan Bern İttifaqı Assambleyasında 177 ölkə təmsil olunur.

Ölkəmizin ÜƏMT-da mövqelərinin möhkəmlənməsinin digər göstəricisi bu təşkilatın fəaliyyətinin inzibati, maliyyə, o cümlədən büdcə xərclərinin müəyyən edilməsində xüsusi əhəmiyyəti olan, xüsusən də onun Baş Assambleyasının gündəliyinin, Konfransının proqram və büdcəsinin layihələrini hazırlayan və ən əsası, təşkilatın ən yüksək vəzifəli şəxsi - Baş direktorun seçilməsi üçün namizədi Baş Assambleyaya təqdim edən Koordinasiya Komitəsinə rotasiya qaydasında üzv seçilməsidir. Bu məsələnin müsbət həlli bütün sessiya boyu davam edən olduqca mürəkkəb danışıqlar, kompromislər və razılaşdırmalar nəticəsində əldə edilmişdir.

Nəhayət, Azərbaycan ÜƏMT-nın Proqram və Büdcə Komitəsinin üzvü seçilmişdir. Bu Komitənin üzvləri təşkilatın maliyyə xərclərinin audit və nəzarətini həyata keçirir, onun fəaliyyətinin nəticələrinin və maliyyə vəziyyətinin icmalını hazırlayır, büdcəsini planlaşdırır və tərtib edir.

Əhəmiyyətli olan nailiyyətlərdən biri isə Azərbaycanın ÜƏMT-nın Katibliyində təmsil olunması məsələsi olmuşdur. Bu barədə razılıq K.İmanovun təşkilatın Baş direktoru Frensis Qarri ilə görüşündə əldə edilmişdir və ölkəmizin nümayəndəsi artıq təşkilatda işə başlamışdır. Qeyd edilən görüş zamanı F.Qarri demişdir ki, əqli mülkiyət sistemi dəyişikliklər dövrünü yaşayır və Azərbaycanın bu dəyişikliklərə adekvat düzgün mövqeyi vardır. K.İmanov isə bildirmişdir ki, Azərbaycanın əqli mülkiyyət sisteminin möhkəmlənməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbüsü ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar sayəsində baş vermişdir.

ÜƏMT və Azərbaycan arasında əməkdaşlığın perspektivlərinin müzakirəsi zamanı K.İmanov ölkəmizin yaxın gələcəkdə ÜƏMT-nın idarəçiliyində olan daha bir müqaviləyə - Patent Hüququ Müqaviləsinə (PLT) qoşulmağı planlaşdırdığını və mövcud milli patent qanunvericiliyinin bütövlükdə təkmilləşdirilməsində maraqlı olduğunu, eləcə də ÜƏMT çərçivəsində süni intellektin tətbiqi məsələsi ilə bağlı əldə olunmuş müsbət təcrübədən ölkəmizin bəhrələnmək istəyini bildirmiş və bunun üçün birgə tədbirin keçirilməsini təklif etmişdir. F.Qarri K.İmanovun bu təklifini müsbət qarşılamışdır.

Digər mövzularla bərabər, müasir dövrün gündəliyinə təsiri ilə seçilən innovativ inkişafda süni intellekt məsələsi Əqli Mülkiyyət Agentliyinin nümayəndə heyətinin ÜƏMT-nin Keçid və inkiaf etmiş ölkələr departamentinin rəhbərliyi ilə görüşü zamanı da müzakirə predmeti olub. Agentliyin rəhbəri ÜƏMT ilə əməkdaşlığın perspektiv istiqaməti kimi bu fenomenin əqli mülkiyyət sahəsində praktiki tətbiqinin əhəmiyyətini xüsusi qeyd edərək, birgə fəaliyyətin qurulmasını təklif edib, həmçinin ölkəmizin ÜƏMT ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirib, əqli mülkiyyət sahəsinin ölkəmizin

iqtisadiyyatının inkişafına, xüsusən də investisiyaların cəlb olunması prosesinə, həmçinin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasına müsbət təsirlərini vurğulayıb, ölkəmizdə həyata keçirilən islahatların innovativ əsaslarını əks etdirən əqli mülkiyyət sahəsinin mühüm institusional və funksional dəyişikliklər barədə təfsilatlı məlumat verib.

Əqli Mülkiyyət Agentliyinin nümayəndə heyətinin sessiyada iştirakı zamanı ÜƏMT-nin struktur təsisatlarında ölkəmizin əqli mülkiyyət sahəsinin inkişaf etdirilməsi ilə əlaqədar digər görüşlər də keçirilmişdir.

O cümlədən, Agentliyin nümayəndə heyəti ÜƏMT-nın Əlçatan Kitablar Konsorsiumu (ƏKK) (Accessible Books Consortium) Katibliyində və ÜƏMT-nın İqtisadiyyat və Statistika bölməsində Azərbaycan üçün maraq kəsb edən məsələlər ilə əlaqədar müzakirələr aparmışdır. ƏƏK-da görüş nəticəsində Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının bu təsisatla əməkdaşlığın qurulması istiqamətində praktiki addımların həyata keçirilməsi barədə ilkin razılıq əldə edilib.

Qeyd edək ki, ödənişsiz əsaslarla fəaliyyət göstərən ƏƏK-nun fondu 76 dildə 544.000-dən çox adda kitabı rəqəmsal əlçatan formatda birləşdirir. Bu, görmə qüsuru olan insanlar üçün olduqca əhəmiyyətli bir bazadır.

ÜƏMT-nın İqtisadiyyat və Statistika bölməsində keçirilən görüşdə isə, o cümlədən beynəlxalq reytinqlərin qiymətləndirmə metodologiyalarının ziddiyyətli məqamları müzakirə edilib. Agentliyin nümayəndəsi, o cümlədən bildirmişdir ki, bəzən belə reytinqlərin hansı mənbələrə, meyarlara və göstəricilərə əsasən hazırlanması təəcüb doğurur. Buna misal olaraq o, hesabat ilində nəşr olunmuş “Qlobal İnnovasiya İndeksi – 2019” hesabatını qeyd etmiş və bildirmişdir ki, həmin hesabatda Azərbaycan ilə bağlı məlumatlar reallığı tam düzgün əks etdirməmiş, bəzi indekslərdə kəskin fərqlər olduğu açıq görünməkdədir. ÜƏMT-nın nümayəndəsi növbəti “Qlobal İnnovasiya İndeksi” hesabatının hazırlanmasında məlumatların dürust mənbələrdən əldə edilməsi üçün əməkdaşlığın vacib olduğunu bildirib. Görüşdə Azərbaycana dair məlumatların daha dürust və dəqiq verilməsi məqsədilə dəyirmi masanın təşkil olunması barədə ilkin razılığa gəlinib.“Qlobal İnnovasiya İndeksi” ÜƏMT, ABŞ-nın Kornell Universiteti və INSEAD Biznes Məktəbi tərəfindən hazırlanır və müxtəlif indikatorlar əsasında 130-a qədər ölkənin reytinqini müəyyən edir.

Baş Assambleyanın sessiyası çərçivəsində həmçinin ÜƏMT üzv dövlətlərində bu təşkilatın xarici ofislərinin (büroların) yaradılması məsələsi müzakirə edilmişdir. Azərbaycan Bakı şəhərində ÜƏMT-nın xarici ofisinin yerləşməsi ilə bağlı edilmiş əsaslandırmasına şərh vermiş və xarici ofislərin ölkələrində açılması ilə müraciət etmiş bütün maraqlı tərəfləri konsensusa dəvət etmişdir. Xarici ofisin açılması ölkəmizin əqli mülkiyyətə dair məsələlərin daha operativ həll edilməsində ÜƏMT-nın qlobal əqli mülkiyyət sistemlərində iştirakını gücləndirmək baxımından nəzərə çarpan üstünlüklər əldə etməsinə xidmət edəcəkdir.

Qeyd etmək lazımdır ki, ÜƏMT yaxın iki ildə 4 ölkədə xarici ofislərinin açılmasını planlaşdırır. Həmin ofislərin açılmasına iddialı 10 ölkə təşkilata müvafiq müraciət ünvanlamışlar. Bunlar, Azərbaycan, Türkiyə, İran, Hindistan, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Koreya Respublikası, Rumıniya və Kolumbiyadır.

ÜƏMT-nin Keçid və inkiaf etmiş ölkələr departamentində keçirilən görüşdə təşkilatın nümayəndəsi tərəfindən Azərbaycanın beynəlxalq əqli mülkiyyət sistemində aparılan bütün müzakirələrdə yaxından iştirak etdyi qeyd edilmiş, ikitərəfli əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyi bildirilmişdir.

Görüş zamanı ÜƏMT-nın Baş direktoru F.Qarrinin 2018-ci ildə ölkəmizə səfəri çərçivəsində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu”nun icrası ilə bağlı həyata keçirilən tədbirlərin ölkəmizdə yüksək dəyərləndirildiyi qeyd edilmiş və bu sənədin icrası çərçivəsində 2020-ci ildə ÜƏMT ilə birgə əməkdaşlıqda 3 beynəlxalq tədbirin

keçirilməsi barədə razılıq əldə edilmişdir. Tədbirlərin mövzuları və keçirilmə formaları belə müəyyən edilmişdir: "Əqli mülkiyyət və innovasiyalı iqtisadiyyat: kreativ sənayenin iqtisadiyyatın inkişafında rolu" adlı milli seminar, "Əqli mülkiyyət və süni intellekt: ziddiyyətlər və perspektivlər" adlı subregional seminar və "Patent qanunvericiliyinin təkmilləşdirilməsi: müasir tendensiyalar" adlı milli seminar.

Agentliyin nümayəndə heyəti həmcinin sessiya çərçivəsində Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitənin təqdim edilmiş hesabatının müzakirəsindən sonra, bu Komitənin mandatının 2019-2021-ci illər üçün iki illik müddətə uzadılması təklifini dəstəkləmişdir. Agentliyin nümayəndəsi Komitənin sessiyalarında tərəflər üzərinə öhdəliklər qoyan hüquqi akt layihələrinin müzakirələrinin başa çatdırılması və müvafiq Diplomatik konfransda onların qəbul edilməsi naminə üzv dövlətləri siyasi iradə, qeyri-trivial yanaşmalar və konstruktivlik ruhu nümayiş etməyə səsləmişdir. Bu sənədlərin qəbul edilməsi zəngin ənənəvi bilik və ənənəvi mədəniyyət ifadələrinə (folklor nümunələrinə) malik xalqımızın mədəni irsinin bu parçasının beynəlxalq səviyyədə daha etibarlı qorunmasına dəstək ola bilərdi.

Qeyd edək ki**,** 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. ÜƏMT ölkələri arasında ilk sahəvi milli qanun olan bu sənəd Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Baş Assamleya çərçivəsində Azərbaycan nümayəndə heyəti tərəfdaş ölkələrin nümayəndələri ilə bir neçə ikitərəfli görüşlər keçirmiş, bu görüşlərdə ikitərəfli əlaqələrin perspektivləri, onların daha da dərinləşdirilməsi, əməkdaşlıq haqqında razılaşmaların qəbul edilməsi məsələləri müzakirə edilmişdir. Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Ukrayna tərəflərilə əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı faydalı fikir mübadiləsi aparılmışdır.

Ənənəvi olaraq ÜƏMT bölmələri ilə fəal əməkdaşlığı davam etdirən Agentlik 2019-ci ildə təşkilatın müxtəlif komitələrinin, o cümlədən Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Patent Hüququ üzrə Daimi Komitəsinin, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin, Proqram və Büdcə Komitəsinin sessiyalarında iştirak etmiş, bu tədbirlərdə müzakirə edilən beynəlxalq sənədlərdə ölkəmizin mövqeyinə uyğun təkliflər irəli sürmüş və əks olunmasına dair fəaliyyət göstərmişlər.

Hesabat ilində Agentliyin Avrasiya Patent Təşkilatı ilə əlaqələri daha intensiv xarakter almışdır.

Bu çərçivədə ilk olaraq Agentliyin İdarə Heyətinin sədri K.İmanovun rəhbərlik etdiyi nümayəndə heyətinin 9 sentyabr tarixində Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un imzalanmasına həsr olunan Diplomatik konfransda iştirakı qeyd edilməlidir. Adıçəkilən Konvensiyanın imzalanmasının 25-ci ildönümü günündə təşkil olunan konfrasda APT üzv-dövlətlərinin nümayəndə heyətləri, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının, Avropa İttifaqının Əqli Mülkiyyət İdarəsinin, Avropa Patent İdarəsinin nümayəndələri, həmçinin əqli mülkiyyət sahəsi üzrə beynəlxalq mütəxəssislər iştirak ediblər. Azərbaycan nümayəndəsi Diplomatik Konfransın sədr müavini seçilmişdir.

Konfransda "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un mətni və diplomatik konfransın yekun aktı qəbul edilib. Sonra nümayəndə heyətlərinin mövcud səlahiyyətlərinə uyğun olaraq Protokol Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Ermənistan nümayəndələri tərəfindən imzalanıb. Protokolu Azərbaycan Respublikası Prezidenti tərəfindən verilmiş müvafiq

səlahiyyətə əsasən Azərbaycan Respublikası Hökuməti adından Əqli Mülkiyyət Agentliyinin sədri K.İmanov imzalamışdır.

Konfrans iştirakçıları Protokolun potensialını Avrasiya patent sisteminin inkişafı baxımından yüksək qiymətləndiriblər və bunun əqli mülkiyyət sahəsində əməkdaşlığın yeni bir mərhələsi olacağına əminliklərini bildiriblər.

Konfransda çıxış edən K.İmanov 25 il ərzində APT-nın güclü regional təşkilata çevrildiyini, ixtiraçılar tərəfindən ona marağın hər il artdığını vurğulayıb və konfransın keçirildiyi günə Azərbaycan Respublikasının ərazisində 1304 Avrasiya patentinin qüvvədə olduğunu, 39 Azərbaycan patentinin isə APT-də qeydiyyata alındığını qeyd etmişdir.

"Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol" sənaye nümunəsi üçün vahid Avrasiya patenti əsasında sənaye nümunəsinin 8 üzv ölkə ərazisində qorunması məqsədi ilə qəbul edilmişdir. Protokol sənaye mülkiyyəti obyektlərinin Avrasiya mühafizəsi sisteminin genişləndirilməsini, onu imzalayan bütün dövlətlərin ərazisində qüvvədə olan vahid Avrasiya patenti əsasında sənaye nümunələrinin mühafizəsi üzrə dövlətlərarası sistemin yaradılmasını, həmin ölkələrin daxili bazarının inkişafını və ticarət və investisiya fəaliyyətinin inkişafı üçün onların ərazilərinin cəlbediciliyinin artırılmasını nəzərdə tutur.

Ümumilikdə Protokol Azərbaycan xalqının mədəni irsinin hər hansı formada sənaye nümunəsi kimi mənimsənilməsinin qarşısının alınmasına şərait yaradır. Həmçinin, vahid Avrasiya patenti əsasında qorunan sənaye nümunəsinin mühafizəsi ilə bağlı rüsum və ödənişlər ölkəyə daxil olan gəlirlərin həcminin artmasında müəyyən yer tutacaq. Eyni zamanda, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri vahid iddia sənədi əsasında və vahid orqana rüsum və ödənişlər etməklə 8 üzv ölkə ərazisində onlara məxsus sənaye nümunələrinin hüquqi mühafizəsinə və daha asan marketinqinə nail olacaqlar.

Qeyd etmək lazımdır ki, Diplomatik konfransın keçirildiyi günlər Azərbaycan tərəfi üçün əlamətdar hadisələrlə yadda qalmışdır. İlk dəfə olaraq "İnsan həyatının və sağlamlığının qorunması sahəsində" keçirilən ixtiraçılıq üzrə mötəbər yarışmada Azərbaycan milli patentinin müəllif kollektivi yüksək nəticə göstərərək qalib gəlmişdir. Bu qələbəyə görə mükafat Avrasiya Patent Təşkilatının qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri Elmi-Tədqiqat İnstitutunun nümayəndəsi Abbas Rzayevə K.İmanov tərəfindən təqdim edilmişdir.

Birinci yaş qrupu üzrə Azərbaycan məktəblilərinin əldə etdikləri nəticəni də xüsusi qeyd etmək lazımdır. Belə ki, "Gələcəyə baxış" Avrasiya Patent Universiadasının nəticələrinə görə birinci yaş kateqoriyası (10 yaşdan - 17 yaş daxil olmaqla) üzrə Təhsil Nazirliyinin tabeliyindəki Akademik Zərifə Əliyeva adına liseyin şagirdləri Cəmilə Əlizadə və Ələsgər Tarverdiyevin təqdim etdikləri "Su anbarlarının suyunun təmizlənməsi üçün bioplatonun tətbiqi" layihəsi birinci yerə layiq görülmüşdür. Universiadanın mükafatı tədbirdə iştirak edən C.Əlizadəyə və onun rəhbəri, liseyin biologiya müəllimi Natalya Qurbanovaya təqdim olunmuşdur.

Hesabat ilinin 10-11 sentyabr tarixlərində Nur-Sultan şəhərində APT İnzibati Şurasının 35-ci iclası keçirilib. Tədbirdə ölkəmizi Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin üzvü Sənan Tapdıqov təmsil edib.

İnzibati Şuranın toplantısının nəticələrinə əsasən, APT-nın 2018-ci il üçün illik hesabatı qəbul edilib, təşkilatın "Ehtiyat Fondunun formalaşdırılması və xərclənməsi Qaydaları"na dəyişiklik və əlavələr edilib, Avrasiya Patent İdarəsi (APİ) ilə Avropa İttifaqının Əqli Mülkiyyət İdarəsi arasında ikitərəfli əməkdaşlıq məsələləri haqqında Anlaşma Memorandumununun imzalanması razılaşdırılıb, "APT-da uzunmüddətli təcrübə keçmə haqqında Əsasnamə" təsdiqlənib. Əldə olunmuş razılaşmalar əsasında ölkəmizin nümayəndələri APİ-nin bazası əsasında daha çox təcrübə keçmə və ixtisasartırma kurslarında iştirak edəcək. Əsasnamə 2020-ci il 1 yanvar tarixindən qüvvədə olacaq.

Eyni zamanda, iclasda “Patent kooperasiyası haqqında» Müqavilə (PCT) çərçivəsində təşkilatın funksiyalarının genişləndirməsi məsələsi müzakirə edilərək Avrasiya Patent Konvensiyasının 20-ci maddəsinə əsasən, PCT-də nəzərdə tutulmuş prosedurlara uyğun olaraq APİ-nə beynəlxalq axtarış orqanı və beynəlxalq ilkin ekspertiza orqanı statusunun alınması üçün müraciət edilməsi səlahiyyəti verilib.

APT-lə əməkdaşlıq cərcivəsində Agentliyin əməkdaşları hesabat ilində bir neçə tədbirdə iştirak etmişlər, o cümlədən 28-30 aprel tarixlərində Nur-Sultan şəhərində keçirilmiş sənaye nümunələrinin hüquqi qorunması üzrə Avrasiya sisteminin yaradılması məsələsinə dair işçi qrupun iclasında, 23 iyul tarixində – yuxarıda qeyd edilən Diplomatik Konfransın hazırlıq Komitəsinin iclasında, 11-12 dekabr tarixlərində - Avropa İttifaqının əqli mülkiyyət şəbəkəsi çərçivəsində hazırlanmış alətlər (TWT) üzrə texniki seminarda.

ÜƏMT-nın 59-cu sessiyası çərçivəsində Agentliyin İdarə Heyətinin sədri K.İmanovun APT-nın prezidenti Saule Tlevlessova ilə görüşü keçirilmişdir. Görüşdə iki təşkilat arasında əməkdaşlığın perspektivləri, həmçinin ÜƏMT çərçivəsində birgə fəaliyyət imkanları müzakirə edilib.

Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sisteminin inkişafı ilə əlaqədar aparılan işlər çərçivəsində Agentliyin nümayəndələri həmçinin Avropa Komissiyası tərəfindən təqdim edilmiş “Bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı arasında Strateji Tərəfdaşlıq haqqında Saziş” (bundan sonra - Saziş) layihəsinin iqtisadi bloku üzrə İşçi qrupun üzvü qismində sənədin “Ticarət, sərmayə, enerji ticarəti məsələləri” hissəsinin “Əqli mülkiyyət” fəslinin müvafiq müddəalarının mətnlərinin razılaşdırılması prosesinə cəlb olunmuşlar. Bu çərçivədə Agentliyin nümayəndələri Avropa Komissiyasının aidiyyəti nümayəndələri ilə mütəmadi olaraq müxtəlif formatlı, o cümlədən video-konfranslar vasitəsi ilə aparılan müzakirələrdə, həmçinin danışıqlar zamanı Azərbaycan tərəfinin vahid mövqeyinin formalaşdırılması ilə bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən keçirilən iclaslarda iştirak etmişlər.

Avropa İttifaqı Komissiyası ilə birgə reallaşdırılan “Rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə olunması və qorunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin institusional potensialının gücləndirilməsi” tvinninq layihəsinin həyata keçirilməsi ilə işlər cari ildə də davam etdirilmiş, o cümlədən noyabr ayının 18-də Yunanıstanlı ekspert Pierrina Koriatopoulou, noyabrın 25-də isə İtaliyanın AGCOM təşkilatının əməkdaşı cənab Francesco Sciacchitano, Yunanıstanın Müəllif Hüquqları Təşkilatının hüquq şöbəsinin müdiri xanım Daphne Papadopoulou, Aİ-nın əqli mülkiyyət üzrə eksperti İoannis Kikkis ilə Agentlikdə görüş keçirilib.

Hesabat ilində əqli mülkiyyət hüquqlarının qorunmasına dair Avropa İttifaqı ilə əlaqələrin inkişafına xidmət edən daha bir addım bu birlik ölkələrinin ərazilərində mühafizə olunan 3358 adda coğrafi göstəricilərin siyahısının Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin “Sənaye Mülkiyyəti” rəsmi bülleteninin 2019-cu il 2-ci nömrəsində dərc edilməsidir.

Qeyd edilənlərlə yanaşı, hesabat ilində ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesi çərçivəsində ikitərəfli danışıqlarla əlaqədar Agentliyin nümayəndələri müqabil tərəflərin ünvanladığı çoxsaylı sualları cavablandırmaqla, bu prosesə də öz töhfələrini vermişlər.

Agentliyin beynəlxalq əlaqələrin inkişafı ilə əlaqədar fəaliyyətinin daha bir istiqaməti ikitərəfli və çoxtərəfli səviyyədə müxtəlif xarici dövlətlərin nümayəndələri ilə əqli mülkiyyət sahəsinə aid gündəmdə olan praktiki və nəzəri məsələlərin müzakirə edilməsidir. Hesabat ilində Agentliyin nümayəndələri bu istiqamətdə bir çox görüşlər keçirmiş və tədbirlərdə iştirak etmişlər.

2019-cu ilin 23-24 aprel tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunmuş “Rəqəmsal transformasiya: IP diqqət

mərkəzində” mövzusunda II beynəlxalq konfransda fəxri qonaq və spiker qismində iştirak edən Agentliyin İdarə Heyətinin sədri K.İmanov Rusiya Federasiyasının Əqli Mülkiyyət üzrə Federal Xidmətinin (Rospatent) rəhbəri Qriqori İvliyev və Avrasiya Patent İdarəsinin prezidenti Saule Tlevlesova ilə görüşlər keçirmişdir.

Bu görüşlər zamanı K.İmanov ölkəmizdə aparılan genişmiqyaslı islahatlar, əldə olunmuş nailiyyətlər, dünyanın nüfuzlu reytinq təşkilatları tərəfindən də qeyd olunan uğurlarımız barədə məlumat vermiş, əqli mülkiyyət sahəsində cənab Prezident İlham Əliyevin apardığı instisional islahatları xüsusilə vurğulamışdır.

Q.İvliyevlə görüş zamanı sonuncu Azərbaycanda əqli mülkiyyət sahəsində vahid orqanın yaradılmasını çox böyük nailiyyət adlandırmış, Rusiyada bu təcrübənin öyrənilməsinin çox önəmli olduğunu bildirmişdir.

Tərəflər iki qurum arasında imzalanması planlaşdırılan Anlaşma Memorandumu ətrafında fikir mübadiləsi aparmış, həmin sənədin əməkdaşlığın sonrakı inkişafı istiqamətdə mühüm rol oynayacağını qeyd etmişlər.

S.Tlevlesova ilə görüş zamanı isə o, Azərbaycan tərəfinə APİ-nin vitse-prezidenti vəzifəsinə namizədin irəli sürülməsinə görə təşəkkür etmiş, ölkəmizin nümayəndəsinin möhtəbər beynəlxalq təşkilatın rəhbərliyində iştirakının təşkilatın işinə öz tövhəsini verdiyini və Azərbaycanın təşkilatda fəal iştirakına dəlalət etdiyini bildirmişdir.

S.Tlevlesova həmçinin Azərbaycan təcrübəsinin region ölkələri tərəfindən qabaqcıl təcrübə olaraq öyrənilməli olduğunu qeyd etmiş, Azərbaycannın MDB məkanında Əqli Mülkiyyət Strategiyasını (müəllif hüquqları sahəsində) qəbul etmiş ilk ölkə olduğunu bildirmişdir. Belə ki, Qırğızıstan istisna olmaqla, digər MDB ölkələrində hələ də bu strategiyalar qəbul olunmayıb. Bu mənada o, Azərbaycanı əqli mülkiyyət sahəsində lider dövlət adlandırmışdır.

20 ölkədən 800 nəfərdən artıq nümayəndə iştirak edən beynəlxalq konfransın plenar iclasında məruzə ilə çıxış edən K.İmanov patent informasiyası sahəsində rəqəmli platformaların yaradılması üçün yeni konseptual yanaşmalar, elmi-texniki inkişaf strategiyalarının müəyyən edilməsində patent analitikasının tətbiqi, Big Data və süni intellekt, Agentlik tərəfindən süni intellektin ekspertizada istifadə olunması və sair məsələlər barədə geniş məlumat vermişdir.

Tədbirin sonunda Rusiyanın nüfuzlu KİV-ləri, o cümlədən televiziya kanalları üçün təşkil olunan mətbuat konfransında verilən sualların əksəriyyəti ölkəmizdə aparılan islahatlara, xüsusən instisional islahatlara, eyni zamanda konfransın mövzusu üzrə ölkəmizin təcrübəsinə aid olmuşdur. Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının rektoru İvan Bliznets Azərbaycanın Əqli Mülkiyyət Agentliyinin bütövlükdə əqli mülkiyyət sahəsi ilə bağlı fəal siyasət yürütdüyünü, ölkəmizin birincilər sırasında əqli mülkiyyət strategiyasını qəbul etdiyini vurğulamış, rəqəmsal dövrdə həm ixtira müəlliflərinin qorunmasına, həm də müəlliflik hüququnun digər obyektlərinin qorunmasına yönəlmiş səylərin bir idarədə cəmləşdirilməsinin çox vacib olduğunu bildirmişdir.

Hesabat dövründə bir sıra digər mühüm beynəlxalq görüşlər də baş tutmuş və əqli mülkiyyət sahəsinə aid məsələlər müzakirə edilmişdir. O cümlədən:

- 2019-cu il 30 yanvar - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Fransanın Lumiere Lion 2 Universitetinin hüquq fakültəsinin dekanı Giyoni Protyeri qəbul edib. Görüşdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı professor Əmir Əliyev də iştirak edib.

Görüş zamanı K.İmanov Bakı Dövlət Universiteti və Lion 2 Universiteti arasında əqli mülkiyyət hüququ üzrə birgə magistr proqramının təşkil olunmasını yüksək qiymətləndirmiş, iki təhsil müəssisəsi arasında həyata keçiriləcək bu layihənin Azərbaycan və Fransa arasında ikitərəfli əməkdaşlığa töhfə verəcəyinə əminliyini bildirib. G. Protyer təmsil etdiyi universitetin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri

arasında ilk dəfə məhz Azərbaycan ilə bu sahədə layihənin hazırlandığını diqqətə çatdırıb. O, Lion 2 Universitetinin əqli mülkiyyət sahəsində 15 illik təcrübəsini Bakı Dövlət Universiteti ilə bölüşmək, hər iki universitetin hüquq fakültələrinin magistratura pilləsində "Əqli mülkiyyət hüququ" sahəsində ikili diplom proqramı üzrə kadr hazırlığına başlamaq niyyətində olduqlarını qeyd edib. O, bu layihənin həyata keçirilməsində Agentliyin də yaxından iştirak etməsində maraqlı olduqlarını nəzərə çatdırıb;

- 2019-cu il 16 may - Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun Fransanın Türkiyədəki səfirliyinin kənd təsərrüfatı üzrə müşaviri cənab Fransua Vieli ilə görüşündə Azərbaycan və Fransa arasında coğrafi göstəricilərin qorunması məsələləri müzakirə olunub, tərəflərin qanunvericiliyinin uyğunlaşdırılması, təcrübə mübadiləsi üzrə gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüş əsnasında K.İmanov qeyd etmişdir ki, Fransa qanunvericilyindən fərqli olaraq, Azərbaycanda coğrafi göstəricilərin qorunması yalnız kənd təsərrüfatı mallarını deyil, qeyri kənd təsərrüfatı mallarını da əhatə edir. O, Naxçıvanın mineral suları, ermənilər tərəfindən özününküləşdirilməyə cəhd edilən kulinariya nümunələrimiz, o cümlədən UNESCO-nun Qeyri-mədəni irs siyahısına daxil edilmiş "dolma" və "kəlağayı", Abşeron yarımadasında "Zirə pomidoru" və "Zirə zeytunu", Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə olan "İsti su" kimi coğrafi göstəricilərin qorunmalı olduğunu diqqətə çatdırıb, 2018-ci ilin sentyabrında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Azərbaycanın zəngin mədəni irs nümunələrinin təbliğ edilməsi məqsədilə tədbir keçirildiyini xatırladıb.

- 2019-cu il 24 may - Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) Prezidenti Nuran Kərimovu qəbul edib, ABŞ şirkətlərini təmsil edən qurumun biznes sektorunda da əqli mülkiyyət mədəniyyəti səviyyəsinin artırılması sahəsində Agentliklə əməkdaşlıq etmək səylərini yüksək qiymətləndirib. AmCham tərəfindən hazırlanmış "White Paper" sənədində əqli mülkiyyətlə bağlı problemlərin əks olunmasını təqdirəlayiq addım hesab etdiyini vurğulayan K.İmanov belə sənədlərin hazırlanması zamanı Agentliklə daha sıx əməkdaşlıq edilməsinin səmərəli olacağını və ümumiyyətlə, ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunmasının Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyət kəsb etdiyini bildirib.

O, həmçinin görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə Azərbaycanda proqram təminatı sahəsində piratçılığın səviyyəsinin 96%-dən 74%-ə düşdüyünü və ölkəmizin hələ 2006-cı ildə əqli mülkiyyət hüquqlarının təminatı sahəsində irəliləyişlərə görə ABŞ-ın Ticarət Nümayəndəliyinin Xüsusi 301 Hesabatından çıxarıldığını vurğulayaraq, cari ilin mayın 17-də Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının 4-cü iclası zamanı da əqli mülkiyyət məsələlərinin müzakirə edilməsi haqqında məlumat verib.

Kamran İmanov "White Paper"-nin paralel idxal, kontrafakt malların idxalı, patent müvəkkillərinin hazırlanması ilə bağlı bölmələrində əqli mülkiyət məsələlərinə toxunulduğunu qeyd edərək Agentliyin əqli mülkiyyət hüquqlarının qorunması sahəsində digər dövlət qurumları ilə əməkdaşlıq etdiyini, o cümlədən Dövlət Gömrük Komitəsinə paralel idxal, o cümlədən ölkəyə idxal olunan kompüterlərin lisenziyalı proqram təminatları ilə təchiz olunaraq satışına icazə verilməsi ilə bağlı təkliflərin hazırlandığını, ABŞ-ın iri texnoloji şirkətləri ilə bu sahədə fəal əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu xüsusi vurğulayib, Agentlikdə rəqəmli hüquqların idarə olunması üzrə DRM sisteminin qurulması, eyni zamanda patent müvəkkillərinin hazırlanması ilə bağlı işçi qrupun yaradılması və yaxın zamanlarda patent müvəkkillərinin seçilməsi üzrə imtahanın keçirilməsinin nəzərdə tutulması barədə danışıb.

Görüşdə həmçinin Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində AmCham-ın nümayəndələri üçün Agentliyin maddi-texniki və məlumat bazalarından istifadə etməklə təlimlərin təşkil olunması, birgə tədbirlərin keçirilməsi və sair məsələlər müzakirə olunub.

- 2019-cu il 24 may - Agentlikdə Böyük Britaniyanın əqli mülkiyyət və texnologiyaların transferi üzrə eksperti Lisa Kovey ilə görüş keçirilib.

Agentliyinin İdarə Heyətinin üzvü Sənan Tapdıqov Agentliyin və Təhsil Nazirliyinin ÜƏMT ilə birgə həyata keçirdikləri "Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üzrə Milli Layihə" çərçivəsində görülən işlər, o cümlədən əqli mülkiyyətin kommersiyalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb, Agentliyin Aparatında Texnologiya transferi və kommersiyalaşmaya dəstək şöbəsinin yaradıldığını bildirib.

- 2019-cu il 30 may – Agentlikdə Təhsil Nazirliyinin əsas benefisiarı olduğu "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" Layihəsinin qısamüddətli eksperti cənab Cim Rayn ilə görüş keçirilib.

Agentliyin Texnologiya transferi və kommersiyalaşmaya dəstək şöbəsinin müdiri Aydın Hüseynov bir sıra ali təhsil müəssisələrində Texnologiyaların kommersiyalarşdırılması və transferi Mərkəzlərinin və Texnologiya və innovasiyalara dəstək Mərkəzlərinin yaradılması işlərinə başlanıldığını, bu sahədə maarifləndirmə işlərinin aparıldığını bildirib.

Görüşdə Agentlik və "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" Layihəsi arasında gələcək əməkdaşlıq imkanları da müzakirə edilib.

- 2019-cu il 3 iyun tarixində Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin iqtisadi şöbəsinin müdiri, iqtisadi məsələlər üzrə müşavir cənab Castin Berqi qəbul edib.

Görüş zamanı K.İmanov Dünya Bankının «Doing Business - 2019» hesabatında Azərbaycanın 10 ən islahatçı dövlətlər sırasında olduğunu və Dünya İqtisadi Forumunun Hesabatına görə, ölkəmizin əqli mülkiyyətin qorunması indeksi üzrə dünya üzrə 36-cı yerdə, MDB məkanında isə birinci yerdə olduğunu bildirib. O, əqli mülkiyyətin təyinatının investisiyaları cəlb etmək və innovasiyaların həyata keçirilməsi olmasını vurğulayıb, ölkəmizin əqli mülkiyyət hüquqlarının qorunması üzrə qanunvericiliyinin tam formalaşdığını, bu sahəyə aid 10 qanununun qəbul olunduğunu, əksər beynəlxalq konvensiyalarda iştirak etdiyini, əqli mülkiyyət sahəsinin prioritet istiqamət kimi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına daxil edilldiyini diqqətə çatdırıb.

Kamran İmanov əqli mülkiyyətin qorunma səviyyəsinin ilk növbədə hüquqların təminatı və qanunlara riayət olunması, müəlliflik hüququ üzrə piratçılığın miqyası, kreativ industriyanın trendi və səviyyəsi (ÜDM-də payı), sənaye mülkiyyəti üzrə isə ixtira və patent aktivliyi, o cümlədən şəffaflıq, asanlıq və yeni rəqəmli servislərdən istifadə vasitəsilə xidmət vaxtının azalması ilə ölçüldüyünü nəzərə çatdırıb.

Sədr bildirib ki, əqli mülkiyyət məsələləri Azərbaycan-ABŞ Hökümətlərarası Komissiyasının Bakıda keçirilmiş sonuncu 4-cü iclasının gündəliyində də yer almış və bu barədə iclas zamanı geniş müzakirələr aparılmışdır.

C. Berq əqli mülkiyyət məsələlərilə əlaqədar Azərbaycanın dövlət qurumları ilə müzakirələr aparıldığını qeyd edib. O, həmçinin görüş əsnasında aldığı məlumatların özündə əvvəlki dövrlərlə müqayisədə yeni təsəvvürlərin yaratdığını, Əqli Mülkiyyət Agentliyi ilə gələcəkdə daha da yaxından əməkdaşlıq edəcəklərini bildirib.

Görüşdə paralel idxal, kontrafakt malların idxalı, o cümlədən gələcək əməkdaşlıq perspektivləri ətrafında da fikir mübadiləsi aparılıb.

- 2019-cu il 04 iyun - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri K.İmanov BMT-nın Avropa üzrə iqtisadi Komissiyasının (UNECE) nümayəndələri - İqtisadi

əməkdaşlıq və ticarət şöbəsinin əməkdaşı Yakob Fekser və siyasi analitik Dmitri Plexanovu qəbul edib.

Görüş zamanı K.İmanov bildirmişdir ki, ölkə başçısı tərəfindən innovativ inkişafa yüksək diqqət yetirilir və bu baxımdan innovativ inkişafın ölkə üzrə koordinasiya olunması üçün Prezident Administrasiyasında xüsusi şöbə yaradılmışdır.

Y.Fekser UNECE tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində - Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada həyata keçirilən innovasiya siyasəti üzrə araşdırmanın aparılması barəsində məlumat verib. O, İsveç Beynəlxalq İnkişaf Əməkdaşlıq Agentliyinin (Sida) maliyyə dəstəyi ilə həyata keçirilən bu layihənin məqsədinin adıçəkilən ölkələrdə innovasiya sahəsində zəif və güclü tərəflərin üzə çıxarılması, innovasiya siyasəti, innovasiya institutları və innovasiya proseslərini yaxşılaşdırmaq və rəqabətqabiliyyətliliyin artırılması olduğunu bildirib, bu məqsədlə layihə çərçivəsində müəyyən sorğu anketləri əsasında araşdırmanın aparılacağını diqqətə çatdırıb, Azərbaycanda kreativ iqtisadiyyatın vəziyyəti, innovasiya siyasəti alətlərindən istifadə edilməsi ilə maraqlanıb.

Kamran İmanov qeyd edilən məsələlərə dair Azərbaycan tərəfinin həyata keçirdiyi işlər barədə ətraflı məlumat vermişdir.

Görüşdə patent aktivliyi, patent sahibləri üçün yaradılan şərait və sair məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

- 2019-cu il 10 iyul – Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Fransanın Türkiyədəki səfirliyinin kənd təsərrüfatı üzrə müşaviri cənab Fransua Viel və bu ölkənin Konyak Peşələrarası Milli Bürosunun (BNIC) hüquq departamentinin direktoru Eduard Dö Kervenoaeli qəbul edib.

E.Dö Kervenoael Bakı şəhəri haqqında ilk təəssüratlarından məmnun olduğunu bildirərək Fransanın Konyak şəhəri ilə Azərbaycanın Tovuz şəhəri arasında olan əlaqələr, Azərbaycan nümayəndə heyətinin Konyak şəhərinə səfərləri haqqında qısa məlumat verib. O, təmsil etdiyi BNIC təşkilatının əsas vəzifələrindən biri kimi dünya miqyasında “Konyak” coğrafi göstəricisinin qorunması olduğunu diqqətə çatdıraraq Azərbaycan və Avropa ittifaqı arasında coğrafi göstəricilərin qorunması sahəsində razılığın əldə olunmasından razı qaldıqlarını qeyd edib və bu sahədə Azərbaycanın şərab istehsalçılarına hüquqi və texniki yardımın göstərilməsinə hazır olduqlarını bildirib.

Kamran İmanov ölkəmizdə konyak istehsalının 200 illik tarixi olduğunu və bunun əsasən Azərbaycanda məskunlaşmış alman koloniyaları ilə bağlı olduğunu söyləyib. Agentliyin rəhbəri Sovetlər dövründə Azərbaycanın, demək olar ki, ən çox üzüm istehsal edən ölkə olduğunu, ölkəmizdə dünyanın heç bir yerində olmayan şirin üzüm sortlarının yetişdirildiyini qeyd edərək bu sahədə əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulayıb.

Görüşdə Agentlik və BNIC-in təşkilatçılığı ilə gələcək əməkdaşlıq üçün yol xəritəsinin hazırlanması və gələcəkdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və “Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə tədbirlərin keçirilməsi barədə razılıq əldə edilib.

- 2019-cu il 11 iyul - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Aleks Kaplun və palatanın layihələr rəhbəri Paşa Əliyevi qəbul edib.

Görüşdə ölkəmizdə innovasiya layihələrini həyata keçirən müəsisələrin İsraildəki şirkətlərlə əlaqələrinin qurulması, o cümlədən İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasına ölkəmizin şirkətlərinin qoşulmasına dəstək verilməsi məsələləri müzakirə olunub.

- 2019-cu il 04 sentyabr - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov ABŞ-ın “Oracle Corporation” şirkətinin əməkdaşları - Mərkəzi Asiya

və Qafqaz regionu üzrə satış direktoru Dmitriy Smirnov və texnologiya satışı üzrə nümayəndəsi Dilşod Maxsudxanovu qəbul edib.

Qəbul zamanı D. Smirnov "Oracle" şirkətinin proqram təminatı üzrə məhsullarından bir sıra hallarda ölkəmizdə lisenziyasız istifadə olunmasından narahatlığını ifadə edib.

Agentliyin rəhbəri əqli mülkiyyətə hörmətin aşılanması sahəsində mütəmadi tədbirlərin görüldüyünü, geniş ictimai maarifləndirmə işinin təşkil olunduğunu nəzərə çatdırıb. O, proqram təminatı sahəsində hüquqpozmalar barəsində Agentliyə müraciətin vacib olduğunu və bu məlumatlar dəqiqləşdirildikdən sonra müvafiq tədbirlərin görüləcəyini bildirib.

- 2019-cu il 20 sentyabr - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Amerika Birləşmiş Ştatlarının Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramının (CLDP) nümayəndəsi xanım Arzu Yazd və ABŞ-ın Azərbaycandakı səfirliyinin iqtisadiyyat şöbəsinin müdiri cənab Castin Berqi qəbul edib.

Qəbul zamanı Kamran İmanov əqli mülkiyyət hüquqlarının təminatı sahəsində Agentliyin Nəqliyyat*,* Rabitə *və* Yüksək Texnologiyalar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə sıx əməkdaşlıqda fəaliyyət göstərdiyini, ABŞ-ın "Microsoft" şirkətinin proqram təminatı məhsullarının qorunması üçün artıq bir sıra işlərin görüldüyünü və hazırda "Oracle" şirkəti ilə də bu sahədə müzakirələrin aparıldığını bildirib.

Agentliyin rəhbəri ABŞ-ın əqli mülkiyyət sahəsində dünyada qabaqcıl təcrübəyə malik mütəxəssisləri ilə ölkəmizdə təcrübə mübadiləsinin aparılmasının, xüsusilə də hakimlər üçün təlimlərin keçirilməsinin əhəmiyyətli olduğunu və bu sahədə əməkdaşlığın genişləndirilməsinə müsbət baxdığını diqqətə çatdırıb.

A. Yazd Azərbaycanda informasiya texnologiyaları sahəsinin inkişaf etdiyini və bu baxımdan CLDP tərəfindən müəlliflik hüququnun qorunması, lisenziya müqavilələrinin hazırlanması üzrə ölkəmizdə yeni təlimlərin keçirilməsinə hazır olduqlarını, bu sahədə ABŞ-ın Patent və Əmtəə Nişanları İdarəsi (USPTO) ilə birlikdə fəaliyyət göstərəcəklərini diqqətə çatdırıb.

C. Berq əvvəllər keçirilən görüşdə bəzi narahatçılıq doğuran problemlərin müzakirə olunduğunu diqqətə çatdıraraq, ölkəmizdə qısa müddətdə əqli mülkiyyət hüquqlarının təminatı sahəsində irəliləyişlərin hiss olunduğunu vurğulayıb. O, Agentliyin bu istiqamətdə müsbət işini nəzərə alaraq, növbəti görüşdə "Procter& Gamble" şirkətinin üzləşdiyi problemlərin müzakirəsini təklif edib.

Kamran İmanov əqli mülkiyyət hüquqlarının qorunması sahəsində baş verən bütün problemlərin qarşılıqlı müzakirəsinə hər zaman açıq olduğunu və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə hazır olduğunu bildirib. O, gələcək əməkdaşlıq prioritetləri sırasında hüquqların təminatı, patent axtarış bazalarının genişləndirilməsi, ekspertiza müddətlərinin azaldılması, müəlliflik hüququnun qeydiyyat sisteminin prosedurları və bu qeydiyyatın məhkəmə işlərinin baxılmasında əhəmiyyəti sahəsində ABŞ təcrübəsinin öyrənilməsi olduğunu qeyd edib. Agentliyin rəhbəri CLDP tərəfindən Azərbaycanda həyata keçirilən təlimləri dəstəklədiyini və gələcəkdə yaradılacaq kommersiya məhkəmələrinin hakimləri üçün də əqli mülkiyyət hüquqlarının qorunması, lisenziya müqavilələrinin hazırlanması və digər sahələr üzrə təlimlərin keçirilməsinin daha müsbət nəticələriin olacağını vurğulayıb.

Görüşdə CLDP-nin regional platformasının yaradılması ətrafında da fikir mübadiləsi aparılıb.

- 2019-cu il 25 sentyabr - Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov ABŞ-ın "Trimble" şirkətinin nümayəndəsi Denis Kupsov, "AZEL Systems" MMC-nin prezidenti İqor Yakovenko və Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham") əməkdaşı Rəşid Məmmədovu qəbul edib.

Agentliyin sədri ABŞ-ın “Microsoft” şirkətinin proqram təminatı məhsullarının qorunması üzrə işlərin səmərəsinin artırılması istiqamətində bir sıra işlərin görüldüyünü və hazırda “Oracle” şirkəti ilə də bu sahədə müzakirələrin davam etdirildiyini qeyd edərək, “Trimble” şirkətinin üzləşdiyi problemləri dinləməyə hazır olduğunu bildirmişdir.

D.Kupsov “Trimble” şirkətinin proqram təminatı üzrə məhsullarından bir sıra hallarda ölkəmizdə lisenziyasız istifadə olunmasından narahatlığını ifadə edib. O, “Trimble” şirkətinin bu cür hüquq pozuntularına qarşı mübarizə üsulları üzrə digər ölkələrdəki təcrübəsi barədə məlumat verib və Azərbaycanda şirkətin softver məhsullarının qeyri-qanuni istifadə edilməsi halları ilə mübarizədə Agentliyin köməklik göstərməsini xahiş edib.

K.İmanov ölkəmizdə müəlliflik hüququ obyektlərinin qeydiyyatı sistemi haqqında məlumat verib, bunun hüquq sahiblərinin, o cümlədən informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən şirkətlərin maraqlarında olmasını və mübahisələr yaranan hallarda, əsərlərin qeydiyyatı haqqında Agentlik tərəfindən verilən şəhadətnamələrin məhkəmələr tərəfindən müəlliflik prezumpsiyası kimi tanındığını vurğulayıb.

Agentliyin rəhbəri “Trimble” şirkətinin proqram təminatı məhsullarının qeyri-qanuni istifadə halları barəsində Agentliyə müraciət edilməsinin vacib olduğunu və bununla bağlı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq addımların atılacağını bildirib.

- 2019-cu il 7 noyabr - Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi, ABŞ-ın Azərbaycan Respublikasındakı Səfirliyinin və “Microsoft” şirkətinin birgə təşkilatçılığı ilə “Əqli mülkiyyət hüquqları və kibertəhlükəsizlik” mövzusunda seminar keçirilib.

Tədbirdə geniş məruzə ilə çıxış edən Kamran İmanov ölkəmizin “Doing Business-2019” reytinqinə görə 190 ölkə arasında 25-ci yerdə olduğunu, o cümlədən “biznesin başlaması”na görə 9-cu, “kiçik investorların maraqlarının qorunması”na görə isə 2-ci yerdə qərarlaşdığını qeyd edib, bildirib ki, yeni dərc olunmuş “Doing Business - 2020” hesabatında Azərbaycan islahatçı 20 ölkə sırasına daxil edilib.

O, Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətqabiliyyətlilik İndeksi – 2019” hesabatında Azərbaycanın 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutduğunu və 12 indikatordan 8-i üzrə irəlilədiyini vurğulayıb, bu cür kardinal dəyişikliklərin əqli mülkiyyətin qorunmasında da öz əksini tapdığını - Azərbaycanın həmin hesabatın “Əqli mülkiyyətin qorunması” göstəricisinə görə 141 ölkə arasında 30-cu yerdə qərarlaşdığını xüsusi diqqətə çatdırıb.

Agentliyin sədri qeyd edib ki, bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən institusional islahatların həyata keçirilməsinin nəticəsidir. Əqli mülkiyyət sahəsi həyata keçirilən islahatların innovasiyalı əsasları ilə dəqiq rezonans yaradaraq, bunların nəticəsində əhəmiyyətli, institusional və funksional dəyişikliklərlə müşahidə olunur. Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.

Bunlarla yanaşı, hesabat ilində Agentliyin nümayəndələri ölkə xaricində keçirilən 15-dən artıq beynəlxalq tədbirdə iştirak və çıxış etmişlər. O cümlədən, Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində ənənəvi doqquzuncu beynəlxalq film festivalı çərçivəsində ÜƏMT-nın təşkilatçılığı ilə keçirilmiş“Film və müəlliflik hüququ: imkanlar və çətinliklər” mövzusunda beynəlxalq forumda, Qırğızıstanın paytaxtı Bişkek şəhərində ÜƏMT və Qırğızıstan Respublikası Hökuməti yanında Əqli mülkiyyət və innovasiya üzrə dövlət xidmətinin (Qırğızpatent) birgə təşkilatçılığı ilə “Əqli mülkiyyət siyasəti və qadınların əqli mülkiyyətdə roluna fokuslanan əqli mülkiyyət problemləri”

mövzusunda beynəlxalq seminarda, Türkiyənin İstanbul şəhərində Boğaziçi Universiteti, ÜƏMT, Türkiyə Patent və Əmtəə Nişanları İdarəsin (TÜRKPATENT), Avropa Patent İdarəsinin birgə təşkilatçılğı ilə "Əqli mülkiyyətin idarə edilməsi üzrə 9-cu beynəlxalq konfrans"da, Rusiyanın Paytaxtı Moskva şəhərində keçirilən Rusiya Əqli Mülkyyət üzrə Federal Xidmətinin (Rospatent) 23-cü Beynəlxalq konfransında, İsraildə keçirilmiş "Yeniləşən texnologiyalar və əqli mülkiyyət" mövzusunda beynəlxalq konfransda.

Əqli mülkiyyət sahəsinin mövcud problemlərinin müzakirəsi və onların həlli yollarının araşdırılması, təcrübə mübadiləsinin aparılması üçün mötəbər beynəlxalq konfransların, simpoziumların, seminarların keçirilməsinin xüsusi əhəmiyyətini nəzərə alaraq, Agentlik hesabat ilində Bakı şəhərində bir neçə belə tədbir həyata keçirmişdir.

O cümlədən, Agentliyin təşkilatçılığı və dəstəyi ilə:

- 2019-cu il 19 aprel tarixində YUNESKO tərəfindən elan edilmiş 23 aprel - "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nə həsr olunmuş tədbirlər sırasında geniş beynəlxalq konfrans keçirilmişdir.

Konfrans son iki ildə keçirilən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunun ardıcıl davamı olaraq, yeni-yeni araşdırmalar və tədqiqatlar nəticəsində əldə edilmiş məlumatların geniş auditoriyaya təqdimatı xarakteri almışdır;

- 2019-cu il 26 aprel tarixində **"Beynəlxalq Əqli Mülkiyyət Günü"**nə həsr olunmuş **"Əqli mülkiyyət və idman" mövzusunda seminar** keçirilmişdir.

Builki kampaniya "Qızıl uğrunda" devizi altında keçirilib və idman dünyasına həsr olunub. Bu kampaniya çərçivəsində innovasiya və yaradıcılığın və onları qoruyan əqli mülkiyyət hüquqlarının bütün dünyada idmanın inkişafına və insanların sevincinə necə dəstək verdiyi göstərilib.

Bunlarla yanaşı, hesabat ilində Agentliyin və ÜƏMT-nın birgə təşkilatçılığı ilə 3 beynəlxalq tədbir keçirilmişdir:

- 2019-cu il 5-6 mart tarixilərində - Azərbaycan Respublikasının Hökuməti və ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumun həyata keçirilməsi üzrə Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində "Patent hüququ Müqaviləsi"nə dair seminar.

Tədbir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamının "Patent alınması prosesini sadələşdirən Patent hüququ Müqaviləsinə ("Patent Law Treaty") qoşulmaq üçün müvafiq tədbirlərin görülməsi..." göstərişinin icrası ilə əlaqədar keçirilmişdir;

- 2019-cu il 29-30 oktyabr tarixlərində Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə təşkilatçılğı ilə keçirilən "Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi: əsas prinsiplər və beynəlxalq təcrübə" mövzusunda beynəlxalq regional seminar.

Müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarəedilməsi işinin yeni dövrün çağırışlarına uyğun olaraq qurulması məsələlərinin müzakirəsinə həsr edilmiş tədbirdə 10-dan artıq dövlətin və 5 beynəlxalq qurumların nümayəndələri iştirak etmişlər.

- 2019-cu il 5-6 dekabr tarixlərində - "Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi" mövzusunda seminar.

Tədbir dövlət başçısı cənab İlham Əliyevin islahatlarının dərinləşdirilməsi itiqamətində strategiyasının çərçivəsində məhkəmə-hüquq sistemində aparılan kardinal dəyişikliklərlə bağlı təşkil edilmişdir.

Hesabat ilində Agentliyin beynəlxalq əlaqələr və informasiya şöbəsi tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələri ilə bağlı hökumətlərarası – 71, ölkənin nazirliklərinin və komitələrinin digər ölkələrin aidiyyəti qurumları arasında

əlaqələrə aid – 33, MDB üzrə – 18, digər beynəlxalq qurumlarla bağlı – 29 layihə daxil olmaqla 180-dən artıq sənəd icra edilmişdir.

**11. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər.** 2019-cu il ərzində Əqli Mülkiyyət Agentliyinin Aparatında və tabeliyində olan qurumlarda informasiya texnologiya həlləri, informasiya mübadiləsi, informasiya təhlükəsizliyi, şəbəkə strukturunun qurulması ilə bağlı bir sıra işlər görülmüşdür.

Agentliyin daxili informasiya-kommunikasiya sistemi çərçivəsində informasiyanın fasiləsiz alınması, işlənməsi və ötürülməsi təşkil edilir və onun təhlükəsizliyini təmin etmək üçün müvafiq tədbirlər görülür.

Əqli mülkiyyət hüquqları sahəsində informasiya sisteminin tətbiqi, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılması, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın, Agentliyin rəsmi saytı olan www.copat.gov.az-da yerləşdirilməsi və bu informasiyanın yenilənməsi mütəmadi olaraq təmin olunur. Müvafiq sahələr üzrə Elektron sistemlərin tətbiqi ilə bağlı görülən işlər aşağıda qeyd olunmuşdur:

**“Patent, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) sistemi**

Şəffaflığı təmin etmək məqsədilə patent və əmtəə nişanlarının sifarişçilərinin ekspertiza və digər xidmət aparanlarla əlaqələrinin bilavasitə təmas olmadan qurulmasını təmin edən ASAN tipli “Patent, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi hazırlanmış və fəaliyyətə başlamaq üzrədir. Bu sistem vasitəsilə əqli mülkiyyətlə bağlı bütün müraciətlərin onlayn şəkildə aparılması mümkün olacaqdır. Sifarişçilər təqdim etdikləri sənədlərlə bağlı məlumatları, bildirişləri veb-platform, mobil aplikasiya və sms bildiriş xidməti vasitəsi ilə əldə edə biləcəklər.

**Məlumatların ən tez əldə edilməsi və prosesin izlənməsi**




**“PƏNAH” sistemi**:

- ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilər barədə daxil olmuş iddia sənədlərinin qəbulunu;
- patent və şəhadətnamə verilməsi üçün ekspert rəyinin hazırlanmasını və iddiaçıya göndərilməsini;
- ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilərin ekspertizası sahəsində digər məsələlərin həyata keçirilməsini;
- müvafiq məlumatların dərci üçün tələb olunan sənədlərin qəbulunu;
- ixtiranın, faydalı modelin, sənaye nümunəsinin qeydiyyatı, patent verilməsi və dərc olunması ilə bağlı sənədlərin qəbulunu;

- əmtəə nişanı və coğrafi göstəricilərin qeydiyyatı, məlumatın dərci və şəhadətnamənin verilməsi ilə bağlı sənədlərin qəbulunu;

- müqavilələrin qeydiyyata alınmasına dair sənədlərin qəbulunu;

- patent və şəhadətnamə dublikatının verilməsi barədə sənədlərin qəbulunu;

- reyestrdə qeydiyyatla bağlı məlumatlarda dəyişiklərinin qeydiyyata alınması barədə sənədlərin qəbulunu;

- ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və coğrafi göstəricinin reyestr məlumatlarından çıxarışların verilməsini iddiaçılar üçün asanlaşdıran və şəffaflıq təmin edən sistemdir.

**<u>“Elektron Hökumət” portalına inteqrasiya.</u>** “Elektron Hökumət” virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir. Agentliyin yeddi Elektron Xidməti “Elektron Hökumət” portalına inteqrasiya olunmuşdur. Şöbə tərəfindən bu xidmətlərin fasiləsiz işləməsi təmin olunur. Bu xidmətlər aşağıdakılardır:

- Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə nəzarət markasının verilməs;

- Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçmiş əsərlər üzrə məlumatın verilməsi;

- Əlaqəli hüquqlar obyektinin qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- İnteqral sxem topologiyalarının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- Müəlliflik hüququ ilə qorunan məlumat toplularının qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- Müəlliflik hüququ obyektinin qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;

- Xüsusi qorunma hüququ ilə qorunan məlumat toplularının qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu.

**Sənaye mülkiyyətinin avtomatlaşdırılması sistemi (IPAS).** Azərbaycanda Əqlı Mülkiyyət sisteminin avtomatlaşdırılması layihəsi üzrə tətbiq olunan IPOA (Intellectual Property of Azerbaijan) sistemindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təqdim etdiyi IPAS (Industrial Property Automation System) sisteminə inteqrasiya prosesi bitmək üzrədir. Yaxında bu sistemin “Production” (Emal olunmuş) versiyasının işə başlanması nəzərdə tutulur. Yeni sistem İlkin olaraq Əmtəə nişanlarının Ekspertiza şöbəsinə, sonrakı mərhələdə isə Sənədlərin qəbulu, İxtira və Reestr şöbələrinə tətbiq olunacaqdır. IPAS sistemi tam işə düşənədək IPOA sistemi paralel olaraq fəaliyyət göstərəcəkdir.

IPAS, WIPO tərəfindən hazırlanmışdır və onun mülkiyyətindədir. ÜƏMT üzv dövlətlərinin IP ofislərinə WIPO-nun texniki yardım xidmətləri çərçivəsində pulsuz olaraq təklif olunur. Layihəyə başlamazdan əvvəl, WIPO və İP Office (və ya məsul agentlik), WIPO proqram sistemlərinin istifadəsi şərtləri, məxfiliyi və digər müddəaları təmin etmək üçün ortaq məsuliyyəti müəyyən edən əməkdaşlıq müqaviləsi imzalayır.

IPAS, hər bir IP ofisinin tələblərinə və qanuni çərçivələrinə tam uyğunlaşdırıla bilən bir iş axınına əsaslanan bir sistemdir.




IPAS sisteminin əsas xüsusiyyətləri aşağıdakılardır:

• IP ofisinin hüquqi və inzibati proseslərini avtomatlaşdırmaq üçün tənzimlənə bilən iş axınlarını dəstəkləyir.

• Xidmətlərə daxil olan bütün sorğuları (yeni tətbiqetmə, sonrakı sənədlər, yenilənmə, təyinat, düzəliş və s.) və bütün gedən bildiriş və sorğuları dəstəkləmək üçün konfiqurasiya edilə bilər.

• Rəsmi Qəzet / Jurnalın idarə edilməsi və formatlaşdırılması üçün yayımın idarə olunması funksiyaları,

- Fonetik, mətn və təsnifata əsaslanan axtarışlar daxil olmaqla çevik və güclü axtarış vasitələri (Nice, IPC, Vienna və ya Locarno təsnifat sistemlərindən istifadə etməklə),

- Bildirişlərin və ya milli mərhələ girişlərinin qəbulu və işlənməsi üçün WIPO Global IP sistemləri ilə inteqrasiya olunmuşdur.

• Həm məlumat saxlama, həm də ekran üçün bir çox dildə və dil skriptləri (sağdan sola yazıları daxil olmaqla) dəstəkləyir.

• İstifadəçi rolu ilə funksiyalara və hərəkətlərə girişi idarə etmək üçün təhlükəsiz modeldir.

**Hökumət Ödəniş Portalına (HÖP) qoşulma.** Hökumət Ödəniş Portalı (HÖP) - ölkə iqtisadiyyatında nağdsız hesablaşmaların genişləndirilməsi və bütün regionlarda maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması məqsədilə Azərbaycan Respublikasi Mərkəzi Bankı tərəfindən yaradılmışdır. Portal mərkəzləşdirilmiş qaydada vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin, həmçinin kommunal, rabitə və başqa kütləvi xidmətlər üzrə ödənişlərin internet üzərindən ödəniş kartlarından, bank hesablarından istifadə edilməklə, həmçinin bankların və milli poçt operatorunun maliyyə xidməti nöqtələrində nağd qaydada toplanılması təmin edir.

Agentlikdə tətbiq olunan “PƏNAH” sistemi Hökumət Ödəniş Portalına inteqrasiya olunmuşdur.

**Kadr Modulunun tətbiq olunması.** Aparatda və tabeliyində olan qurumlarda işçilərin davamiyyətinə nəzarət və binaya giriş-çıxışın hesabatının aparılması məqsədilə əsas giriş qapısında turniket sistemi işə salınmışdur. Bütün işçilərə

turniketdən istifadə edə bilməsi üçün RFİD kartlar verilmişdir. İşçilərin davamiyyətini izləyə bilməsi üçün Aparatın və tabeliyində olan qurumların Kadr rəhbərlərinin kompüterlərinə Turniketin məlumatlarını göstərən proqram təminatı quraşdırılmışdır.

**Təhlükəsizlik kameralarının quraşdırılması.** Daxili nəzarətin və təhlükəsizliyin təmin olunması məqsədilə Aparatın Mərdanov qardaşları 124 ünvanında yerləşən inzibati binasının içərisində və binanın həyətində əlavə olaraq IP təhlükəsizlik kameraları quraşdırılmışdır. IP kameralar yüksək çəkiliş keyfiyyətinə malikdir və video qeydiyyat şəbəkə üzərindən NVR (**Network Video Recorder**) avadanlığına yazılır. Sözügedən kamera müşahidə sisteminin daim işlək vəziyyətdə olması və qeydiyyatın aparılması Şöbə tərəfindən nəzarətdə saxlanılır.

**Aparatda və tabeli qurumlarda Elektron Sənəd Dövriyyəsinin (ESD) tətbiqi.** Aparatda və tabeli qurumlarda Elektron Sənəd Dövriyyəsinin (ESD) tətbiqi sayəsində Kargüzarlıq tam olaraq avtomatlaşdırılmışdır. İstifadəçilərə ESD sistemi ilə bağlı təlimlər keçirilmişdir. Elektron Sənəd Dövriyyəsi (ESD) sistemi Kargüzarlıq üzrə aşağıdakı modulları özündə əks etdirir:

- Daxil olan sənədin qeydiyyatı və icrası
- Xaric olan sənədin qeydiyyatı və icrası
- Daxili sənədin qeydiyyatı və icrası
- Əmr/Sərəncam/Qərar-ın qeydiyyatı və icrası
- Elektron sənədin qeydiyyatı və icrası
- Protokolun qeydiyyatı və icrası
- Təstiqlənəcək sənədin qeydiyyatı və icrası
- Hesabatlar və arayışlar
- Kargüzarlıq sistemi üzrə daxili hesabatlar
- Qiymətləndirmə sistemi üzrə daxili hesabatlar
- Əmrlərin təsnifatı

**Microsoft lisenziyaların alınması və quraşdırılması.** Ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunması və innovasiya ekosisteminin inkişaf etdirilməsi məqsədilə reallaşdırılan tədbirlər çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və “Microsoft” şirkətinin lisenziyalı proqram təminatı ilə bağlı birgə əməkdaşlıqda həyata keçirdikləri layihə əsasında Agentlik tələbatına uyğun olaraq 72 ədəd “Microsoft Windows 10”, 2 ədəd “Microsoft Server” və 80 ədəd “Microsoft 365” proqram təminatı lisenziyalarını əldə etmişdir. Bu layihənin həyata keçirilməsi ümumilikdə ölkə üzrə proqram təminatlarından qanuni şəkildə istifadə səviyyəsinin xeyli artmasına səbəb olmuşdur.

**İnformasiya Təhlükəsizliyinin təmin olunması.** İnformasiya Təhlükəsizliyinin təmin olunması məqsədilə Şöbə tərəfindən əməkdaşlar mütəmadi olaraq məlumatlandırılır, məlumat mübadiləsi üçün istifadəçilər üçün müəyyən olunmuş icazələrə uyğun olaraq ümumi paylaşılan qovluqlarda Read-Write icazələrin mexanizminə nəzarət olunur, şəbəkəyə daxili və xarici müdaxilə halları daim nəzarətdə saxlanılır.

## 12. Kadrların peşəkarlığının artırılması, vətəndaşların müraciətlərinə baxılması və kargüzarlığın təşkili.

**12.1. Kadrlarla iş və onların peşəkarlığının artırılması.** Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

Agentliyin Aparatına 14 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 11 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 7 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 8 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 1 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən 11 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilində Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının 99 nəfər işçisi ilə bağlanılmış əmək müqavilələrinə Kitabxananın Əsasnaməsinin, strukturunun və yeni ştat cədvəlinin təsdiq edilməsi ilə əlaqədar xitam verilərək yeni əmək müqavilələri bağlanılmış, bundan əlavə 15 nəfər işə qəbul edilmiş, 10 nəfər isə öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Əqli Mülkiyyət Agentliyi üzrə işçilərin cəmi sayı 259 nəfər, o cümlədən Agentliyin Aparatında 67 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 30 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 58 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında isə 104 nəfər olmuşdur.

Hesabat dövründə 7 nəfərə müvafiq ixtisas dərəcəsi verilmişdir.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmiş, həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə daxil edilməsi təmin edilmişdir.

Hesabat ilində kadrların peşəkarlığının artırılması istiqamətində fəaliyyət davam etdirilmiş, Agentliyin 1 əməkdaşı ÜƏMT-nin Əqli mülkiyyət üzrə ümumi kursunu, 1 əməkdaşı ÜTT-nin Əqli mülkiyyət hüquqlarının ticarətlə əlaqəli aspektləri haqqında Sazişi (TRİPS) üzrə kursunu müvəffəqiyyətlə bitirib sertifikat almışlar.

2019-cu ildə ÜƏMT Akademiyasının təşkil etdiyi Distant kurslarda Azərbaycan nümayəndələrinin iştirak etməsi üçün geniş iş aparılmış və namizədlərə müvafiq tövsiyələr verilmişdir. Agentliyin Aparatının və Mərkəzin əməkdaşlarından 26 nəfər 33 ixtisas üzrə ÜƏMT Akademiyasında distant təhsil almaq üçün qeydiyyatdan keçmişdir.

Bununla yanaşı, hesabat dövründə Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin mütəxəssisləri aşağıdakı kurs, seminar və tədbirlərdə iştirak etmiş və peşəkarlıq səviyyələrini artırmışlar:

"Avrasiya sistemində ixtiraların patentləşdirilməsi (fizika, mexanika və elektrotexnika sahələrində avrasiya iddia sənədlərinin ekspertizasının xüsusiyyətləri)" mövzusunda Avrasiya Patent İdarəsi tərəfindən təşkil olunan ixtisasartırma kursu (Moskva. 20 – 24 may)

"Avrasiya sistemində ixtiraların patentləşdirilməsi (kimya, tibb və biotexnologiya sahələrində ixtiraların ekspertizasının xüsusiyyətləri)" mövzusunda milli patent təşkilatlarının ekspert-mütəxəssisləri üçün Avrasiya Patent İdarəsi tərəfindən təşkil olunan ixtisasartırma kursu (Moskva. 16 – 24 sentyabr)

"Əqli Mülkiyyət. Patentşünaslıq" ixtisas istiqaməti üzrə qiyabi təhsil formasında mütəxəssislərin yenidən hazırlanması məqsədilə Rusiya Əqli Mülkiyyət Dövlət Akademiyasında ixtisasartırma kursu (Moskva. 30 sentyabr – 18 oktyabr).

Mərkəzin nümayəndəsi Ukrayna Milli Universiteti "Odessa Hüquq Akademiyası" ilə əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsinin təşkili və əqli mülkiyyət sahəsində

ikitərəfli əlaqələrin genişləndirilməsi ilə bağlı müzakirələrin aparılması üçün Akademiyaya ezam edilmişdir.

**12.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə 2931 sənəd daxil olmuşdur. Onlardan 872 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclis və Nazirlər Kabinetindən, 783 sənəd mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarından, 591 sənəd hüquqi şəxslərdən, 250 sənəd fiziki şəxslərdən, 324 sənəd beynəlxalq təşkilatlardandır. 111 sənəd isə bilavasitə Əqli Mülkiyyət Agentliyinin Apellyasiya Şurasına daxil olmuşdur.

Bununla yanaşı, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 841 sənəd, əmtəə nişanının qeydiyyatı ilə bağlı 2324 iddia sənədi, ixtiranın qeydiyyatı ilə bağlı 168 iddia sənədi, faydalı modelin qeydiyyatı ilə bağlı 59 iddia sənədi, sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 79 iddia sənədi və coğrafi göstəricinin qeydiyyatı ilə bağlı 1 iddia sənədi daxil olmuşdur.

Sənədlərin Agentlikdə hərəkəti, təşkilata daxil olduğu andan icra edildiyi və ya göndərildiyi anadək, onların dövriyyəsi və icrasına ciddi riayət olunmuşdur.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun aparılmışdır.

Hesabat dövründə Agentlikdən 1889 sənəd göndərilmişdir. Onlardan 104 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Milli Məclis və Nazirlər Kabinetinə, 527 sənəd mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarına, 526 sənəd hüquqi şəxslərə, 208 sənəd fiziki şəxslərə, 137 sənəd beynəlxalq təşkilatlara, 387 sənəd isə bilavasitə Apellyasiya Şurasına daxil olan sənədlərlə bağlı müraciət edənlərə göndərilmişdir.

**12.3. Vətəndaşların müraciətlərinə baxılması.** Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 1032 müraciət (onlardan 165 elektron qaydada), 17 müraciət isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 1049).

Müraciətlərin 868-i müsbət, 3-ü qismən həll edilmiş, 148-nə müvafiq izahat verilmiş, 2-si əsassız sayılmış, 1-i baxılmaq üçün aidiyyəti təşkilata göndərilmiş, 27-si hazırda icradadır.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formaları hər il nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir.

## 13. Kollektiv idarəetmə sahəsində aparılan işlər.

2019-cu ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına, o cümlədən “Azərbaycan Professional Kinorejissorlar Gildiyası”na və “Azərbaycan müəllifləri” İctimai Birliyinə hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Əqli Mülkiyyət Agentliyinin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır.

Bununla yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlar və kollektiv idarəetmə təşkilatlarının fəaliyyətində yol verilən nöqsanlar onların nəzərinə çatdırılmış, o cümlədən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən “Azərbaycan Müəllifləri” İctimai Birliyi tərəfindən yığılan qonorar məbləğinin az olması, İctimai Birliyin fəaliyyətinin kifayət qədər şəffaf və səmərəli olmaması, infrastrukturunun köhnə olması və rəqəmsal dövrün tələblərinə cavab verməməsi “Azərbaycan Müəllifləri” İctimai Birliyinin rəhbərliyinin nəzərinə çatdırılmış, həmçinin İctimai Birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilmişdir. Buna baxmayaraq, sözügedən İB lazımi nəticə çıxarmamış, akkreditasiya üçün tələb olunan sənədləri təqdim etməmişdir. Həmçinin İB 2017 və 2018-ci illər üçün fəaliyyətinin yekunları barədə hesabatlarını çox gec və keyfiyyətsiz təqdim etdiyinə görə Agentlik tərəfindən həmin hesabatlar geri qaytarılmışdır.

Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə qonorarın yığılması sahəsində əməkdaşlıq edilməsi məqsədi ilə hesabat ilində **Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi ilə “Azərbaycan Professional Kinorejissorlar Gildiyası” arasında əməkdaşlıq sazişi** imzalanmışdır.

Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi sahəsində beynəlxalq təcrübəni öyrənmək, həmçinin bu sahədə təcrübə mübadiləsi məqsədi ilə **2019-cu il 29-30 oktyabr tarixlərində** Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nın birgə təşkilatçılığı ilə **“Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi: əsas prinsiplər və beynəlxalq təcrübə”** mövzusunda beynəlxalq regional seminar keçirilmişdir.

Böyük maraq doğuran bu beynəlxalq tədbirdə Polşadan, Türkiyədən, Rusiyadan, Ukraynadan, Qazaxıstandan və digər ölkələrdən 20-ə yaxın xarici qonaq iştirak etmiş, həmçinin beynəlxalq təşkilatlar geniş təmsil olunmuşlar: ÜƏMT, CISAC, Avrasiya İqtisadi Komissiyası, Sony-Music. Bununla yanaşı, iki beynəlxalq təşklat video-çıxışla tədbirə qoşulmuşdur: İfaçıların Hüquqlarının Kollektiv İdarəetmə Təşkilatlarının Assosiasiyası (SCARP) və Surətçıxarma Hüquqları üzrə Təşkilatların Beynəlxalq Federasiyası (IFFRO).

Tədbirdə kollektiv idarəetmə sahəsində şəffaflığı, dürüstlüyü, transparentliyi, korporativ maraqlara, ayrıseçkiliyə yox, yalnız hüquq sahiblərinin mənafeyinə xidmət edilməsi, dövlətin bu təşkilatlarla bağlı nəzarət sisteminin səmərəliyinin artırılması məsələsi ön plana çəkilmiş, müzakirələr zamanı Agentliyin nümayəndəsi tərəfindən ölkəmizdə son vaxtlar əqli mülkiyət sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər, o cümlədən instutisional islahatlar, habelə əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün istifadəsi və reprosurətçıxarma ilə bağlı normativ hüquqi aktlar barədə geniş məlumat verilmiş, bu sahədə işlərin təşklində kollektiv idarəetmə təşkilatlarının fəaliyyətinə dəstək verildiyi qeyd olunmuş, belə tədbirlərin göstərilən sahələrdə əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi baxımından çox faydalı olduğu vurğulanmışdır.

Kollektiv idarəetmə təşkilatları tərəfindən 2019-cu ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların il ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır.

Bununla yanaşı, kollektiv idarəetmə təşkilatları ilə əhatə olunmayan sahələrdə Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi və istifadəyə görə onlar üçün qonorar yığılması işi təşkil olunmuş, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, kollektiv idarəetmə təşkilatları ilə dövlət orqanları arasında əlaqələrin inkişafı, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları və hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

Eyni zamanda müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi ilə bağlı keçirilən tədbirlərdə İnternetdə rəqəmli hüquqların idarə olunmaması və s. məsələlər qeyd olunmuş, həmçinin Agentlik tərəfindən hazırlanmış və həyata keçirilən infrastruktur layihələri, o cümlədən one-stop-shops formatında onlayn lisenziyalaşma və monitorinq (müəllif hüququ ilə qorunan hər hansı bir kontent üçün bir pəncərə prinsipi) sistemi barədə məlumat verilmişdir.

**Müəllif qonorarı.** 2019-cu ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində 108539.72 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Bunlardan Azərbaycan müəlliflərinə 76281.83 manat, xarici müəlliflərə 13927.08 manat, Dövlət varidatlarına 1380.22 manat, gəlir vergisi 15835.48 manat, bank xidməti 1115.11 manat təşkil edir. Eyni zmanda qonorar hesablanan yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin hesabına köçürülmüş 136110.23 manat müəllif qonorarı köçürmə yolu ilə 106625.26 manat Azərbaycan müəllifllərinə, xarici müəlliflərə- 829.18 manat, qonorardan tutulmuş gəlir vergisi 16307.27 manat vəsait Dövlət büdcəsinə, bank xidməti 1195.53 manat köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2012-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3188, 2013-cü ildə 3190, 2014-cü ildə 3200, 2015-ci ildə isə 3231,2016-cı ildə 3322, 2017-cı ildə 3348 2018-cı ildə 3380 nəfər, 2019-cu ildə isə 3430 nəfər olmuşdur.

2019-cu ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-konsert müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2019-cu ilin statistik göstəriciləri qonorar məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 385 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 385 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin Visa elektron kartları vasitəsi ilə verilməsi təmin edilmişdir.

## 14. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri

Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2019-cu ildə Əqli Mülkiyyət Agentliyinin işçilərinin əməyinin ödənilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan 1321370.00 manat vəsait daxilində aparılmışdır.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 1001164.01 manatı əmək ödənişlərinə (o cümlədən, 772451.11 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 11020 manat ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə,

207716.23 manat sair pul ödənişlərinə, 9976.67 manat müavinət və iş qabiliyyətinin itirilməsinə görə), 223017.15 manat DSMF-na ayırmalara, bank xərci 2766.51 manat, 24764.88 manat vəsait Agentliyin saxlanması üçün digər maddələr üzrə xərclənmişdir. Cəmi faktiki büdcə xərcləri 1252434.22 manat olmuşdur. 68935.78 manat qənaət edilmiş qalıq məbləğ büdcəyə qaytarılmışdıır.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi daxilolma 2019-cu ildə 3 339 840.15 manat olmuşdur. O cümlədən:

Madrid Sazişinə uyğun olaraq Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Maliyyə Xidmətindən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin hesabına 2019-cu il üzrə toplanılmış maliyyə vəsaitinin köçürülməsi ilə bağlı 1256831.69 manat (753462.58 chf ) vəsait daxil olmuşdur.

Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanlması üçün Avrasiya Patent Təşkilatının Avrasiya Patent Bürosundan təqdim edilmiş Reyestr məlumatları üzrə Agentliyin hesabına daxil olan illik rüsumların məbləği 1155128.45 manat (45487470.06 rub) təşkil etmişdir.

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Agentlik tərəfindən “müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlərə görə” tutulan 105987.30 manat məbləğində dövlət rüsumunun 20 %-i (21197,46 manat) Agentliyin hesabına köçürülmüşdür.

“İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə” 906682.55 manat təşkil etmişdir.

Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu dövlət rüsumunun ödəyicisinin yazılı müraciətinə əsasən 4000 manat məbləğin ödəyicilərin hesablarına qaytarılması təmin edilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2019-cu ildə 2021280.64 manat olmuşdur. O cümlədən:

Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar,işçilərin icbari sığortası) 165922.86 manat, ezamiyyə xərclərinə 75550.31 manat, Mərdanov qardaşları 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər 128986.88 manat olmuşdur (0 cümlədən: mühafizə xərci - 79156.27 manat,enerji xərci -27123.29 manat, qaz haqqı-9483.27 manat,Su haqqı-8314.00 manat, dizinfeksiya xərcləri 2699.64 manat, lift xidməti 1416.00 manat), Server avadanlığı - 43399.22 manat, Kondisionerlərin alınması quraşdırılması - 27936.50 manat, proqram təminatına 36500 manat, qəzet və jurnallara abunə haqqına 9230 manat, dəftərxana və təsərrüfat xərclərinə 30043,08 manat, Tədbirlərin təşkili üzrə xərclər 39031.46 manat, Mənfəət vergisi 82264,01 manat, Nəqliyyat vasitələri ilə bağlı xərclər (avtomobil sığortası ,təmiri, dayanacaq haqqı, yanacaq ) 49317.53 manat, Kommunal xidmətlər (Hökumət evi) 38128,00 manat, Cari təmir xərcləri 16731.57 manat, Rabitə ilə bağlı xərclər, internet abunə, 32003.38 manat, Poçt və yük daşıma xidməti 3888.84 manat, digər xərclərə (Suvenir üçün Kitab alışı Digər xərclər( Audit yoxlaması, DQ müsabiqə,Texniki pasport ucun, rüsum ödənişi və geri qaytarılan) 10906.82 manat,bank xərcləri 2233.59 manat və s. təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyinə olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2019-cu il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsaiti hesabına ödənilmişdir. O cümlədən:

Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri – 351370.49 manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri – 845763.80 manat təşkil etmişdir.

2019-cu ildə Əqli Mülkiyyət Agentliyinin balansında olan 2 594 915 (İki milyon beş yüz doxsan dörd min doqquz yüz on beş) manat əsas vəsaitdən 295 864,07 manat dəyərində vəsait Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin balansına və 136 110,0 manat dəyərində vəsait isə Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzininin balansına verilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası 126 ştat vahidinə malikdir və Kitabxana "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncamları rəhbər tutaraq fəaliyyət göstərir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Respublika Elmi-Texniki Kitabxanası 2019-cu ildə öz fəaliyyətini ona büdcə vəsaiti hesabına ayrılmış 868966 manat daxilində aparmışdır. Ştatda olan işçilərin əmək haqqı – 321917.09 manat, Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri – 104198.50 manat, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar – 94407.99 manat, İşçilərin icbari dövlət sığortası üçün xərclər 906.11 manat, Dəftərxana və təsərrüfat mallarının alınması üçün xərclər - 4962.78 manat, idarənin digər xərcləri üçün 4573.32 manat, Enerji xərcləri 773.80 manat, su haqqının məbləği 112.01 manat, İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi xərcləri 352.15 manat, Çirkab su haqqının ödənilməsi xərcləri 112.01 manat, Digər kommunal xidmətləri haqqının ödənilməsi xərcləri 725.86 manat, Kommunikasiya xidmətləri ilə bağlı digər xərclərin ödənilməsi 792.97 manat, Ölkədaxili telefon danışıq haqqının ödənilməsi 863.10 manat, mebel inventarının alınması 22005.00 manat, Avadanlığın alınması 1274.40 manat, Digər alışlar və xidmətlər kitab alınması 10332.00 manat, İcarə və muzdlu xidmətlər 913,24 manat, Bank xərci 1351.72 manat təşkil etmişdir

Digər maşın və avadanlıqlar 40924.65 manat, İstehsalda istifadə olunmayan qeyri-maddi aktivlər 16992,00 manat, nəqliyyat vastəsinin alınması 43040.00 manat, ezamiyyə xərcləri 6551.67 manat, yük daşıma və kuryer xidmətinə görə 4687.14 manat olub. Bununla da, bütün maddələr üzrə yekun xərci 682769.51 manat təşkil edir. Hesabat ili ərzində 186196.49 manat qənaət edilmiş qalıq məbləğ büdcəyə qaytarılmışdıır.